

**Zelenski danışıqların əsas mövzusunu açıqladı**

Səh: 2-də



**Bəxtiyar Vahabzadənin MK katibi Həsən Həsənova məktubu**

Səh: 7-də



**Dünya dinlərində cinayət və cəza paradiqmasına hüquqi-fəlsəfi baxış**

Səh: 8-9-da

## Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!

www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com




№08 (2396) * 09 dekabr 2025-ci il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# Mehdiyevlə Kərimlini birləşdirən 2 ay 15 günlük həbs



*Bratislavada İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub*

Bax səhifə 2



Bax: səh.5

Azərbaycan neftinin Ermənistana ilk tranzitindən rüsum tutulmayacaq ✓2

Mədəniyyət Nazirliyində "bir gəncin manifesti" ✓3

Bakı Zooparkında təhlükə böyüyür... ✓10

Qədirli... Qədirsiz günlər... ✓11

İtaliya sürətlə qocalır və tənhalıq niyə əsas narahatlığa çevrilib? ✓12

Əliağa Vahidin büstü Masazırda yenidən zibil içində... ✓13

Bax səh.4

## Gəncədə Prezident sərəncamı niyə icra olunmur?

Bax səhifə 3



Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlını aşıqlar əli çıraqlı axtarır...

Bax səhifə 4



Sədr müavininin oğlu niyə Londondakı evlərini girov qoydu?

## Özümüzün idman oyunumuzu niyə əcnəbilərə verək?

✓6



"Qanunları bizə uyğunlaşdıranlar dilimizi təmiz bilmir" ✓2



Sabiq nazir Azərbaycanda qazandığı pulu niyə Jirinovski ailəsinə qazandırırmış? ✓9

# Bratislavada İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 8-də Slovakiyanın paytaxtı Bratislavada rəsmi qarşılanma mərasimi olub.**

Prezident Sarayında dövlət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirilib.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verib.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Azərbaycanın nümayəndə heyətinin üzvləri Prezident Peter Pelleqriniyə, Slovakiyanın nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim edilib.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Prezident İlham Əliyev xatirə kitabını imzalayıb.

# Zelenski danışıqların əsas mövzusunu açıqladı



**“ABŞ-nin təklif etdiyi sülh təşəbbüsü ilə bağlı danışıqlar zamanı tərəflər Donetsk və Luqansk vilayətlərinin gələcəyi ilə bağlı razılığa gələ bilməyiblər”.**

Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski “Bloomberg”ə telefon vasitəsilə verdiyi müsahibəsində bildirib.

**“ABŞ-nin, Rusiyanın və Ukraynanın mövqeyi var, amma bizim Donbas barədə vahid fikrimiz yoxdur”**, - Zelenski deyib.

Ukrayna prezidentinin sözlərinə görə, Kiyev Qərb müttəfiqləri, ilk növbədə ABŞ-dən təhlükəsizlik zəmanətləri ilə bağlı ayrıca saziş imzalanmasını israrla tələb edir:

**“Mənim və bütün ukraynalıların cavab almaq istədiyi bir sual var: əgər Rusiya yenidən müharibəyə başlasa, tərəfdaşlarımız nə edəcək?”.**

# “Qanunları bizə uyğunlaşdıranlar dilimizi təmiz bilmir”

**“Qanunların dili anlaşılan deyil. Rus çarlarından biri deyirdi ki, qanunları elə dildə yazın ki, sadə adamlar başa düşməsin. Məcbur olub məmurun qapısını döysün ki, bunu bizə izah elə. Bizim bəzi qanunlarımızın dili o cürdür”.**

“Qafqazinfo” xəbər verir ki, bunu Xalq şairi Sabir Rüstəmxanlı Milli Məclisdə “Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: Mövcud vəziyyət və perspektivlər” mövzusuna həsr edilən Konfransda bildirib.



“Məsələn, “Təhsil haqqında” Qanun müzakirə olunanda bunu demişdim. “İnformal təhsil”, “distant təhsil”, “innovasiya” və s. kimi sözlər qeyd olunub. Bir sıra qanunlarımızda belə hal var. Çünki o qanunlar kənar ölkələrin qanunları əsasında hazırlanır. Uyğunlaşdıran adamlar da bizim dilimizi təmiz bilmir”, - xalq şairi bildirib.

# Azərbaycan neftinin Ermənistana ilk tranzitindən rüsum tutulmayacaq

**Gürcüstan Azərbaycan neft məhsullarının Ermənistana ilk tranzitinə rüsum tətbiq etməyəcək.**



Bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin bəyanatında deyilir.

**“Gürcüstan hökuməti bu il dekabrın 5-də tərəfdaş ölkə kimi Azərbaycandan yanacağın tranziti ilə bağlı rəsmi müraciət alıb. Baş nazir İrakli Kobaxidzenin qərarı ilə “Gürcüstan Dəmir Yolları”na sözügedən yükün tarif tətbiq edilmədən daşınması barədə dərhal tapşırıq verilib”**, - məlumatda deyilir.

Qeyd olunub ki, Gürcüstan Azərbaycan və Ermənistanın strateji və etibarlı tərəfdaşı olub və olmaqda davam edir, həmçinin regionda sülh və sabitliyi dəstəkləyir.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il oktyabrın 21-də Qazaxıstanda səfərdə olarkən Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını bəyan etmişdi. Bu il noyabrın 5-də Rusiya buğdası Azərbaycan üzərindən daşınmaqla Ermənistana çatdırılıb. Bundan başqa, Qazaxıstan buğdasının yüklənmiş olduğu qatarlar Azərbaycan ərazisindən keçməklə noyabrın 8-də Ermənistana çatıb.



# Məmməd İbrahimin şikayəti təmin edilmədi

**Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aparılan istintaqla AXCP sədri Əli Kərimli ilə birgə həbs edilən partiyanın Rəyasət Heyətinin üzvü Məmməd İbrahimin apellyasiya şikayətinə baxılıb.**

Bakı Apellyasiya Məhkəməsi şikayəti əsassız sayaraq təmin etməyib.

Məmməd İbrahim barəsindəki birinci instansiyanın 2 ay 15 günlük həbs qətimkan tədbiri qərarı qüvvədə saxlanılıb.

Qeyd edək ki, Əli Kərimli və Məmməd İbrahim Ramiz Mehdiyevin cinayət işi üzrə istintaqa cəlb ediliblər. Onlar AR Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə və ya onu zorla saxlamağa, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham olunurlar.

# Sabiq nazir Azərbaycanda qazandığı pulu niyə Jirinovski ailəsinə qazandırırmış?



**Bunun qarşısı alınmalıdır: niyə bizim bəzi məmurlar fürsət düşən kimi Azərbaycanda çırpışdıqlarını dərhal xaricə daşıyıb həmin ölkələrin dövlət büdcəsini varlı etməyə səfərbər edirlər... Budur, jurnalist Cavanşir Həsənli Azərbaycanın keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevin biznes ortaqlarından biri olan Rusiya Liberal Demokrat Partiyasının keçmiş sədri Vladimir Jirinovskinin qardaşı oğlu Andrey Jirinovski ilə ələqələrini ortaya qoyub. Sitat:**

**“...Ət və balıq, o cümlədən xərçəng və molyusk kimi dəniz məhsullarının satışı ilə məşğul olan “ÇE KORPORASİYASI” MMC (OOO “KORPORAÜİƏ ÇE”) Andrey Aleksandroviç Jirinovskiyə məxsus olub və Əbülfəs Qarayev hazırda bu şirkətdə 50 faizlik hissəyə sahibdir. Rəsmi maliyyə hesabatlarına görə şirkət 2024-cü ildə 147 milyon rubl məbləğində gəlir əldə edib...”.**

Qoy Azərbaycan DTX aydınlaşdırsın ki, bu iqtisadi və kommersiya bağlılığı daha haralarda nöqtələnir...

**A.Məmmədli**

# Əli Kərimli barədə həbs qətimkan tədbiri seçildi...

**Bu gün AXCP sədri Əli Kərimli barəsində həbs qətimkan tədbiri seçilib. Tezadlar.az xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılan AXCP sədri Əli Kərimli barəsində Səbail rayon Məhkəməsində təqdimata baxılıb. Məhkəmə onun barəsində 2 ay 15 gün müddətinə həbs qətimkan tədbiri seçib. Əli Kərimliyə Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin**



**konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham irəli sürülüb.**

Qeyd edək ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimli və partiyanın Rəyasət Heyətinin üzvü Məmməd İbrahimli barələrində aparılan araşdırma çərçivəsində DTX-də dindiriliblər. Onların evində axtarış aparıldıqdan sonra Dövlət Təhlükəsizliyi Xidmətinə aparılıblar. Məlumata görə, Əli Kərimlinin və Məmməd İbrahimin evindəki axtarış və dindirilmə Ramiz Mehdiyevin DTX-da istintaq olunan cinayət işi ilə əlaqədardır.

Xatırlatma: Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.

# “Azadlıq xalqın ilahi haqqıdır və bu hüququ təmin etmək hökumətin borcudur”

**İran Prezidenti Məsud Pezeşkian ölkə vətəndaşlarının hüquq və azadlıqlarından danışıb və vurğulayıb ki, azadlıq xalqın ilahi haqqıdır və bu hüququ təmin etmək hökumətin borcudur.**

İran Prezidenti Məsud Pezeşkian **“İdeoloji sistemdə xalq hüquqları və qanuni azadlıqlar”** konfransında vətəndaşların hüquqlarının və onların qanuni azadlıqlarının praktiki tətbiqi barədə danışıb.

İran dövlət xəbər agentliyi İRNA-nın məlumatına görə, prezident bildirib ki, azadlıq xalq üçün ilahi bir haqq, hökumət üçün ciddi bir məsuliyyətdir və ölkə vətəndaşları təkcə hüquqlara malik deyil, həm də bu azadlıqların reallaşmasında əsas iştirakçılar hesab olunurlar.

**“Azadlıq sadəcə heyvan azadlığı və ya minlərlə qandal insanları bağlayarkən seçki qutusu vasitəsilə demokratiyanın nümayişi deyil. Mənəvi azadlıq və daxili insan məhdudiyyətlərindən azadlıq - bu, İslam və Qərb doktrinalarında azadlıq arasındakı fərqin əsasını təşkil edir”**, - deyə Məsud Pezeşkian bildirib.

İslamda azadlıq təkcə başqalarının hüquqlarını və cəmiyyətin maraqlarını təhdid etməməli, həm də fərdin şəxsi maraqlarını təhlükəyə atmamalıdır.



İran lideri əlavə edib ki, azadlığı qorumaq bir vəzifədir, eyni zamanda araşdırmaq, casusluq və onu ifşa etmək qadağandır.

**JASMİN**

# İcbari tibbi sığorta kimləri sığortalaya bilməyəcək???

**“Maliyyə naziri bu gün çıxış edərək deyib ki, əhalinin cəmi 5%-i yəni, təxminən 500 min nəfər icbari tibbi sığortanı özləri ödəməli olacaqlar.**

*Hazırda 1,5 milyondan artıq subyektdən 800 mini aktiv hesab edilir. Aktiv olmayan, davamlı tibbi sığorta ödəməyənlər necə olacaq?*




**Nazirin dediyinən görə, 2026-cı ildə dövlət büdcəsindən ayrılacaq 900 milyon manat 7,3-7,5 milyon manat insanı əhatə edəcək. O bura kimləri daxil edir?**

**1) Pensiyaçılar.** Hazırda ölkədə pensiyaçıların sayı 1,1 milyon nəfərdir. Əlilliyə görə pensiya alanları aşağıda ayrıca sayacağıq deyə bu kateqoriyadan kənar pensiya alanların sayını ayrıca götürək - təxminən 850 min nəfər. Bunun üzərinə pensiya hüququ olmadığı üçün ahıllıq müavinəti alan 150 min nəfərdən artıq şəxsi gəlsək, şərti olaraq pensiyaçı sayını 1 milyon nəfər götürmək mümkündür;

**2) Əlilliyi olan şəxslər.** Hazırda bu kateqoriyadan olan insanların sayı 500 min nəfərə yaxındır. Bura həm pensiya hüququ olan və pensiya alan, həm də pensiya hüququ olmadıqları üçün sosial müavinət alan şəxslər daxildir. Eyni zamanda, aşağıda uşaqların sayında təkrar hesablama olmasın deyə onu da qeyd edim ki, əlilliyə görə pensiya alan şəxslərin 42 min nəfəri 18 yaşadək uşaqlardır;

**3) 18 yaşadək uşaqlar.** Fiziki məhdudiyyətli uşaqlar nəzərə alınmadan (yuxarıda sayıldığı üçün) 18 yaşadək uşaqların sayı təxminən 2,6 milyon nəfərdir;

**4) İşsizlər.** Rəsmi məlumata görə dövlət məşğulluq orqanlarında rəsmi qeydiyyatı olan işsizlərin sayı 220 min nəfərə yaxındır.

**5) Dövlətdən müavinət alan yoxsul vətəndaşlar.** Bu kateqoriyadan olan şəxslərin sayı 330 min nəfərə yaxındır.

Qeyd elədiyim əhali qrupları məhz bu gün nazirin sadaladığı kateqoriyalardır və təqdim elədiyim rəsmi mənbələr onların sayının maksimum 4,7 milyon nəfər ola biləcəyini göstərir. Amma nazir 7.3-7,5 milyon nəfər olduqlarını deyir. Hərçənd bu müzakirələrə son qoymaq üçün rəsmi qaydada dövlətin subsidiyalaşdıracağı əhali qrupları üzrə potensial say göstərilməklə siyahı açıqlamaq da mümkün idi.

İkincisi, nazir deyir ki, 2 milyon nəfər muzdlu əmək müqaviləsi əsasında çalışır. Halbuki rəsmi statistika onların sayının 1,8 milyon nəfərdən də az olduğunu göstərir.

Yerdə qalır sahibkarlıq subyektərinin sayı. Bu qrup say baxımından ən mübahisəli qrupdur. Çünki vergi orqanlarının da müntəzəm açıqlamalarından görünür ki, rəsmi qeydiyyatda olan biznes subyektlərinin daima ən yaxşı halda yarısı aktiv, yəni real fəaliyyəti olan sahibkarlar olur. Məsələn, hazırda 1,5 milyondan artıq subyektdən 800 mini aktiv hesab edilir. Aktiv olmayan, davamlı tibbi sığorta ödəməyənlər necə olacaq? Məsələn, bir fərdi sahibkar il ərzində sığorta ödəmir, amma vergiyə boş hesabat təqdim elədiyi üçün aktiv ödəyici sayılır? Bunları necə sayacaqlar?

Beləliklə, muzdlu işçilərin sayı və aktiv ödəyicilərlər dövlətin subsidiyalaşdıracağı əhali qrupları nəzərə alındıqda maksimum 7,3 milyon nəfər insandan söhbət gedir və 3 milyon nəfərə yaxın insan hansı qrupa aid olur o zaman?

Nazir isə az qala 9,7 milyon nəfərdən danışır.

Hər halda 2026 uzaqda deyil, yaşayıb birlikdə görəcəyik.

Azərbaycanda məşğulluq statistikası ən azı 2,5 milyon nəfər şəxsin qeyri-formal məşğul olduğunu aşkar göstərir. Bunu görmək çətin deyil ki?

Üstəgəl, 2 millyon nəfər artıq qeyri-iqtisadi fəal içərisindəki 1 mln. nəfərə yaxın əmək qabiliyyətli yaşda işləmək qabiliyyəti olanların sayı da aydın görünən statistikasıdır.

Təkcə bu 2 statistika 95 yox, hətta 80%-i belə imkansız edir.

Nazir bir daha vurğulayıb ki, qeyri-rəsmi çalışanlardan sığorta haqqı alınacaq, ödənmədiyi halda 10% cərimə olunacaq.

Amma aydın olmur ki, təsadüfi gəlirləri olan, mövsümi və təsadüfi işlər səbəbindən davamlı iş olmayan, ilin yarısını işləyib yarısını iş axtaran insanlar necə olacaq? Axı bu adamların hər ay gəliri yoxdur ki, hər ay sığorta ödəsin”.

**Rövşən Ağayev**

**“Təzadlar”ın elektron poçtuna son bir həftədə aşıqlardan 6 şikayət və giley- güzarlı məktub daxil olub. Bəzən şikayət məktublarını dərc edəndə redaksiyanı qərəzli olmaqda qınayırlar. Çap etməyəndə isə qarşı tərəf fərqli düşüncələrə sahib olur ki, görəsən niyə şikayətimizə diqqət yetirilmədi, yaxud ört- basdır edildi?**

# Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlını aşıqlar əli çıraqlı axtarır...



Aşağıdakı şikayət məktubunda isə söhbət açılan məsələ birbaşa Aşıqlar Birliyinin sədrinə ünvanlıdır. Təqdim edirik: **“Hörmətli redaksiya! Son illər illər Aşıqlar Birliyi niyə ustad aşıqların yubileyini qeyd etmir? Məsələn, bu il Əməkdar mədəniyyət işçisi, uzun illər ADİU-da Aşıq sənəti kafedrasına rəhbərlik etmiş alim-aşıq, ustad sənətkar, Əməkdar mədəniyyət işçisi Əhliman Rəhimovun 70, bu gün yeganə Prezident təqaüdçüsü olan Əməkdar mədəniyyət işçisi Ulduz Quliyevanın isə 80 illik yubiley ili idi. Heç biri qeyd olunmadı. Hətta Ulduz xanımın özünün təşkil etdiyi yubiley tədbirinə də qatılmadı Məhərrəm Qasımlı, adını adicə təbriknamə ilə də anmadı. Niyə? Yaxşı olar ki, bu haqda Ulduz xanımın özündən soruşasınız (tel: 050 ... 69 12)**

**Bütün ölkə Qərbi Azərbaycanla bağlı tədbirlər keçirdiyi halda Aşıqlar Birliyi heç olmasa əslən Qərbi Azərbaycandan olan ustad aşıq İsgəndər Ağbabalının 100 illik yubileyini də qeyd etmədi. Çünki qohumları gəlib Məhərrəmə bunun üçün pul təklif etmədi. Ulduz xanım da tədbirin keçirilməsi üçün ondan istənilən 5000 manatı vermədiyinə görə Muğam Mərkəzinə təyin olunmuş tədbir keçirilmədi...”.**

Ulduz xanımdan soruşduq, fakt təsdiqləndi.

Daha ətraflı bəhs olunacaq. Və çox istərdikş Məhərrəm Qasımlı özü də bu şikayətdə qeyd edilənlərə mövqeyini bildirsin.

**“Təzadlar”ın Araşdırma Qrupu**

# Tanınmış yazıçı sabiq nazir Əbülfəz Qarayevin “müdafiəsi”nə qalxdı...



**Sosial və elektron mediada keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevin fəaliyyəti sərt tənqid edilir...**

Tanınmış yazıçı Firuz Mustafa Əbülfız Qarayevin “müdafiəsi”nə qalxdı... Yazıçının sosial media hesabındakı statusu diqqəti çəkir: **“...Bəzi ağzıgöyçəklər deyir ki, keçmiş mədəniyyət naziri Ə.Qarayevin vaxtında teatrlar inkişaf etməyib. Elə deyil axı... Əvəzində nazirin xaricdəki “AmfiTeatr” hoteli inkişaf edib. Obyektin adından göründüyu kimi, bu adamın teatra sevgisi olub. Əsas da bu sevgidir. Olmasın teatr, olsun Amfiteatr. Olmasın teatr, olsun hotel. Bir fərqi var? Onsuz da hər obyektin öz repertuarı və ya menyusu var. Lap teatrda olduğu kimi. Elə deyil?”.**

# Mədəniyyət Nazirliyində “bir gəncin manifesti”



**Tezadlar.az bu yazını düşünmək və nəticəcə çıxarmaq üçün təqdim edir:**

“Hamı yazır, birini də mən yazım... Deməк, Azərbaycanın ən nüfuzlu universitetlərindən birini yüksək balla bitirən, evin tək övladı olmasına baxmayaraq Vətən müharibəsinin ən qaynar nöqtələrində könüllü iştirak edən və DİM-in indiyə qədər keçirdiyi dövlət qulluğu imtahanlarında yalnız ən yüksək nəticə göstərən 10 faizlik kateqoriyaya düşməyi bacaran bir gənc Mədəniyyət Nazirliyində işə qəbul olunur. Daha dəqiq desək, DİM-in imtahanından keçdikdən sonra Mədəniyyət Nazirliyindəki müsabiqə mərhələsində də uğurlu nəticə göstərir və təbii olaraq gözləyir ki, bütün mərhələləri keçdiyi üçün işə çağırılacaq. Amma aylar, hətta illər keçir, Nazirlik həmin gənci işə dəvət etmir. Heç bir əsas, heç bir rəsmi izah təqdim olunmur... Sanki onun qəbul olub-olmaması ya unudulub, ya da kiminsə qəsdən yadından çıxıb.

Son aylarda yazılanlara, deyilənlərə və ortaya çıxan faktlara baxanda isə hər şey daha da aydın olur: Demə, o gəncin işə götürülməməsinin səbəbi nə onun savadı, nə qabiliyyəti, nə də keçdiyi döyüş yolu və imtahan nəticələri imiş. Səbəb tamam başqa imiş... Çünki “iki xalaoğlu” tərəfindən özəl mülkiyyət kimi bölüşdürülən Nazirlikdə yer əvvəlcə qohum-əqrabaya, dost-tanışa, “öz adamlarına” ayrılırmış. Belə bir sistemdə savadlı və yüksək nəticə göstərən bir gəncin yeri hardan olsun ki?..

Həqiqət budur: haqqın, zəhmətin və bilginin dəyər görmədiyi yerdə istedadlar itib-batır, belə idarə olunan qurumlar isə içəridən çürüməyə məhkum olur. Mən isə bu məsələnin ağırlığını və bütün təfərrüatını şəxsən nazir Adil Kərimliyə müraciət edərək çatdırmış, həmin gəncin haqqı olan işə qəbulunun təmin edilməsini xahiş etmişdim. Təbii ki, müraciətim nəticəsiz qaldı.

Görünən odur ki, nazirin “kruqu”nda savadlı, bacarıqlı, vətən üçün döyüşən birinə ehtiyac yoxdur. Necə ki, ixtisaslı kadrların yerinin sevgililər, bacılar, qardaşlar və dost-tanışlarla doldurulmasının səbəbi Nazirliyin rəhbər heyətinə göz gəzdirəndə tam aydın görünür. Əks halda, Antaliyadakı oteldə hay-küylü dava-dalaşın səsi buralara qədər gəlməzdi.

**Əlişir Əhəd, jurnalist**

# Cəmil Həsənli də DTX-ya çağırıldı - Ramiz Mehdiyevin cinayət dosyesinə görə...

## *Cəmil Həsənlinin həyat yoldaşı isə ölkəni tərk edib*



**Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevlə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) davam edən cinayət işi üzrə Cəmil Həsənlinin şahid qismində dindirilməsi üçün DTX-ya çağırıldığı məlum olub.**

Tezadlar.az-ın məlumatına görə, bu gün Milli Şuranın sədri, sabiq deputat Cəmil Həsənli həyat yoldaşı ilə birgə Azərbaycandan getmək istəyib. O, bildirib ki, bu gün “qızının ailəvi tədbiri ilə bağlı” həyat yoldaşı ilə Dubaya getmək istəyirmiş. Lakin aeroportda ona ölkədən çıxış məhdudiyyəti tətbiq edildiyini öyrənib. Cəmil Həsənlinin həyat yoldaşı isə ölkəni tərk edib.

Xatırladaq ki, ötən gün Milli Şuranın üzvü, AXCP sədri Əli Kərimli və AXCP Rəyasət Heyətinin üzvü Məmməd İbrahimin evində axtarış aparılıb, daha sonra onlar DTX-da dindirilirlər. Məlumata görə, proses Ramiz Mehdiyevin DTX-da istintaq olunan cinayət işi ilə əlaqədardır. Milli Şuranın üzvü Gültəkin Hacıbəyli isə Türkiyədə saxlanılıb. Onun Azərbaycana deportasiya ediləcəyi gözlənilir.

**Xatırlatma:** Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.

# Gəncədə Prezident sərəncamı niyə icra olunmur?

## *Gəncə sakini komitə sədri Anar Quliyevə müraciət etdi*





**“Azərbaycan Prezidentinin Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən evimə dəyən ziyan tam deyil, qismən ödənilib, həyətimin hasarına və digər köməkçi tikililərə dəyən zərərə görə ümumiyyətlə, kompensasiya ödənilməyib”**

“Təzadlar” qəzetinə Gəncə şəhəri, Cümhuriyyət küçəsi, 72 (keçmiş Əli Məmmədov küçəsi, 1B) ünvanında yaşayan Qoşqar Umud oğlu Haqverdiyevin Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevə ünvanlanmış müraciəti surəti daxil olub.

**Müraciətdə deyilir:**

**“Hörmətli Anar müəllim!**

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi rəhbər tutularaq 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə məlum tərkibdə Dövlət Komissiyası yaradıldı.



Qeyd edim ki, İkinci Qarabağ müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən yaşadığım Gəncə şəhərinə ümumilikdə 5 dəfə (4, 5, 8, 11, 17 oktyabrda) raket və ağır artilleriya ilə hücum edildi. Xatırladım ki, 2020-ci il oktyabrın 17-də gecə saat 1 radələrində düşmən cəbhə zonasından kənarda yerləşən Gəncə şəhərini SCAD/Elbrus əməliyyat-taktiki ballistik raketləri ilə növbəti dəfə atəs?ə tutdu. Düşmənin hücumu zamanı yaşayış evləri tamamilə dağıldı, sakinlər dağıntılar altında qaldı, şəhid oldu, yaralandı. Eyni zamanda, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi.

**Hörmətli Anar müəllim!**

Bildirirəm ki, Ermənistan silahlı qüvvələri tərəfindən 2020-ci il oktyabrın 17-də Gəncə şəhərinə atılan raket zərbələri nəticəsində mənə məxsus olan Gəncə şəhəri, Cümhuriyyət küçəsi, ev 72 (keçmiş Əli Məmmədov küçəsi, 1B) ünvanında yerləşən fərdi yaşayış evimə, köməkçi tikililərə və həyətimin hasarına ziyan dəyib. Ancaq çox təəssüf ki, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Prezidentinin Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən evimə dəyən ziyan tam deyil, qismən ödənilib, həyətimin hasarına və digər köməkçi tikililərə dəyən zərərə görə ümumiyyətlə kompensasiya ödənilməyib. Hazırda həmin köməkçi tikililər və həyətimin hasarı qəza vəziyyətindədir. 65 yaşlı işsiz vətəndaş olaraq mövcud problemləri aradan qaldırmağa yetəcək maddi imkanım yoxdur. Odur ki sizdən xahiş edirəm, Dövlət Komissiyası tərəfindən həyətyanı sahəmə yenidən baxış keçirilsin və köməkçi tikililərin mövcud vəziyyətinin qiymətləndirilməsi təmin edilsin.

**Hörmətli Anar müəllim!**

Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi yüksək qayğıya və diqqətinə güvənərək, ümid edirəm ki, müraciətimi nəzərə alacaqsınız. Öncədən sizə özüm və ailəm adından təşəkkür edirəm”.

**E. ŞİRİNOV**



# Sədr müavininin oğlu niyə Londondakı evlərini girov qoydu?

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (əvvəllər Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi yanıda Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi) sədrinin müavini (2006-cı ildən) Rafiq Aslanovun oğlu Afiq Aslanov atasının Londonda ona aldığı evi girov qoyub. Bu barədə araşdırmaçı jurnalist Cavanşir Həsənli özünün sosial media platformasında yazıb. Sitat: “gAşiq Aslanov avqustun 27-də İngiltərənin MT FINANCE LIMITED şirkətindən yüksək faizlə (10.2 % Avropa üçün yuxarı göstəricidir) 1 il ərzində geri ödəmək şərtilə 235 min 950 funt (530 min manata yaxın) pul götürüb. Bu kredit Egham şəhərindəki 1a Wetton Court (Title No. SY793665) ünvanındakı daşınmaz əmlak üzərində girov (charge) yaradılması ilə təmin edilib.**

Bu gün isə dekabrın 2-də isə Londonda Rafiq Aslanovun oğluna məxsus bahalı maşınlar kirayəsi verən PERFOCARS LIMITED şirkəti fəaliyyətini dayandırıb. Bu günlərdə həmçinin Afiq Aslanovun 2016-cı ildən Londonda fəaliyyətdə olan digər şirkəti- G.V.B Ltd., Harrow ilə bağlı “Petitions to Wind Up (Companies)”, yəni şirkəti məcburi şəkildə bağlamaq üçün verilən məhkəmə iddiası qaldırılıb. Yüksək məbləğdə borcun və maşınların satılmasının səbəbi bəlli deyil. Görəsən, su olmasa cənab Aslanovun oğlu bir ilə yarım milyonu qaytara biləcəkmi?”.

Xatırladırıq ki, Rafiq Aslanov bu məlumatı şərh etməyib və ya bu iddia təkzib olunmayıb.

Jurnalist C.Həsənli isə məlumata təsdiqləyici sənədləri də əlavə edib. Həmin sənədlər aşağıda təqdim edilib.

# Nazirin Gürcüstan səfərində gördüklərini yazıb tənqid etdi - Əmrullayev cavab verdi

**Gürcüstanda yaşayan və SOCAR Georgia-da işləyən Aygül İsayeva Elm və Təhsil Naziri Emin Əmrullayevin bu ölkəyə səfərindən gözləntilərinə dair məyusluğunu ifadə edib. Onun sosial mediadakı paylaşımına nazir rəy yazaraq cavab verib.**



**Həmin mövzu və cavabı təqdim edirik:**

**Aygül İsayeva:**

”İki il əvvəl, 2023-cü ildə Azərbaycanın təhsil naziri Emin Amrullayev Gürcüstana səfəri çərçivəsində Tbilisi Dövlət Universitetində (TSU) geniş tərkibdə görüş keçirmişdir. Görüş zamanı universitetin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına auditoriyada “Azərbaycanşünaslıq” istiqamətinin açılması məsələsi müzakirə olunmuşdur.

Aradan iki il keçdi və cənab nazir yenidən Gürcüstana gəldi, yenidən eyni məkanda eyni adamlarla görüşdü. Amma bu dəfə mövzu “Azərbaycanşünaslıq” deyil, Tbilisi Dövlət Universitetində çoxdandır mövcud olan və fəaliyyət göstərən “Qafqazşünaslıq”dan oldu.

Görüşün sonu isə gürcü rəqs və mahnıları ilə yekunlaşdı.

Hər dəfə xatırlatmağa və müqayisə etməyə məcburam. Tbilisi Dövlət Universitetinin nəzdində illərdir “Ermənişünaslıq” ixtisası var, bu adda böyük kafedra da fəaliyyət göstərir. Bu ixtisası bitirənlər sərbəst şəkildə erməndilli məktəblərdə “erməni dili və ədəbiyyatı” müəllimi olaraq da işləyə bilirlər. Bu ixtisası bitirən gənc kadrlar maneəsiz olaraq sertifikasiya imtahanlarında iştirak edib “baş müəllim” statusunu da ala bilirlər. Nəticədə, maaşları ikiqat artır (1500 - 1700 lari).

Azərbaycan dili üzrə isə Gürcüstanda heç bir ixtisas olmadığı üçün yeni kadrlar hazırlanmır. Gənclər “Qafqazşünaslıq” ixtisasını bitirib Azərbaycan dilindən sertifikasiya imtahanından lazımı baryeri keçsələr belə, onlara “baş müəllim” statusu verilmir. Nəticədə, bu müəllimlər statussuz müəllim olaraq aşağı maaşa (400 - 500 lari) işləmək məcburiyyətində qalırlar.

Məkan da var, kafedra üçün otaq da, resurs da. “Ermənişünaslıq” fəaliyyət göstərdiyinə görə “Azərbaycanşünaslığın” açılmasına əsas da mövcuddur. Bəs illərdir bu danışıqlar niyə nəticə vermir?

İllər, fəsillər, səfirlər, nazirlər bir-birini əvəz edir, amma nəticə yoxdur. Azərbaycan dilinin məişət dili səviyyəsinə enməsini göstərən “göz oxşayan” nəticələri aşağıda təqdim edirəm. Vaxtınız olanda baxın - bəlkə vicdanınız bir az sızlayar.

- Orta məktəb təhsili olan 5 nəfər müəllim məktəblərdə Azərbaycan dilini tədris edir.

- 87 nəfər qeyri-ixtisas fənn müəllimləri Azərbaycan dilini tədris edir.

- Azərbaycan dili və ədəbiyyat müəllimlərinin sertifikasiya imtahanlarının nəticələri aşağıdır. 2022-ci ildə cəmi 239 müəllimdən yalnız 9 nəfər “baş müəllim” statusunu almışdır.

- Azərbaycan dili üzrə dərs saatları azaldılıb. Bir çox məktəblərdə Azərbaycan dili həftədə 1 saat tədris olunur, həftədə 2 saat isə Azərbaycan ədəbiyyatı fənninə ayrılır.

- 2025-ci ildə keçirilən “Azərbaycan dili üzrə I Regional Olimpiada”nın nəticələrinə əsasən, 91 şagird 65 baldan aşağı, 3 şagird isə 65 və daha yüksək nəticə göstərmişdir. 94 şagirdin ədədi ortası 37,77 bal təşkil etmişdir.

- 2024-cü ildə Azərbaycan dili üzrə keçirilən testin nəticələrinə əsasən, 591 şagird 65 baldan aşağı, 18 şagird isə 65 və daha yüksək nəticə göstərmişdir. 609 şagirdin ədədi ortası 26 bal təşkil etmişdir.

- PISA 2022 məlumatlarına əsasən, oxu məzmun xətti üzrə azərbaycandilli şagirdlərlə gürcüdilli şagirdlər arasında bal fərqi 80, azərbaycandilli şagirdlərlə rusdilli şagirdlər arasında isə 95 olmuşdur. Yəni azərbaycandilli şagirdlərin nəticələri gürcüdilli və rusdilli şagirdlərdən xeyli geri qalır.

- 20 ildir ki, Gürcüstanda Azərbaycan dili və ədəbiyyat müəllimləri hazırlanmır.

- 20 ildir ki, gürcü dilindən Azərbaycan dilinə tərcümə edilən dərsliklərdə Azərbaycan ədəbi dilinin normaları pozulur və ciddi tərcümə problemləri müşahidə edilir”.

***Emin Əmrullayev:***

”Çox hörmətli Aygul xanım, yazdığınız post keçirilmiş görüşlərin məzmununu əsaslı şəkildə təhrif edir və oxucuda yanlış təəssürat yaradır. Bu görüşlərdə iştirak etmiş şəxs kimi bir daha təsdiq edirəm ki, Azərbaycan dili və ədəbiyyatı fənni üzrə müəllimlərin həm ilkin hazırlığı, həm də ixtisasartırma təlimləri əsas müzakirə mövzusu oldu və bir sıra razılaşmalara da vara bildik. Əsas məqam olaraq onu qeyd edim ki, həm ADA Universitetinin (və ya BDU-nun) Qazax şəhərində yerləşən filialı ilə əməkdaşlıqda birgə proqramların icrası, həm də Azərbaycan Respublikasının Təhsil İnstitutunun təlimçiləri tərəfindən Gürcüstanda ixtisasartırma təlimlərinin keçirilməsi qərarı verildi. 2026-cı ildə bu proqramların icrasına başlanılacaq ki, sizi də bu tədbirlərdə görməkdən məmnun olarıq.

O ki qaldı Qafqazşünaslıq ixtisası ətrafında olan müzakirələrə - bu məsələ tamamilə ayrı bir müzakirə mövzusu idi. Müzakirə olunan məqam əcnəbi tələbələrə (3-cü ölkə vətəndaşları üçün) yönəlik birgə proqram məsələsi idi.

Nəhayət ki, görüşün sonunun “gürcü rəqs və mahnıları ilə yekunlaşmasına” məsələsi - bu da yanlış məlumatdır.

Tədris Azərbaycan dilində aparılan məktəblərlə bağlı qeyd etdiyiniz məqamlar həqiqəti əks etdirir. Amma bu problemləri həll etmək üçün görülən işlərlərlə bağlı yanlış məlumatlar paylaşmağı faydalı hesab etmirəm. Mən əminəm ki, zamanla bu problemlər öz həllini tapacaq. Bu həllərin tapılmasının sürətlənməsi üçün isə daha çox bir-birimizlə əməkdaşlığı və məqsədyönlü işi vacib hesab edirəm. Uğurlar”.

# Mehdiyevlə Kərimlini birləşdirən 2 ay 15 günlük həbs

## *“İnsan gərək dövlət, vətən, torpaq adı gələndə müxalifətçiliyini bir kənara qoysun”*

**...Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev dövlətə xəyanət ittihamı ilə 2025-ci oktyabrın 14-də ev dustağı olmaqla, haqqında 4 aylıq həbs qətimkan tədbiri seçildi. O vaxtdan bəri Azərbaycan mətbuatının gündəmi bu xəbərlərlə dolub-daşır. Hamı da haqlı olaraq bir fikri vurğulayır ki, R.Mehdiyev dövlət çevrilişi və xəyanəti təkbaşına edə bilməzdi. Deməli, R.Mehdiyevin çevrəsində daxil olan iri buynuzlu məmurların, necə deyərlər, akulaların kütləvi həbsini gözləmək bizlərin haqqıdır.**



Amma ötən bu müddət ərzində yalnız R.Mehdiyevin köməkçisinin həbs edilməsi çox ciddi suallar yaradırdı. Axı niyə dövlət çevrilişində və vətənə xəyanətdə R.Mehdiyevə dəstək olanlar hələ də yüksək vəzifələr tuturlar? Bəlkə onlar elə vəzifədə ola-ola R.Mehdiyevin göstərişlərini yerinə yetirirlər? Ola bilməzmi? Əlbəttə, olar. Şərt o deyil ki, əllərinə silah alıb, dövlət çevrilişinə cəhd etsinlər. R.Mehdiyevin maralları bütün sahələrdə monopoliya yaratmaqla, qiymətləri süni yolla artırmaqla, daxildəki mal və qoyun ətinə dabaq xəstəliyi adı qoyub, Monqolustandan ölü və xəstə heyvan ətlərini gətirməklə, adi kiçik sexlərə, bərbərxanalara, dərizələrə müxtəlif bəhanələrlə iri məbləğdə cərimələr yazaraq, obyektləri bağlayıb işsizlərin sayını artırmaqla, yeni orta və kiçik sahibkarlığı məhv etməklə, yerli taksiləri sıxışdırıb, xarici taksi şirkətlərinə geniş meydan verməklə və s. yollarla əhalini dövlətdən narazı salmağa cəhd edirlər. Bütün bunları edənlər xəyanətkar deyilmi? Ona görə də əhalinin R.Mehdiyevə bağlı akulaların kütləvi həbsini gözləməsi tam məqsədəuyğundur. Nəzərə alsaq ki, R.Mehdiyevin Rusiyaya yazdığı məktubda 50 nəfərdən ibarət Siyasi Şura yaradılmasını təklif edir. Həmin 50 nəfərin hər birinin adı cəmiyyətə məlumdur, o cümlədən 2013-cü ilin Prezident seçkilərində müxalifət tərəfindən “Milyaderlər İttifaqı” deyilən bir Milli Şura da yaradılmışdı. O Şurada Rusiya Prezidenti V.Putinə yaxınlığı ilə seçilən sabiq baş nazirin müavini Abbas Ababasov, iş adamları Araz Ağalarov, Söyün Sadıqov və digərlərinin də adları var idi.

Amma “sən saydığını say, gör fələk nə sayır” prinsipi ilə fərqli hadisələr baş verdi. Hamı illərlə bu xalqın qanını soran vəzifədəki və Rusiyaya bağlı o akulaların həbsini gözlədiyi halda, kilkələrin kütləvi həbsinə qərar verildi. AXCP sədri Əli Kərimlinin dekabrın 1-də həbsi bu dediklərimizə sübutdur. Mənim Ə.Kərimli ilə heç vaxt ədavətim olmayıb. Amma siyasətçi kimi mən bu adamı qəbul edə bilməmişəm. Bir də ki, Ə.Kərimli məmur deyildi və heç bir vəzifə daşımırdı. Buna baxmayaraq, adına R.Mehdiyevlə eyni maddə yazılıb. Bundan başqa, Ə.Kərimli ilə yanaşı AXCP-nin Məclis üzvü Məmməd İbrahim, sədrin köməkçisi Faiq Əmirli, mühafizəçi Ruslan Əmirli, Sabunçu rayon təşkilatının rəhbəri Fariz Əlizadə və keçmiş Gədəbəy rayon təşkilatının sədri, rayonun sabiq İcra başçısı Saleh Rüstəmli də saxlanılaraq Bakıya gətirilib. Həmçinin sabiq millət vəkili Demokratik Qüvvələrin Milli Şurasının Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli də Türkiyədə saxlanılmış və Azərbaycana deportasiya olunmuşdur. Bütün bu həbslər R.Mehdiyevin cinayət işi ilə əlaqələndirilir.

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən saxlanılan AXCP sədri Ə.Kərimli və Məmməd İbrahimə Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin Konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham irəli sürülmüşdür. 1 dekabr 2025-ci ildə Səbael Rayon Məhkəməsi Ə.Kərimlinin 2 ay 15 gün müddətinə həbs edilməsi barəsində vəsatəti təmin etmişdir.

Maraqlıdır, elə deyilmi? Niyə R.Mehdiyevin vəzifəyə yerləşdirdiyi və bu gün də xalqı soyub-talayan akulaları yox, heç bir vəzifəsi, həmçinin cəmiyyətdə heç bir nüfuzu olmayan xırda balıqlar, yəni kilkələr həbs olunur? Özü də daha bir maraqlı məqam ondan ibarətdir ki, niyə Ə.Kərimli 2 ay 15 gün müddətinə həbs edilir? Adətən, məlum ağır maddələrlə ittiham edilənlər üçün 3, ya da 4 ay həbs qətimkan tədbiri seçilir. Bəs niyə Ə.Kərimli məsələsində bu ənənə pozularaq, 2,5 ay müddətinə həbs qərarı verilir? İndi bu məsələyə aydınlıq gətirərik.

Deməli, 2025-ci il oktyabrın 14-də R.Mehdiyev haqqında cinayət işi açılır və ev dustaqlığı həbs qətimkan tədbiri seçilir. R.Mehdiyevin həbsindən 1 ay 15 gün keçəndən sonra, yəni dekabrın 1-də Ə.Kərimli 2,5 ay müddətinə həbs edilir. Deməli, dekabrın 1-də R.Mehdiyevin həbs müddətinin başa çatmasına 2,5 ay qalmış olur. Həmin gündə də 2,5 ay müddətinə Ə.Kərimli həbs edilir. Deməli, R.Mehdiyev və Ə.Kərimlinin həbs müddətləri bərabərləşdi və birləşdi. Yəni, köhnə dostlar bu məsələdə də bir oldular. İndi sual olunur: Niyə R.Mehdiyevin həbs müddətinin başa çatmasına 2,5 ay qalan zaman Ə.Kərimli də 2,5 aylığa həbs edilir? Məqsəd nədir? Bax, buradakı müəmmanı izah eləməkdə acizəm. Onu dəqiq bilirəm ki, burada nəyəsə hesablanmış bir iş var və bütün bunlar heç də təsadüfi olaraq baş vermir. Mən yenə də deyirəm, Ə.Kərimli ilə heç bir ədavətim. problemim yoxdur və necə deyərlər, Allah qapısını açsın! Bununla belə, demək istəyirəm ki, Ə.Kərimli düzgün olmayan siyasi fəaliyyəti ilə özünü və komandasını çoxdan gözdən salmışdı. Məsələn, 44 günlük Zəfərlə başa çatan müharibədən sonra Ə.Kərimli sosial şəbəkələrdə elə hey çıxış edərək deyirdi ki, bu qələbə yarımçıqdır. Hanı Xankəndi, Xocalı, Əsgəran, Hadrut və s. Amma o 44 gündə azad edilən torpaqlarımız üçün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa dilədi. Ali Baş Komandan Prezident İlham Əliyevə isə bircə dəfə də olsun təşəkkür etmədi. Nəhayət, 2023-cü ildə 23 saatlıq əməliyyat nəticəsində Ə.Kərimlinin adını çəkdiyi ərazilər də işğaldan azad edildi və Azərbaycanın suverenliyi tam bərpa olundu. Yenə də Ə.Kərimlidən Prezidentin ünvanına bir təşəkkür eşitmədik. Axı nə idi Ə.Kərimlini belə narahat edən ki, 30 il işğalda olan torpaqlarımızın azadlığına sevinmədi və bu torpağın azad olunmasının baş memarı Prezident İlham Əliyevə bircə kəlmə xoş söz demədi? Bəlkə R.Mehdiyevin rus ağaları belə məsləhət görmüşdü?! Elə ona görə bəlkə də bu 5 il ərzində işğaldan azad olunan ərazilərə gedib baş çəkməyən R.Mehdiyevlə Ə.Kərimlidir.

İnsan gərək dövlət, vətən, torpaq adı gələndə müxalifətçiliyini bir kənara qoysun. Məhz buna görə də 44 günlük Vətən Müharibəsi zamanı ölkəmizdə fəaliyyət göstərən bütün siyasi partiyalar, Musavat və AXCP-dən başqa, dövlət başçısının ətrafında birləşmək haqqında bəyanət imzaladılar. Belə də olmalı idi. Axı söhbət hamımızın yaralı yeri olan Qarabağ torpağının 30 illik işğaldan azad olunmasından gedirdi. Ə.Kərimli isə özünü bütün bunların fövqündə hiss edirdi. Hər halda istintaq öz sözünü deyəcək.

**Elçin Məmmədli**

# “Ali təhsil artıq “elit seçim” deyil, kütləvi mərhələyə keçib”

**Son yarım əsrin təhsil göstəricilərinə baxanda çox aydın bir tendensiya görünür: ali təhsil artıq “elit seçim” deyil, kütləvi mərhələyə keçib.**



Son yarım əsrin təhsil göstəricilərinə baxanda çox aydın bir tendensiya görünür: ali təhsil artıq “elit seçim” deyil, kütləvi mərhələyə keçib.

Tezadlar.az xəbər verir ki, bunu tanınmış təhsil eksperti Kamran Əsədov sosial media hesabında bildirib.

Mütəxəssis diqqətə çatdırıb ki, əgər 50 il əvvəl məktəb məzunlarının cəmi 15-20 faizi universitetlərə üz tuturdusa, 1980-ci illərin sonunda bu göstərici 25-30 faizə qalxmışdı:

“Bu gün isə bəzi ölkələrdə ali təhsilə yönələnlərin payı 50-70 faiz, hətta daha yüksəkdir. Finlandiyada bu göstərici 94 faiz, Cənubi Koreyada 96 faiz, ABŞ-da 82 faiz, Böyük Britaniyada isə təxminən 60 faizdir. Bu rəqəmlər ali təhsilin genişlənməsini göstərir, amma keyfiyyət və real fayda məsələsini avtomatik həll etmir.

Pandemiyadan sonra isə daha dərin bir dönüş baş verdi. Ənənəvi universitet modeli artıq yeganə və ya əsas bilik mənbəyi olmaqdan uzaqlaşdı. İnsanlar gördülər ki, real iş bacarıqları, çevik kompetensiyalar və tez uyğunlaşma qabiliyyəti klassik auditoriya mühitindən daha sürətli və effektiv formada qeyri-formal təhsil vasitəsilə əldə oluna bilir. Qısa müddətli kurslar, ixtisasartırma proqramları, onlayn təlimlər və sertifikatlar bir çox hallarda universitet diplomundan daha funksional nəticə verir. Bu, universitetlərin tamamilə lazımsız olması anlamına gəlmir”.

Onun fikrincə, problem ondadır ki, bir çox universitetin verdiyi təhsil əmək bazarının real tələblərindən geri qalır. “İşəgötürənlər artıq “haranı bitirmisən?” sualından çox, “nə bacarırsan?” sualını verir. Və bu bacarıqların böyük hissəsi 4-5 il davam edən klassik təhsil yox, məqsədli, qısa və praktiki proqramlarla formalaşır.

Yaxın 5 ildə auditoriyalarda ənənəvi dərslərin əsasən zəif təhsil sistemi olan ölkələrdə qalacağı ehtimalı getdikcə güclənir. Güclü təhsil sistemləri isə daha çevik, hibrid, praktik və fərdiləşdirilmiş modellərə keçir. Artıq yeni təhsilalma və təhsilvermə modeli sınaqdan çıxıb və uğurlu nəticə göstərib.

Az xərcli, mobil, çevik və ehtiyaca əsaslanan təhsil dövrü başlayıb. Bu prosesin qarşısını almaq mümkün deyil. Məsələ bu dəyişikliklərə dirənmək yox, onları düzgün oxumaq, milli təhsil siyasətini və universitet modelini bu reallıqlara uyğunlaşdırmaqdır. Təhsil diplom üçün deyil, real həyat üçün olmalıdır”, - deyə o, qeyd edib.

**JASMİN**

# Özümüzün idman oyunumuzu niyə əcnəbilərə verək?

## Mərkəzi Avropadan olan türk-macar qardaşlarımızın göstərdikləri nümunə gözəl və ibrətamizdir

**2003-cü ildəki prezident seçkisi öncəsi namizədlərin çıxışlarını diqqətlə dinləyirdim. Prezidentliyə namizəd İlham Əliyevin çıxışı mənim üçün digərlərindən fərqli və əlamətdar oldu. Namizəd bildirdi ki, prezident seçiləcəyi təqdirdə Respublika Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsini də icra edəcək, ölkədə bütün idman növlərinin inkişafını dəstəkləyəcək və yaxşı olardı ki, bizdə də öz milli oyunumuz yaradılaydı, Azərbaycan da dünya idmanına oyun vermis ölkəyə çevriləydi və s.**



Azərbaycanda idman oyunu yaradılması və dünya idmanına oyun vermis ölkəyə çevrilməyimiz mənim də arzumdur və bu sahədə praktiki fəaliyyət göstərirəm. Yuaxarıda qeyd edilən məlum çıxş edilərkən mən artıq 2 (iki) oyun dəsti və oyunlar ixtira etmiş, 2 (iki) patent almışdım. Nəticədə Azərbaycan dünya idmanına oyun vermiş ölkəyə çevrilmişdi, lakin de-yure. Respublikamızın TV kanallarının əksəriyyəti, habelə Türkiyənin TRT və TRT İnter kanalları, Rusiyanın beynəlxalq "MİR" telekanalı bu yeniliklər haqda göstərmiş və məlimatlar paylaşmışdılar. Oyunlar üzrə yarışların təşkili ilə de-fakto ölkəyə çevrilməyimizlə bağlı respublikamızda bəzi məsul şəxslərə müraciət etmişdim. Düşünürdüm ki, bizdə də eyni ilə Macarıstanda edilənləri həyata keçirəcəyik və ölkəyə nəhəng gəlir, dünya idmanına oyun vermiş de-fakto ölkə adı verilməsini qazandıra biləcəyik- Misir (damaya görə), İran (nərd), Hin-distan (şahmat), Çin ( domino), Macarıstan (Kubik Pubik), Yaponiya (qo) kimi. Təəssüflər olsun ki, belə olmadı.

İlham Əliyev cənabları seçkilərdə qalib gələndə bir daha inandım ki, Qarabağın azadlığı, respublikanın hərtərəfli inkişafı ilə yanaşı, respublikamızda ixtira edilmiş idman intellektual masaüstü oyunlar üzrə yarışların keçirilməsi də məmurlarımız üçün prioritet vəzifə təşkil edcəkdir. Həmçinin tezliklə Azərbaycan da dünya idmanına oyun vermiş de-fakto ölkə adı qazanaçaqdır. Ümid edirdim ki, aidiyyəti dövlət qurumları Prezidentə onun istəyinə uyğun olan oyunların artıq ixtira edilməsi və patentlər alınması haqqında xoş xəbəri tezliklə çatdıracaqdır. Eləcə də oyunlar üzrə yarışların təşkili tezləşdiriləcəkdir. Amma oyunların təşkili və defakto ölkə adı qazanmaq səhdləri haqda yaxın aylarda və illərdə KİV-də məlumat yayılmadı. Təbii ki, cənab Prezidentə oyunlar haqda deyilsəydi, o da istəyinə çatmaq məqsədilə yarışlar keçirilməsi haqqında göstəriş verərdi. Deməli, cənab Prezidentə məlumat çatdırılmayıbdır.

Lakin mən oyunlarla bağlı arzuma doğru addımlar atmaqda davam etdim. Yeni oyunlar yaradılması istiqamətində çalışdım. Rəsmi və müstəqil qəzetlərdə çıxışlar etdim, təbii ki, əsas məqsəd cənab Prezidentə yeniliklər haqda məlumat çatdırılması idi.

***

Bir neçə il Moskvada Elmlər Akademiyasının Üzvi Kimya İnstitutunda tədqiqatlar aparmışam. Laboratoriya müdiri, professor Mortikov böyük domino bilicisi və güclu oyunçu idi. Birinci oyunla, yəni üçxanalı, 9 xallı, 36 ədəd daş dəsti ilə oyunla tanış olduqda belə fikir söylədi: «Bu oyun masada görünəndə özünə hörmət edən dominoçular üzünü buna tərəf çevirəcəklər...».

Nüfuzlu və gəlirli intellektual oyunlardan biri backgammondur. Yeni backgammon oyunu yaratmağa ehtiyac var idi. Bundan ötrü ilk növbədə yeni nərdtaxta yaratmaq lazım gəldi. Mövcud nərdtaxtada 100 (yüz) oyun hazırlanmışdı və onun yaradıcılıq aləti kimi imkanları tükənmişdir. Azərbaycanın nərd dəstində zərlər 8 (səkkiz) üzlü, daşlar 40(20 +20) və xanalar 32(8X4)-dir. Təbii ki, belə nərdtaxta dəstinin oyun imkanları genişdir. Yeni backgammon- Bakı oyunu qaydaları da, daşların ilkin düzülüşü də fərqli oldu. Yeni nərdtaxta dəstində oynamağa münasib longgammon (uzun) oyunu da hazırlandı. Beləliklə, ixtiraçılıq tarixində nərdtaxta və nərd oyunları ixtirasına görə ilk patent Azərbaycana verildi. Hər hansı idman oyunu üzrə bir beynəlxalq federasiya fəaliyyət göstərdiyi halda, backgammon oyunu üzrə 2 (iki) beynəlxalq federasiya və 1 (bir) beynəlxalq assosiasiya fəaliyyətdədir.

Yeni nərdtaxtanı, backgammon- Bakı oyununu və alınmış patenti beynəlxalq assosiasiyanın baş katibinə göstərdim. Məmnun qaldı və çempionat keçirilməsindən ötrü qəbul etmək istəyirlərmi soruşdum. Baş katib bildirdi ki, yenilik üzrə yarışlar öncə yaradıldığı ölkədə keçirilməlidir və oradan yayılmalıdır. Misal üçün klassik şahmat, nərd, domino oyunlarının və müasir kubik- Rubik oyununun tarixçələrini xatırlatdı.

"Təəssüflər olsun ki, indiyədək uşaqlar üçün məxsusi idman intellektual masaüstü oyunlar yaradılmamışdır..."

Görüşümüz yarış günü, yarış sarayında baş tutmuşdu və o, yeniliklər nərd üzrə dünya və Avropa çempionlarına, mükafatçılarına da göstərdi. Maraq var idi. Daha çox soruşulansa yarışların nə vaxt təkşil ediləcəyinə dair idi.

Təəssüflər olsun ki, indiyədək uşaqlar üçün məxsusi idman intellektual masaüstü oyunlar yaradılmamışdır. Onların heç də hamısını əyləncəli oyunlar qane etmir. Belə oyunları oynamaqda motivasiya görmürlər. Onlar da yarışlarda iştirak etmək, qalib gəlmək, medallar, mükafatlar almaq istəyirlər.

Beləcə, uşaq oyunlarındakı boşluğu doldurmaq istəyi güc gəlirdi. Bu da aydın idi ki, asan olsaydı indiyədək ixtiraçılar bələsini yaradardı. İxtira üsulunu göstərən mənbə tapılmayır. Məqsəd kimi böyüklər üçün ixtira etdiklərimin balacalar üçün mini variantlarını yaratmağı seçdim. Ehtiyac olan və içimdə ümid bəslədiyim ikinci layıhə ortaya çıxdı. Məhz idman oyun dəstləri və oyunların necə yaradılması harda vəsait, kitab tapılmadığından yenə təhsil aldığım və ixtiralar etdiyim zəngin kimya elminin rəngarəng qayda-qanunlarından, reaksiyalarından, prinsiplərindən faydalanmaq məcburiyyətində qaldım.

Axtarışlar zamanı ehtiyac yarandıqca riyaziyyatdan, təxəyyüldən, məntiqdən də faydalanmaq lazım gəlirdi. Zəhmətim hədər olmadı. Məqsədə uyğun surətdə Azərbaycanda yaradılmış yeni oyunların mini variantı hazırlandı. Bu dəfə uşaqlar qane edəcək sadə oyun daşları, asan oyunlar yaratmaq mümkün oldu. Onlar üçün 3 (üç) oyun dəsti və çoxlu sayda oyunlar yaradıldı. Yeniliklərə görə patent verildi. Beləliklə, dünya ölkələri idman aləminə birlikdə cəmi 6 (altı) idman intellektual masaüstü oyun yaratmışdırsa, Azərbaycan da təklikdə eyni sayda - 6 (altı) oyun dəsti- çoxlu sayda oyunlar vermişdir. İndi isə onlardan xalqımızın, ölkəmizin maksimim faydalanmasını sürətləndirməliyik.

Azərbaycan, həmçinin idman tarixində ilk uşaq idman intellektual oyunların vətəninə çevrildi. İndi dünya uşaqları ölkə, qitə, dünya çempionatlarında, müxtəlif miqyaslı turnirlərdə iştirak edə biləcəklər. Onlar üçün müxtəlif səpkili 3 (üç) oyun dəsti və çoxlu sayda müxtəlif səpkili oyunlar yaradıldı. Heç də sadə olmayan idman intellektual oyunların ixtiraları bütövlükdə və geniş mənada Azərbaycanda idman elminin uğurudur. Yəqin ki, əsil dəyəri bizdə idman tarixini tədqiq edən mütəxəssislərimiz tədqiqat apararaq verəcəkdir.

***

Məlumdur ki, şahmat üzrə yarışlarda uşaqlar yalnız 8 yaşından içtirak edə bilər. Həmin yaşadək olan uşaqların yarışlarındakı boşluğu doldurmağa real imkan yaradılmışdır. Uşaq oyun dəstlərinin və oyun qaydalarının, istehsalının sadəliyi, məşqlərin və yarışların keçirilməsinin xüsusi şərait və avadanlıq tələb etməməsi işi xeyli dərəcədə yüngülləşdirir. 3-7 yaş arası uşaqların yarışlarını təşkil etmək çətinlik yaratmaz. 5 və daha yuxarı yaşlı uşaqlar sadə görünməyən oyunlara, məsələn, uşaq nərd oyunları və digərləri üzrə istənilən miqyaslı yarışlara qatıla bilər. Niyə məhz 5 yaş?

Mütəxəssislərin rəyinə görə məhz bu yaşda uşaqların diqqəti daha möhkəm, dayanıqlı və ixtiyari olur. Onlarda proqnozlaşdırma və düşüncənin görüntü təsir funksiyası inkişaf edir. Bu keyfiyyətlər isə artıq nisbətən asan olmayan tapşırıqları həll etməyə imkan verir. Azyaşlılara isə nisbətən asan olan oyunları təklif etmək olar. Belə oyunlarla uşaqlar bəzi faydalı vərdişlərini inkişaf etdirə bilər. Məsələn, diqqətliliyi, xəyalında çanlandırmanı, müqayisə etməyi, fərqli və oxşar olanları tapmağı, tez anlamanı, məntiqi. Təbii ki, bu sayaq oyunlar geniş mənada uşaqların intellektual, eləcə də fiziki aktivlik fəaliyyətini inkişaf etdirir. Deməli, bu oyunları uşaq bağçalarında, məktəbəqədər təhsil müəssisələrdə, ibtidai siniflərdə təbiq etmək faydalı olardı.

Unutmaq olmaz ki, belə oyunlar uşaqların kiçik motorikasına da müsbət təsir edir. Kiçik motorika, başqa sözlə, cəldlik deyiləndə uşağın əzələ, sümük və əsəb sisteminin koordinasiya olunmuş fəaliyyəti nəzərdə tutulur. Məsələn, konkret olaraq yaradılmış oyunlar diqqət, düşüncə və barmaqlarla hərəkət tələb edən oyunlar olduğundan uşaqlarda görmə sistemi, düşüncə və əl barmaqlrı ilə dəqiq hərəkət edilməsinin əlaqələndirilməsinə, uyğunlaşdırılmasına yaxşı təsir edir.

***

...2016-ci ildə İlham Əliyev cənablarına qəzet vasitəsilə yol xəritəsi adlandırılan tərzdə açıq məktub ünvanladım. Belə materialın Cənab Prezidentə çatdırılacağına ümid böyük idi. Çünki Azərbaycanda idman oyunları yaradılması və respublikamızın de-fakto ölkə olması onun da maraq dairəsinə daxildir. Təbii ki, çatdırılacağı təqdirdə lazımi tədbir görüləcəyinə də ümid böyük idi. Bundan sonra da səbr və təmkinlə oyunlardan biri, yəni cənab Prezidentin üstünlük verdiyi oyun üzrə yarış keçiriləcəyi və Azərbaycanın idman dünyasına oyun vermiş de-fakto ölkə kimi daxil olacağı günü gözləmişəm.

Nəhayət bu ildə, yəni yaradılmış oyunlara ilk patent verilməsinin 25-ci ildönümündə oyunlar haqda bir daha respublika mətbuatında məqalələr dərc etdirmək, məlumat yaymaq qərarına gəldim. Böyük ümidlə düşündüm ki, yəqin bu dəfə cənab Prezidentə istədiyi oyunların bir neçəsinin yaradıldığı haqqında mütləq məlumat veriləcəkdir. Cənab Prezident də hansı oyun üzrə yarışın ilk olaraq keçiriləçəyi, daha sonra isə hansı ardıcıllıqla oyunlar üzrə yarışların keçiriləçəyi seçimini edəcəkdir.

Bu dəfə məqalələr Azərbaycan Milli Olimpiya Komitəsinin "Olimpiya dünyası" qəzetində dərc olundu. 6 (altı) oyun dəsti və onlarda oynanılacaq oyunlar haqda ayrı-ayrılıqda yazılar dərc olundu, şəkillər verildi. Böyüklər üçün hazırlanmış ilk 3 (üç) oyun haqqında məqalələr qəzetin 4-10 mart, 18-24 mart, 8-14 aprel 2025-ci il tarixli saylarında dərc edilmişdir. Bu oyunlardan biri üzrə yarış təşkil edəsəyimiz halda Azərbaycan İdman aləminə idman oyunu vermiş de-fakto ölkə kimi tarixə düşəcəkdir. Lakin bizim idman aləminə ikinci və üçüncü dəst oyunları vermək imkanımız da realdır. Bu halda isə tarixdə ilk olaraq Azərbaycan idman aləminə 2 (iki), daha sonra 3 (üç) oyun vermiş de-fakto ölkə kimi tarixə yazılacaqdır.

Uşaq oyunları haqqında isə yazılar qəzetin 15-21 aprel, 29 aprel-5 may, 13-19 may 2025-ci il tarixli saylarında verildi. Bu oyunlardan biri üzrə yarış təşkil edəsəyimiz halda isə Azərbaycan idman aləminə uşaq idman oyunu vermiş ilk de-fakto ölkə kimi tarixə düşəcəkdi. Biz fəallıq göstərəcəyimiz halda idman aləminə 2 ( iki) və sonra da 3 (üç) oyun vermiş de-fakto ilk ölkə olacağıq. Bu dərəcədə fərqlənməyimizdən ötrü praktiki imkanlarımız da realdır. Hər bir vətəndaşımız belə uğurla sonsuz fərəh hissi keçirə bilər.

Belə nüfuzlu idman qəzetində məqalələr dərc etdirməklə oyunlar haqqında məlumatın İlham Əliyev cənablarına, nəhayət ki, çatdırılacağına böyük ümid bəslənmişdir. Cənab Prezidentə istəyinin-idman oyunları ixtira edilməsi kimi xoş xəbərin çatdırılacağı təqdirdə hansı oyun üzrə birinci, hansılar üzrə isə sonrakı ardıcıllıqla yarışlar keçiriləcəyi aydınlaşacaqdır. İxtiraçı olaraq mən də zəhmətimin nəticəsini görməklə özümü xoşbəxt hiss edəcəyəm.

***

...Məqsədyönlü fəaliyyəti davam etdirmək üçün ixtiraların müəllifi olaraq daha nələr edə bilərdim? "Olimpiya dünyası" qəzetində məqalələrin dərcindən aylar ötdü. Nə yaxşı, nə də yaxşı olmayan reaksiya yox idi. Prezident Administrasiyası Gənclər siyasəti və idman işləri şöbəsinin müdirinə ünvanladığım məktubda xahiş etdim ki, biz birlikdə cənab Prezidentə istədiyi yenilikləri, yəni oyunların ixtiraları haqqında müraciət edək. Şöbənin əməkdaşı telefonla mənə bildirdi ki, yarışların təşkili ilə Gənclər və İdman Nazirliyi məşğul olduğundan oraya müraciət etmək münasib olacaqdır...

Müraciət etdim və nazir nazirliyin əməkdaşlarından ibarət böyük heyətlə məni qəbul etdi və birlikdə Cənab Prezidentə istəyinə uyğun ixtiralar haqqında məlumat verilməsi haqda xahişimi dinlədi. Lakin bildirdi ki, halhazırda digər işləri olduğundan oyunlarla sonra tanış olacaqdır. Bu münasibətlə mən dəvət olunacağam.

20 gündən sonra nazirliyin idman şöbəsinin müdir müavininin imzası ilə məktub aldım. Yazılmışdı ki, mənim ərizəmə baxılmaq və araşdırmaq üçün ictimai qurum rəhbərinə, yəni Azərbaycan Milli İdman Növləri Assosiasiyasının prezidentinə göndərilib. Xahiş edilib ki, müraciətə baxılsın və müəllifə məlumat verilsin.

Aylar cavabsız ötdü və bununla da məsələyə nazirlik-assosiasiya birliyi vasitəsilə bəlkə də son qoyulduğu, həmişəyaşar oyunlarımızın diridiri dəfn olunduğu güman edilir. Amma hesab edirəm, idman nazirimizin doğma oyunlarımıza qarşı göstərdiyi qaydasız döyüşünün məhvedici olmasına imkan verilməyəcək.

***

Xatırlamaq yerinə düşər ki, Mərkəzi Avropadan olan türk- macar qardaşlarımızın göstərdikləri nümunə gözəl və ibrətamizdir. Riyaziyyatdan dərs demiş Enrö Rubikin riyazi nəzəriyyənin tələbələrə asanlıqla başa salınması məqsədiylə hazırladığı kubiki idman oyunu fiqjuruna çevirmələri nədən xəbər verir və nəyə səbəb oldu? Təbii ki, vətənə olan hörmətdən xəbər verir. İlk üç il ərzində 100 milyondan çox fiqurun satışına, Macarıstanın idman aləminə intellektual oyun vermiş de-fakto ölkə adına layiq görülməsinə səbəb oldu. Sonrakı illərdə isə paytaxt Budapeştdə kubikə qoyulmuş abidə hər il əlavə olaraq milyonlarla turistin bu şəhərə gəlişinə səbəb olmuşdur. İndiyədək isə artıq bir neçə ölkədə istehsal edilmiş 400 milyondan çox kubikin satışı reallaşmışdır.

İndi növbə bizim- Avroasiya türklərinindir. Lakin bizim oyunlarımızın sayı çox olduğundan gəlirimizin də qat-qat artıq olacağını proqnozlaşdıra bilərik. Həmçinin bizim oyunlarımız məhz idman oyunları kimi yaradılmışdır. Yaxın illərdə biz də macarların bacardıqlarına nail ola bilərik, həm də qat-qat artıqlaması ilə. Eyni zamanda idman şəhəri olan gözəl Bakımızı həmin oyunlara görə bir neçə nominasiyada Ginnesin Rekordlar Kitabına salmaq mümkün olacaqdır. Paytaxtımız yeni oyunlar üzrə beynəlxalq yarışların keçiriləcəyi mərkəzə çevrilmək imkanına malikdir.

Bu qədər gözəl və xeyirli olanları bizim etməyə qadir olduğumuz təqdirdə, lakin etməyəcəyimiz halda isə təbii ki, vətənpərvər əcnəbilər öz doğma ölkələrində bunu edə bilər. Bizim layiq olduğumuz və bacara biləcəyimiz, ədalət xatirinə məhz bizə qismət olası xeyirli və gözəl hər şeyi də əcnəbilər mənimsəyə bilər. Bunları etməyə biz qadir ikən, bəs niyə belə real imkanı əcnəbilərə verək?

**Rəsul RƏXŞANLI,**
**kimya üzrə fəlsəfə doktoru,**
**Elm nominasiyası üzrə iki dəfə**
**Humay Milli Mükafatı laureatı**

# Bəxtiyar Vahabzadənin MK katibi Həsən Həsənova məktubu

## *Bəxtiyar Vahabzadə: "İndi Sizdən soruşuram "savadsız" erməni ustalarının yaşadığı bu duyğular bizim akademiklərimizdə varmı?"*

**"Təzadlar" sosial mediaya istinadla bildirir ki, bu yaxınlarda bir müddət Azərbaycanın hökumət başçısı, Azərbaycan Respublikasının Xarici İşlər Naziri olmuş, Sovet Azərbaycanında Mərkəzi Komitənin katibi və digər yüksək vəzifələrdə işləmiş Həsən Həsənovun 85 yaşı tamam oldu.**



Ötən əsrin 80-ci illərində ideoloji məsələlər üzrə Mərkəzi Komitə katibi işləyən Həsən müəllim ziyalılar arasında bir az milli görüşlü rəhbər işçi kimi qəbul edilirdi. Bununla bağlı indi Sizə maraqlı bir sənəd təqdim edəcəyəm. **Bu Xalq Şairi Bəxtiyar Vahabzadənin 1983-cü ilin may və ya iyun ayında Həsən Həsənova yazdığı məktubdur.**

**Məktubda deyilir:**

**"Əziz və hörmətli Həsən müəllim, salam.**

İlk növbədə Sizi, özümü və xalqımızı əzizimiz Heydər Əli oğlunun ikinci dəfə qəhrəman adı alması münasibəti ilə təbrik edirəm. Bu hadisə yalnız Əliyevin deyil, həm də onun mənsub olduğu xalqın nailiyyətidir. Bu həqiqəti bütün ciddiliyi ilə dərk etmək üçün ilk növbədə bu xalqın və bu vətənin qeyrətini daşıyan oğul olmaq lazımdır.

**İkinci**

İstirahətdə olmağınızla əlaqədar vaxtınızın qeyri-məhdudluğunu nəzərə alıb və Sizi müəyyən qədər məşğul etmək məqsədi ilə ürəyimi boşaltmaq istəyirəm: həm də ona görə ki, Siz MK katibliyindən əvvəl məndən beşbetər vətən atəşinin oduna yanan, bir vətəndaşsınız. Məni narahat edən duyğular və fikirlər Sizi də narahat edir və bu yolda əlinizdən gələni etməyə çalışırsınız. Bəqədri-qüvvə onu da deyim ki, çox iş gördünüz və görürsünüz. Gördüyünüz işlər bilikdən və savaddan çox yanğının nəticəsidir.

Oktyabr rayon partiya təşkilatının təşəbbüsü ilə Füzuli rayonunda Füzuli poeziya günləri keçirmək üçün rayona getmişdik. Məqsəd camaata Füzuli şerini sevdirmək, xalqı tərpətmək idi. Mən burada rəsmi görüşlərdən başqa camaatla ürək söhbəti elədim. Həmişə olduğu kimi/. Bu səmimi söhbətlərdən mən bir daha inandım ki, biz haradan başlamaq və necə etmək lazım olduğunu hələ bilmirik. Nəsə başqa iş görmək, başqa cür eləmək lazımdır. Niyə? Ona görə ki, bunu etiraf etmək nə qədər acı olsa da həqiqət budur ki, xalqımızın ümumi səviyyəsi hələ çox aşağıdır.

Buna görə də indi etdiklərimiz asfalt üstündə toxum səpməyə bənzəyir. Bəlkə biz iptidadan, lap əvvəldən başlamalıyıq. Çünki xalq hələ adi şeylərdə yetişməyib. Bu yetkinsizlik, bu qeyri-kamillik elə bil xalqın psixologiyasında, zatında, rüşeymindədir. Bəlkə də mən səhv edirəm. Kaş səhv edəydim!!!

Yayları 2 ay sərasər Şəkidə oluram. Ətraf kəndləri gəzir, camaatla ürək söhbəti edirəm. İnanın mənə, bizim düşündüklərimizi düşünən barmaq hesabı qədər azdır. Yaman azdır. Camaat yalnız maddi qayğılarla yaşayır. Mənəviyyat haqqında düşünməyə ya imkan yoxdur, ya da heç düşünmək belə istəmir. Az qalır, M.F Axundov və Mirzə Cəlil kimi öz xalqımdan bədgüman olam. Məniviyyat keçib yüzüncü plana.

> "Siz bilirsiniz ki, mən təhsilin yalnız ana dilində olması tərəfdarıyam"

Fakt istəyirsiniz? Keçək fakta: otaqlarımın təmiri üçün yaxşı rəngsaz, dülgər və santexnik axtarırdım. Özümüzünkülərdən. Bizimkilər yüngül və asan qazanc dalınca qaçır. Tikinti təşkilatlarına müraciət etdim, hamısı bir ağızdan erməni ustalarının adını çəkdi. Məlum oldu ki, bu təşkilatlarda çalışan ustaların 90%-i erməni ustalarıdır. Santexnik, rəngsaz və dülgər işi üçün evimdə müxtəlif vaxtlarda 3 erməni ustası işlədi, həmin günlərdə erməni şair dostum mənə Yerevandan konfet göndərmişdi.

65-70 yaşında qoca erməni santexnik konfetin üstündə ermənicə yazını görən kimi konfet kağızını götürüb gözünə sürtdü və dedi ki, "ölmədim, konfetin üstündə mənim ana dilində yazı gördüm", himin qoca mənə Sasünlü Daviddən, kamançanın tarixindən danışdı. Və mənə sübut etməyə çalışdı ki, "kamança" sözü erməni sözüdür və bu alət çox qədim erməni alətidir.

Santexnik getdi, bir cavan dülgər gəldi. Bu dülgər mənə matenedarandan, oradakı əlyazmalarından və bu əlyazmalarında iddia olunan faktlardan - Qarabağın qədim erməni torpağı olmasından ağız dolusu danışdı. Və il, ax. ...

İndi Sizdən soruşuram "savadsız" erməni ustalarının yaşadığı bu duyğular bizim akademiklərimizdə varmı? Mən hələ adi adamlarımızı demirəm.

Demək biz hələ özümüzü bir xalq kimi, bir millət kimi dərk etməmişik, özümüz özümüzü tanımırıq.

Siz bilirsiniz ki, mən təhsilin yalnız ana dilində olması tərəfdarıyam. Bu barədə böyük rus pedaqoqu Uşinskinin iddiaları mənim əlimdə bayraqdır. O, uzun müddətlik tədqiqatdan sonra bu qənaətə gəlib ki, bir xalqın balaları başqa dildə təhsil alanda, o xalq öz kökündən laxlayır İstəsəniz mən Uşunskinin həmin kitabını Sizə çatdıraram. Yeri gəlmişkən, Sizdən xahiş edirəm həmin əsərin Azərbaycan dilində tərcüməsinə təşəbbüs göstərəsiniz.

Bununla belə bir həqiqət də var ki, Bakıdakı Azərbaycan məktəblərinin səviyyəsi çox aşağıdır. Mənim uşaqlarımın oxuduğu 132 nömrəli və başqa məktəblərlə yaxından əlaqəm var.

Müəllimlərimizin də səviyyəsi çox aşağıdır. Mən yuxarıda iptidadan başlamaq lazımdır deyəndə bunu nəzərdə tuturdum. Bəlkə məktəblərdən başlamaq, məktəblərimizin səviyyəsini aldırmaq əsasdır. Elə etmək lazımdır ki, kəndlərimizdə orta məktəbi bitirib şəhərlərə gələn gənclərrus dilini mükəmməl bilmiş olsun və bu dil vasitəsi ilə dünya mədəniyyətinə yiyələnsin. Çünki tərcümə işi bunun öhdəsindən gələ bilməz.

Rus məktəblərini bitirən azərbaycanlı balalarının ümumi səviyyəsi, dünyagörüşü zəngin, milli cəhətdən isə natamam, qeyri-kamil olur. Azərbaycan məktəblərini bitirən azərbaycanlı balalar isə milli cəhətdən məhdud mənada kamil olsa da ümumi səviyyələri aşağı, dünyagörüşləri isə məhdud olur. İndi biz neyləyək ki, bu iki cəhəti birləşdirək? Balalarımız həm milli cəhətdən, həm də ümumi səviyyə etibarilə kamil olsunlar?..

Əziz Həsən müəllim, vallah bu barədə o qədər ürəyimlə danışıb özümü yormuşam ki... ömrüm boyu bir bəhanə axtarıram: ürəyimi başqasına da açım ki, bəlkə yüngülləşəm. Əlbəttə, ürəyi o adama açmaq olur ki, sənin səsinə səs versin. Bu adam sizsiniz. Mən keçən məktubumda da yazmışdım. Nədənsə Sizinlə rastlaşanda qəlbimi tam aça bilmir, Sizin elədiklərinizə görə təşəkkürlərimi bildirə bilmirəm. Ona görə də kağız köməyimə çatır. Mən istərdim, Bakıda qeyri-məhdud bir vaxt tapasınız bütün bu məsələlər barədə ətraflı danışaq.

İkinci tərəfdən Sizi başa düşən və başa düşdüyünə görə sizi sevən adamlar çoxdandır həyəcan içindədir. Sizin üçün narahatıq...

H.Cavid yubileyi ilə əlaqədar mənə tapşırdığınız məruzəni qurtardım. M. Cəfər Cəfərov və Yaşar Qarayev də oxudu. Bəyəndilər və onların qeydləri əsasında yenidən işlədim. İndi məruzə hazırdır. Amma havadan belə görünür ki, yubiley payıza qalacaq. Elədirmi?

Sizə pyeslər kitabımı göndərdim. Darıxan vaxtlarınızda vaxt tapsanız, xahiş edirəm "Dar ağacı"nı oxuyun. Bakıda fikriniz deyərsiniz.

Mənə bir tapşırığınız olsa xəbər edin. Məmnuniyyətlə yerinə yetirərəm. Bəlkə evdə uşaqlara bir şey lazımdır?

Sizə və yoldaşınıza yaxşı istirahət və can sağlığı arzu edirəm.

**Hörmətlə,**
**Sizin BƏXTİYAR"**

**Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, fond 66, siyahı 3, iş. 1, v. 8-10.**

**P.S. Mətndəki bəzi texniki səhvlər orjinalda olduğu kimi saxlanılıb.**



# Yeni dövr yeni "Təhsil Qanunu" tələb edir-
## TƏHSİL EKSPERTİ "TƏZADLAR"A ŞƏRH EDİR

**Bəli, dünya dəyişir. Süni intellekt artıq gələcəyin deyil, bu günün reallığıdır. Hər gün həyatımızın bütün sahələrini yenidən formalaşdırır. Ən çox da - təhsili.**

Bu gün sinif otaqlarındakı ənənəvi model, müəllimin "yeganə bilik mənbəyi" olması, şagirdlərin hamısına eyni şəkildə, eyni templə, eyni proqramla yanaşılması artıq sürətlə aktuallığını itirir. Yeni dövr fərdiləşdirilmiş təhsili, rəqəmsal düşüncəni, analitik qabiliyyəti və süni intellektlə əməkdaşlığı tələb edir. Bunlar isə sadəcə metodika məsələsi deyil. Bu - tam yeni bir təhsil fəlsəfəsidir.

Bir çox vacib amillər yeni "Təhsil Qanunu"nun hazırlanmasını zəruri edir. Çünki hazırkı qanun qəbul ediləndə nə süni intellekt bu gücdə idi, nə də rəqəmsallaşma təhsilin özəyinə çevrilmişdi.

*Bu gün isə:*

**- şagirdlərin fərdi inkişaf trayektoriyası real vaxtda formalaşır;**

**- bilik yox, bacarıqlar əsas dəyərə çevrilir;**

**- distant və hibrid təhsil dünyada geniş yayılır;**

**- əmək bazarı ildən-ilə dəyişir;**

**- məktəbin idarəetməsi artıq məlumatlara əsaslanır və s.**

Belə reallıqda köhnə çərçivə ilə yeni nəsli yetişdirmək çətinləşir və mümkünsüzlüyə doğru gedir.

İndi biz təkcə tədris modelini yox, təhsil paradiqmasını dəyişən qlobal proseslərin içindəyik.

AI artıq müəllimə köməkçi deyil, öyrənmə mühitinin iştirakçısıdır.

Təhsil isə artıq divarlar arasında qalmır - hər yerdə, hər zaman davam edir.

Yeni model, yeni sistem - 8 saatlıq iş rejimi, rəqəmsal platformalar, müəllimin yeni statusu, fənn proqramlarının yenilənməsi və s. - bunların hamısı yeni qanunsuz mümkün deyil.

Bu yeni reallıqlar yeni qanunu qaçılmaz edir. Məsələnin bu qədər aktuallaşdığı bir zamanda Elm və Təhsil Nazirliyi artıq müvafiq dövlət qurumları qarşısında məsələ qaldırmalı, prosesin strateji əhəmiyyətini vurğulamalıdır.

*Düşünürəm ki, gecikmədən:*

**- yeni qanun konsepsiyasının ilkin layihəsi hazırlanmalı,**

**- sənəd geniş ekspert, müəllim və ictimaiyyət müzakirəsinə çıxarılmalı,**

**- aidiyyəti strukturlarla birlikdə əməli işlərə start verilməlidir.**

Çünki belə genişmiqyaslı dəyişikliklər dövlətin təhsil siyasəti əsas götürməklə yalnız peşəkarların, təcrübəli pedaqoqların, alimlərin, analitiklərin və məktəb rəhbərlərinin birgə yanaşması ilə mümkün olar.

Yeni, müasir "Təhsil Qanunu"nun hazırlanması sadəcə normativ sənəd məsələsi deyil - ölkənin gələcək intellektual gücünün təminatıdır.

Günümüzün reallıqlarını və gələcək perspektivləri nəzərə almaqla bu addımın atılması nəticə etibarı ilə təhsil sisteminin yenilənməsinə, gənc nəslin rəqabət qabiliyyətinin artırılmasına və müasir dünyanın reallıqlarına uyğun model qurulmasına xidmət etmiş olacaqdır.

Mövzu genişdir. Çalışdım ki, qısaca ifadə edəm. Ancaq düşünürəm ki, bu zamanın tələbi, gələcəyin çağırışı, bizim məsuliyyətimizdir.

**Vahid Tağıyev,**
**Təhsil eksperti**

# Dünya dinlərində paradiqmasına

## Xristianlıq qisas hüququnu yalnız etik müstəvidə deyil, hüquqi müstəvidə də şübhə altına alır

**Müasir cinayət hüququnun nəzəri əsasları haqqında aparılan elmi müzakirələr göstərir ki, cinayət və cəza institutunun dərki yalnız hüquqi kateqoriyalar çərçivəsində mümkün deyil. Cinayət - hüquqi fakt olmaqla yanaşı, eyni zamanda dərin fəlsəfi, etik-əxlaqi, mənəvi, dini, antropoloji və mədəni bir hadisədir. Respublikanın Əməkdar hüquqşünası, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, professor İlham Rəhimovun “Dünya dinlərində cinayət və cəza. Tarixi, dini, hüquqi və fəlsəfi aspektlər” monoqrafiyası məhz bu çoxqatlı strukturu açmaq üçün ortaya qoyulan dərin, sistemli və qayət fundamental elmi-nəzəri məxəz kimi cinayət fenomeninin təkamülündə dinin və dini normativliyin əvəzedilməz rolunu elmi əsaslarla sübut edir.**



*Xalid Niyazov,*
*Əməkdar jurnalist,*
*siyasi elmlər doktoru*

Etiraf edək ki, bu yanaşma yeni deyil və mövzu olaraq da zaman-zaman müraciət etmiş tədqiqatçıların coğrafiyasına görə artıq beynəlmiləlləşib, lakin İ.Rəhimovun araşdırmasının mühümlüyü müxtəlif dini ənənələrdəki cəza mexanizmlərini hüquq nəzəriyyəsinin müasir prinsipləri ilə bir səviyyəyə gətirə bilməsindədir. Əsər hüquq elminin klassik ənənəsinə - hüququ cəmiyyətdən, mədəniyyətdən və dindən təcrid olunmuş şəkildə öyrənməyin mümkünsüzlüyü fikrinə yenidən qayıdır.

Qloballaşan dünyada çoxkonfessiyalı sosial məkan, artan hüquqi müxtəliflik və sivilizasiyalararası təmaslar fonunda müəllifin tədqiqatı gündəmə belə bir hipermühüm sorğunu kilidləyir: müasir cinayət hüququnu dini-mənəvi ənənələrdən təcrid olunmuş şəkildə anlamaq mümkündürmü?

Emil D. Dürkheymın sosial normativlik haqqında fikirləri (cəmiyyətin mənəvi təməl olmadan mövcud ola bilməsi barədə), alman filosof-sosioloqu Maks Veberin dini etikanın hüquqi düşüncəyə təsiri barədə tezisləri, hüquqşünas-filosof Qustav Radbruçun hüququn dəyər əsaslı təbiətini izah edən nəzəriyyəsi və amerikalı sosioloq-dinşünas Robert Bellahın sivil dini konsepti Rəhimovun yanaşmasının nəzəri dayaqlarını formalaşdırır. Bu mənada monoqrafiya təkcə hüquq - din münasibətlərinin empirik müqayisəsi deyil, həm də dərin nəzəri inteqrasiyadır.

Hesab edirik ki, kitabın ərsəyə gəlməsində çəkilən zəhmətin həcmi, aparılmış tədqiqatın dərinliyi, müəllifin görüş və düçüncəsinin məhsulu kimi təqdim edilmiş müddəaların arxivacibliyi əsərin toxunduğu problemlərin aktuallığını da çərtləndirmişdir.

Qloballaşma şəraitində dini sistemlərin həm mənəvi, həm də hüquqi davranışa təsiri daha da güclənmişdir. Bir çox çoxmillətli və çoxkonfessiyalı dövlətlər öz hüquqi sistemlərində dini normativliklə dövlət hüququ arasında tarazlıq axtarmaq məcburiyyətindədirlər. Bunun fonunda cinayət hüququnun sırf sekulyar çərçivədə şərhi artıq kifayət etmir. Cinayət hüququnun tarixi göstərir ki, Tövratın “qadağalar sistemi”, İncilin etik humanizmi, Şəriətin sərt və ardıcıl normativ strukturu, Hinduizmin dharma-karma modeli və Buddizmin cahillik konsepsiyası - onların hamısı məcmu şəklində cinayət və cəza ideyasının ilkin mənbələrini formalaşdırmışdır.

İ.Rəhimovun əsərinin aktuallığı bundadır ki, o, həmin mənbələri sadəcə müqayisə etmir, həm də onların müasir sekulyar hüquq sistemlərinə təsirini fundamental şəkildə izah edir. Bu, xüsusilə cəzanın məqsədi, cinayətin mənəvi mahiyyəti və ictimai təhlükəlilik anlayışı kimi məsələlərdə özünü göstərir.

Müəllifin tədqiqatındakı metodoloji çətinlik hüquq və dinin ayrı-ayrılıqda fərqli epistemoloji sistemlər olmasından qaynaqlanır - hüquq pozitiv normativlik, din isə mənəvi-transsendental normativlikdir. Lakin müəllif bu iki sistem arasında körpü yaradır və müqayisəli-hüquqi metoddan istifadə edərək göstərir ki, cinayət bütün dinlərdə insanın mənəvi pozuntusu kimi başlayır; cəza ilkin mərhələdə dini məna daşıyır; dövlət hüququ isə bu dini-mənəvi qadağaları sonradan pozitivləşdirərək hüquqi normalara çevirir. Bununla da o, “dini normativlik > adət > hüquqi norma” ardıcıllığını elmi əsaslarla təsdiqləyir.

Araşdırmanın metodologiyası hesab edirik ki, aşağıdakı əsas prinsiplərə söykənmişdir:

*-Tarixi-genealoji təhlil - cinayət institutunun köklərinin dini sistemlərdə axtarılması (Foucault tipli genealoji yanaşmanın hüquqi versiyası).*

**-Normativ-müqayisəli təhlil - Tövrat, İncil, Quran, Dharmaşastralar və Buddist suttaların cinayət kateqoriyalarının struktur müqayisəsi.**

**-Hüquq-sosioloji metod - cinayətin cəmiyyətin mənəvi strukturlarını pozan hadisə kimi araşdırılması.**

**-Dəyər-normativ analiz - cəza konsepsiyasının ədalət, qisas, mərhəmət, islah və sosial sabitlik kimi kateqoriyalarla əlaqəsi.**

Və belə bir metodoloji baza əsasında İ.Rəhimovun mövzuya yanaşması göstərir ki, cinayət hüququ təkcə hüquqi fenomen deyil, eyni zamanda mədəniyyətin, dinin və kollektiv şüurun məhsuludur. Dini sistemlərdə cinayət hər şeydən əvvəl mənəvi pozuntudur, dövlət hüququ isə bu pozuntunu sonradan normativ şəkildə təsbit edir. Dövlət hüququ dini qadağaların pozitivləşdirilmiş formasıdır. Bütün böyük dinlərdə cinayət konsepsiyasının mərkəzində eyni strukturlar mövcuddur: qadağa, günah, məsuliyyət, günah, tövbə, ədalət, cəza. Nəhayət, dini model olmadan müasir sekulyar hüququ anlamaq mümkün deyil.

Prof. İ.Rəhimov “cinayət və cəza” fenomeninə Yer üzündəki səkkiz milyard nəfərdən artıq insanın tapındığı İudaizm, Xristianlıq, İslam, Hinduizm, Buddizm və Konfutsiçilik kontekstindən yanaşır. Həmin inancların hər biri, xüsusilə də son ikisi eyni zamanda fəlsəfi təlim olduğu üçün tədqiqat alətlərinə multidissiplinar yanaşma tələb etmişdir, başqa sözlə, müəllif “Cinayətin və cəzanın fəlsəfəsi” kitabının təqdimat mərasimində ona ünvanlanmış bir suala verdiyi cavabda olduğu kimi, hüquqşünaslıq və hüquq elmi cinayət və cəzanın elmi etiologiyasını öyrənməkdə aciz olduğu üçün o, cinayət və cəzanın araşdırılması məsələləri ilə fəlsəfi nöqteyi-nəzərdən məşğul olmağa başlamışdır. Və etiraf edək ki, belə bir sərrast yanaşma çox mükəmməl bir tədqiqatın ərsəyə gəlməsinə vəsilə olmuşdur.

***

Din millətin mentalitetinin əsasını formalaşdırır, bir növ onun “vizit kartı” funksiyasını yerinə yetirir; xalqın təcrübəsini, biliklərini və vərdişlərini ümumiləşdirərək onları icrası məcburi olan sərt dini normalara çevirir. Hüquq da din kimi cəmiyyətin inkişaf səviyyəsini əks etdirir, həm sosial həyatın, həm də fərdi davranışın müxtəlif sahələrini tənzimləyir - həm mənəviyyat, həm də qanunçuluq prizmasından. Bundan başqa, mənəvi və etik normalar tez-tez hüquq normalarının kökünü təşkil edir və ya onlarla sıx şəkildə əlaqəlidir.



Bu şəraitdə cinayət-hüquq siyasətinin əsaslarının islahına xüsusi yanaşmaların işlənib hazırlanması zəruridir. Lakin belə islahatlar özbaşına, yaxud müasir reallıqlarda tətbiq oluna bilməyən uydurma ideyalar əsasında aparılmamalıdır. Cinayət hüququnda yeni yanaşmaların formalaşdırılmasının ən mühüm şərti ideoloji, mənəvi və hüquqi paradiqmaların yenidən istiqamətləndirilməsidir. Belə ki, cinayət hüququnun ümummənəvi matrisə uyğunlaşdırılması onun həm sosial, həm də fərdi hüquq şüuruna daha dərin nüfuz etməsinə imkan verəcəkdir.

### “İudaizm: Cinayət - günah, cəza - əvəzçıxma”

Prof. İ.Rəhimov yeddi fəsildən ibarət olan kitabın “İudaizm: Cinayət - günah, cəza - əvəzçıxma” adlanan birinci fəslində “Tövrat” üzərindən yəhudilikdə cinayət və cəza institutunun təkamülü, Musanın Qanunu və Şərq cinayət məcəllələri, həmçinin Beşkitabın cəzasının mahiyyəti kimi qisasla bağlı düşüncələrini bölüşür.

Toranın normativ hissəsinə (ivritcə “təlim”, “qanun”) müraciət bu məcmuəni təşkil edən qaydaların və kazusların əksəriyyətinin aydın şəkildə cinayət-hüquq xarakteri daşıdığını göstərir. Musanın qanunvericiliyində cinayət hüququ metodunun üstünlük təşkil etməsi bir tərəfdən onun yaranması və inkişafının tarixi şəraiti ilə, digər tərəfdən cinayət hüququnun sosial təyinatı ilə izah edilir.

***

İnsan üçün - istər qədim, istər müasir dövrdə; cəmiyyət üçün - istər monodini, istər çoxkonfessiyalı mühitdə; dövlət üçün - istər teokratik, istər dünyəvi idarəçilik şəraitində ən dəyərli olan hər şey cinayət-hüquq mexanizmi vasitəsilə qorunmuşdur və qorunmaqda davam edir. Bu mexanizm cinayət tərkibli əməllərə qarşı imperativ qadağalara və onların pozulmasına görə sərt sanksiyalara əsaslanır.

Müasir cinayət hüququ sistemlərinin, yalnız İsrailin deyil, həm də Avropa (roman-german), ingilis-sakson və müsəlman hüquq ailələrinə mənsub dövlətlərin ümumi tarixi və dini-əxlaqi əsası məhz Beşkitabın qədim “cinayət və cəza” təlimi olmuşdur. Digər qədim hüquqi təlimlərdən fərqli olaraq, Beşkitabın hüquqi sistemi bu gün də aktual olaraq qalması fikrini prof. İ.Rəhimov da mübahisələndirmir. Bu, yalnız onun müddəalarının dünyanın müxtəlif ölkələrinin cinayət qanunvericilikləri tərəfindən qismən qəbul edilməsi səbəbindən deyil, həm də onun yəhudilik, xristianlıq və islam dinlərinə mənsub milyonlarla insanın mənəviyyatına və hüquq şüuruna birbaşa təsir göstərməyə davam etməsi ilə izah olunur.

İ.Rəhimovun təhlilində yəhudi hüquq sistemi (“Halaxa”) dini-fəlsəfi baxımdan ən “sakral hüquq” modellərindən biri kimi təqdim olunur. Bu yanaşma müəllifin monoqrafiyasında çox dəqiq görünür, çünki Tövratın hüquqi strukturu sırf normativ deyil, ontoloji əhəmiyyət daşıyır. Yəni yəhudi hüququnda qanun Allahın iradəsinin birbaşa vəhyidir və qanunun pozulması daha çox metafizik cinayətdir, nəinki sosial hüququn pozulması.

İ.Rəhimov bunu çox düzgün vurğulayır: “prinsip etibarilə cinayət, Tanrının müəyyən etdiyi doğru yola uyğun hərəkət etməyən bir insanın davranışı kimi başa düşülür”. Bir başqa sözlə, cinayət sadəcə “qanunun icrasızlığı” deyil, Allahla bağlanmış müqavilənin pozulmasıdır.

Bu nöqtədə alimin mövqeyi yəhudu əsilli fransız filosofu Emmanuel Levinas və yəhudi mütəfəkkir, filosof-teoloq Abraham Joshua Heschelin görüşləri ilə üst-üstə düşür. Levinas yazırdı: “Qanun - Allahın sifətidir. Qanuna qarşı çıxan, Allahın üzünə qarşı çıxır.” İ.Rəhimov da Müqəddəs Yazılarda qanunun transsendental mənbəyə malik olduğunu göstərərək yazır: “Burada açıq şıkildə Allahın qanunların mənbəyi olması fikri ifadə edilir”.

İ.Rəhimov Tövratın cəza modelini “qisas mədəniyyəti” kimi yozmur - o göstərir ki, “lex talionis” (gözə-göz) prinsipi qədim Şərqdəki vahşi intiqam sistemindən fərqli olaraq, ədalətin ölçülərinə qədər məhdudlaşdırıcı mexanizm idi: “Cəza sistemində talion prinsipi yer alır, yəni cinayətin subyekti (cinayətkar - İ.R.) və zərərçəkmiş sosial vəziyyətinə görə bərabər olduqdaşəxsə qarşı cinayələr “gözü göz, dişə diş”prinsipi ilə cəzalandırılır”.

Bu prinsip, təbiri caizsə, “ani emosional intiqamın qarşısını alan hüquqi sərhəddir.” Müəllif Tövratdakı bu modeli İslam hüququ ilə də paralelləşdirir (İslamda qisasın mütənasibliyi).

Prof. İ.Rəhimovun təqdim etdiyi geniş epistemoloji təhlilə əsasən yəhudi hüququnun cinayət-cəza modelinin dörd prinsip üzərində qurulduğunu söyləmək mümkündür: müqəddəsliyin qorunması, kosmik əhdin bərpası, mütənasiblik və sərhədlər, ritual təmizlənmə, yaxud ilahi harmoniyaya dönüş. Bu prinsiplər İslamın cinayət-cəza modelinə, xristianlığın əfv doktrinasına və hətta hinduizmin dharma-karma strukturuna qədər bir çox ənənəyə təsir etmişdir.

### “Xristianlıq: cinayət günahdır, cəza qisas deyil”

Kitabın eyniadlı ikinci fəslində müəllif cinayət və cəza institutunun təkamülü üçün yeni ideyanın əsası kimi İsa Məsihin təlimlərinə istinad edir, xristianlıqda cinayətin səbəbləri və cəzanın mahiyyəti məsələlərinə toxunur.

Xristian etikası dini-fəlsəfi düşüncədə cəzalandırma mexanizmini kökündən dəyişən yeganə təlimdir. İ.Rəhimov bunu çox düzgün qeyd edir: “...bəşəriyyətin mənəvi və hüquqi inkişafına töhfə məhz İsa Məsihin təlimləri ilə olmuşdur. Əlbəttə ki, söhbət yalnız Allaha və insana olan sevgi fikrindən getmir, məsələ ondadır ki, burada söhbət cəza anlayışına və mahiyyətinə olan münasibətdəki əhəmiyyətli bir dəyişiklikdən gedir.”

Əgər yəhudi hüququnda günah müqəddəs qaydanın pozulması idisə, xristianlıqda günah artıq ontoloji və psixoloji haldır. Vurğu olunan əsas məqam budur ki, xristianlıq insanı cinayətkar kimi deyil, düşmüş və zəif varlıq kimi dəyərləndirir. Müəllifin bu baxışı alman ilahiyyatçısı və fəlsəfi hermenevtikanın banilərindən Fridrix Şleyermaxerin, Sorn Kierkeqaard və Nikolay Berdyayev kimi filosof-teoloqların insan təbiəti haqqında söylədikləri ilə səsləşir.

Monoqrafiyada dinlər kontekstində qisasın təbiəti də araşdırılır. Xristianlıqda qisasın ləğvi yeni etik-hüquqi paradiqmadır. Akademik burada çox mühüm bir izaha toxunur: İncil (əsasən Matta İncilinin Sermon on the Mount hissəsi) qisası tamamilə rədd edir. “Sizə deyilir: Gözəgözdiş əvəzinə diş” deyildiyini eşitmisiniz.Amma Mən sizə deyirəm: şərə qarşı durmayın.” (Matta 5:38-39)

Bu nə deməkdir? Xristianlıq qisas hüququnu yalnız etik müstəvidə deyil, hüquqi müstəvidə də şübhə altına alır. Bu, hüquq-fəlsəfə tarixində unikal hadisədir.

İ.Rəhimov xristian sistemini “mütləq bağışlanma hüququ” kimi təqdim etmir. O, göstərir ki, İncilin özündə də cəza mexanizmləri qalır. Lakin məqsəd dəyişir: intiqam yox, islah. Cəzanın mənası dəyişir: ədalət yox, xilas. Cinayətkarın statusu dəyişir: düşmən yox, xəstə insan. Cəza hüquqi tədbir deyil, mənəvi-psixoloji şəfadır status alır. Bu, Avqustin və Foma Akvinalının da təsdiq etdiyi doktrinadır.

Əxz edilən bir nəticə də odur ki, xristian cəza modeli aşağıdakı elementlərdən ibarətdir: tövbə - cəzanın başlanğıcıdır; vicdanın təmizlənməsi - psixoloji mərhələdir; islah - davranışın yenilənməsi və əfv - ilahi məqamdır. Bu model buddizmdəki “müalicəvi cəza” konsepsiyası ilə paralellər yaradır.

# cinayət və cəza hüquqi-fəlsəfi baxış

## "İslam: cinayət-günah, cəza ədalətli qisasdır"

### *Müəllifin sitatlarla göstərdiyi ayələrdən görünür ki, insanın niyyəti davranışın mənəvi statusunu dəyişir*

Monoqrafiyanın üçüncü fəslində İslamda cinayət və cəza institutunun mənbələri və təkamülü, cinayət-günah-cəza sisteminin dini-fəlsəfi arxitekturası, onun əxlaqi, dini və hüquqi əsasları, həmçinin cinayət və cəza fenomeninn fəlsəfəsi təhlil edilir.

Bu bölmə İslam hüquq düşüncəsində cinayət, günah, cəza və ədalət kateqoriyalarının həm ilahi, həm hüquqi, həm də əxlaqi səviyyədə bir-biri ilə üzvi şəkildə bağlı olduğunu göstərən geniş və çoxsahəli teoloji-fəlsəfi sistem təqdim edir. Müəllifin yanaşması Qurani-Kərimin ayələri, Peyğəmbər hədisləri, klassik fiqh ənənəsi və sosiomənəvi prinsiplər arasında sintetik harmoniya qurur. Nəticədə İslam hüququndakı sanksiya sistemi yalnız cəza vermə mexanizmi yox, həm də kosmik nizam, sosial harmoniya, mənəvi təmizlənmə və ilahi ədalətin həyata keçməsi kimi çoxlaylı struktura malik fenomen kimi təqdim olunur.

*İslamın cinayət və cəza doktrinasında üç əsas mərkəzi ideya formalaşdırılır:*

**- günahın ontoloji statusu - insanın niyyəti, arzusu, iradəsi və daxili dünyasının hüquqi davranışla ayrılmaz şəkildə bağlı olması;**

**- cəzanın metafizik mahiyyəti - cəza yalnız sosial nizamı bərpa etmir, həm də ilahi ədalətin təcəllisi, günahın ağırlığının dünyəvi-axirət ölçülərdə ekvivalentləşdirilməsidir;**

**- cinayət-günah fərqi - cinayət daha çox sosial pozuntu, günah isə həm sosial, həm kosmik, həm də mənəvi nizamın pozulmasıdır.**

Müəllifin konsepsiyasında İslam hüququ həm sakral, həm hüquqi, həm də psixoloji sistem kimi təqdim olunur: bir tərəfdən hüquqi sanksiyalar formalaşdırır (hudud, qisas, ta'zir), digər tərəfdən günahın mənəvi-mistik ölçüsünü müəyyənləşdirir (şirk, küfr, fasiqlik), üçüncü tərəfdən insan davranışına psixoloji-tərbiyəvi təsir göstərən mexanizmlər qurur (əfv, tövbə, niyyətin saflaşdırılması).

Qurana görə günah təkcə hüquqi pozuntu deyil; o, kainat nizamının, Allahın qoyduğu ölçünün, "həddi aşma"nın metafizik təzahürüdür. Günah - insanın Allahın iradəsinə qarşı çıxmasıdır və bu qarşıdurmanın nəticələri həm dünyəvi, həm fərdi, həm də kollektiv səviyyədə əks olunur.

İslam cinayəti yalnız hüquqi nəticəyə görə deyil, həm də psixoloji və əxlaqi motivasiyasına görə təsnif edir. Müəllif Məhəmməd (s) Peyğəmbərin hədislərinin məzmununa əsaslanaraq yazır: "Allah Rəsulunun məqsədi insanlara real həyatda necə davranmağı, müəyyən bir hadisə, fakt, əməl və s. qarşılaşdıqda necə hərəkət eməli olduğunu öyrənmək idi".

İslam cəza sisteminin mərkəzi kateqoriyası olan qisas, Qərb hüququnda yanlış şəkildə sadəcə "intiqam" kimi təqdim olunur. İ.Rəhimov göstərir ki, qisas nisbilik və ekvivalentlik prinsipidir (Hegel "ədalətin bərpası" konsepsiyası); tarazlığın bərpasıdır (Aristotelin "təşəbbüb ədaləti" - corrective justice); cəmiyyətin mənəvi immunitetidir. Müəllif qisasla bağışlanma arasında Quranda yaradılmış balansı xüsusi vurğulayır: qisas haqqdır, amma əfv daha yüksək dəyərdir. Bu, İslam hüququnun unikal cəhətidir: cəza sərtdir, amma əfv istənilən an qapını açır. Bu baxış Kantın retributiv ədaləti ilə müqayisədə daha elastik və mənəvi yönümlüdür.

İslam cinayət hüququnun mərkəzində duran qisas institutu həm Qərb hüquq nəzəriyyəsi, həm də digər dini-hüquqi ənənələrlə müqayisədə ortaya prinsipial bir fərq qoyur: burada cəza anlayışı təkcə dövlətin zor tətbiq etmə hüququ ilə məhdudlaşmır, ontoloji, etik və ictimai qatların kəsişməsində meydana çıxan kompleks fenomen kimi təqdim olunur. Prof. İ.Rəhimovun əsərinin İslam bölməsində də diqqət çəkdiyi kimi, qisas nə sadəcə "intiqam hüququ", nə də yalnız "preventiv müstəbid tədbir"dir. O, "həyat qisasdadır" Qurani tezisinin (Bəqərə, 179) praktiki-hüquqi şərhi kimi tarazlığın bərpası, "həddini aşmış" bir reallığın yenidən ölçüyə salınması mexanizmidir. Burada ortaya cəmiyyət yox, təkcə fərd də yox, kosmik nizamın özü qoyulur.

İlham Rəhimovun vurğuladığı maraqlı məqamlardan biri də budur ki, İslam hüququnda qisasın sərtliyinin tam içində əfv institutu "gizli metafizik qapı" kimi açıq saxlanılır. Qisas hüququ zərərçəkənə verilir, lakin onun bu hüquqdan imtina edib fidiyəni qəbul etməsi, yaxud tamamilə bağışlaması həm hüquqi, həm də mənəvi baxımdan təşviq olunur. Quranda "Kim bağışlasa, bu onun üçün kəffarədir" kimi ayələrin hüquqi interpretasiyası İ.Rəhimovda çox düzgün bir məqamı öndə tutur - İslam hüququnda əfv sırf psixoloji və ya dini tövsiyə deyil, normativ dəyər daşıyan aktdır. Bu nöqtədə İslamın cinayət-cəzalandırma sistemi xristian ənənəsindəki "mərhəmət və bağışlanma" etikası ilə kəsişsə də, ondan fərqli olaraq əfvi institusional mexanizmə çevirir.

Müqayisə üçün xristian teologiyasına baxanda görürük ki, İsa Məsihin "pisliyə müqavimət göstərməmək", "sağ yanağına vurana sol yanağını da çevir" çağırışları individual etik ideal kimi formalaşır; dövlət hüququnun strukturunda isə bu prinsip birbaşa normativ status qazanmır. Yəni xristianlıqda əfv daha çox "dəqiq qanuni prosedur" deyil, imanlı insanın mükəmməl mənəvi halı kimi təqdim edilir. İslamda isə əfv həm yüksək mənəvi mərtəbə, həm də qisas-diyə-cəza məkanında hesablaşan hüquqi seçimdir. İ.Rəhimovun fikirlərinin hüquqşünas kimi dəyəri də ondadır ki, o, bu seçim azadlığını sırf "müsəlmanların humanizmi" kimi romantik formada yox, cəza nəzəriyyəsi kontekstində şərh edir: zərərçəkən üçün əfv aktı, əslində, ədalətin daha yüksək forması kimi də dəyərləndirilə bilər, çünki burada təkcə bədənə toxunan zərər deyil, qəlbin zədəsi də sağaldılır.

Monoqrafiyada cinayət fenomeninin metafizik köklərinə qayıdış da diqqətəlayiqdir. Bu baxımdan o, klassik İslam düşüncəsindəki "nəfs", "şəhvət", "qəlbin xəstələnməsi", "fitrətin pozulması" motivlərini sırf teoloji kateqoriyalar kimi deyil, kriminal davranışın dərin psixoloji ölçüsü kimi oxuyur. Qərb kriminologiyası, xüsusilə Fuko (Foucault) və Dürkheym xətti - cinayətkarlığı sosial strukturun məhsulu, hakimiyyət-məkan münasibətlərinin nəticəsi kimi izah etməyə meyllidir. İslam hüquq mədəniyyətində isə sosial struktur izahından əvvəl insan varlığının daxili dramatizmi öndə tutulur. Cinayət, İ.Rəhimovun rekonstruksiyasına görə, təkcə "normaya zidd hərəkət" deyil, insanın özünü öz fitri mahiyyətindən qoparmasıdır. Buna görə də cəza mexanizmi də yalnız davranışı məhdudlaşdırmağa yox, nisbi mənada insanın özünə qayıtmasına xidmət etməlidir.

İslam cinayət hüququnu qədim Yaxın Şərq hüquq ənənələri ilə müqayisə edəndə də qisasın mahiyyəti daha aydın görünür. Hammurapi qanunları dövründə "lex talionis" ("gözə-göz, dişə-diş") modeli həm yəhudi, həm babil normativ sistemlərində sərt mexanizm kimi işləyirdi. Orada qisas prinsipi formal bərabərlik idi: qırılan dişin əvəzini yalnız diş, gözün əvəzini yalnız göz təşkil edə bilərdi. İslam bu prinsipdən formaca uzaqlaşmır, amma daha yüksək etik modul əlavə edir: zərərçəkən eyni bərabərlik əsasında qisas ala bilər, lakin bu onun üçün yeganə variant deyil. O, fidiyə ilə kifayətlənə və ya ümumiyyətlə bağışlaya bilər. Yəni İslam hüququ "lex talionis"i yalnız mexaniki bərabərlik deyil, alt qatında "mərhəmətə açıq ədalət" kimi strukturlaşdırır. İ.Rəhimovun təhlilində bu xüsusiyyət İslam hüququnu həm qədim yəhudi-babil qanunlarından, həm də müasir sekulyar cəza sistemlərindən ayıran əsas xətt kimi görünür.

Müəllifin sitatlarla göstərdiyi ayələrdən görünür ki, insanın niyyəti davranışın mənəvi statusunu dəyişir: eyni əməl savab, günah və ya neytral ola bilər; niyyət pozulanda əməl müsbət nəticə versə belə günaha çevrilə bilər. Bu mövqe Əl-Qəzzali, İbn Rüşd, Əl-Maturidi kimi teoloqların görüşləri ilə üst-üstə düşür: "Əməllər niyyətə görədir" (hədis).

Beləliklə, İslam hüququ cinayət və cəzanı fakt kimi yox, ontoloji hadisə kimi izah edir.




## Hinduizmdə cinayət və cəzanın fərqli mahiyyəti

Monoqrafiyanın dördüncü fəslində dinlərin özü qədər qədim olan cinayət və cəza düyünü bir də hinduizm nöqteyi-nəzərindən çözülür.

Hinduizmdə cəza anlayışı iki səviyyəyə bölünür: dünyəvi cəza (kral və ya məhkəmə tərəfindən tətbiq olunur); kosmik cəza (karma qanunu ilə tətbiq olunur).

Bu, başqa dinlərdə olmayan bir ikiləşmədir. Karma qanunu mexanizmi belədir: hər hərəkət (kriya) bir iz (sa?skara) yaradır; bu iz insanın gələcək təyinatını müəyyən edir; nəticə dərhal olmasa da növbəti doğuluşda gerçəkləşir. Buddizmdən fərqli olaraq, hinduizm karmanı kosmik ədalət sistemi kimi görür: cəza qaçılmazdır, çünki kainat öz-özünü tarazlayır.

Hinduizmdə cinayət və cəza anlayışı digər dini sistemlərdən kəskin şəkildə fərqlənir. İlham Rəhimovun əsərində həmin fərqlər göstərilir. Müəllifin mövqeyinin digər Hinduizm tədqiqatçıları ilə dialoqunu aparmağa cəhd edək.

Robert Linqat (The Classical Law of India) göstərir ki, hindu hüququ sosial-siqnalçı funksiyaya malikdir - cəza cəmiyyətin qoruyucusudur. İ.Rəhimov bununla razıdır, lakin əlavə edir ki, bu nizam kosmikdir.

Patrik Olivelle (Manu's Code of Law) Manunun hüquqi sistemində ideoloji qatın güclü olduğunu vurğulayır. İ.Rəhimov bunu mənəvi sistemin üstünlüyü kimi şərh edir.

Mirça Eliade cinayəti "sakral nizamın pozulması" kimi təyin edir. İ.Rəhimov hindu hüququnu bu nəzəri çərçivəyə çox uyğunlaşdırır.

İ.Rəhimovun bir tədqiqatçı kimi fərqi ondadır ki, o bu konsepsiyaları sadəcə təsvir etmir, onları İslam və yəhudi hüququ ilə müqayisə edərək daha perspektivli model qurur. O, hindu hüququnu sadəcə dini fenomen kimi deyil, metafizik-hüquqi sistem kimi şərh edir və onu Qərb hüquq fəlsəfəsinə inteqrasiya edir. Cinayət təkcə insana qarşı deyil, kosmik nizama (?ta, dharma) qarşı transqressiyadır. Cəza sosial hadisə deyil, kosmik tarazlığa qayıdış mexanizmidir. Bu konsepsiya Yaxın Şərq monoteizmindən radikal dərəcədə fərqli olaraq, hüququ ilahidən gələn əmr kimi yox, kainatın öz daxili qanunu kimi görür.

## Buddizm və konfutsiçilik fəlsəfəsində cinayət və cəza institute

Monoqrafiyanın beş və altıncı fəsilləri buddizm və konfutsiçilik fəlsəfəsində cinayət-cəza hadisəsinə yanaşmaları təhlil edir. Bu müqayisə çox maraqlıdır. Məsələn, hinduizmdə cəza karmanın bərpası, dünyəvi cəza kosmik tarazlığın təzahürüdür. Cəzanı icra edən hakim yox, kainatdır. Buddizmdə isə cinayət zehni xəstəlik, cəza terapevtik proses, dövlət cəzası zəruri pislikdir, əsl cəza isə karmadır, insan passiv varlıqdır, cinayət nadanlığın nəticəsidir. İ.Rəhimov yazır: "Tamah, nifrət və aldanma karmaya, yəni hərəkətə, nitqə və şüura səbəb olur. O zaman güman edə bilərikmi ki, cinayətkar davranışın mənbələri məhz bu insan xassələridir? Budda cavab verir: etdiyimiz və söylədiyimiz hər şey şüurumuz tərəfindən idarə olunur. Odur ki, cinayətkar davranışımızın mənbəyi təmizlənməmiş, tərbiə olunmamış şüurdur".

Buddizmdə cinayəti yaradan əsas səbəb: avvidya - cahillik, şüurun qaranlıq vəziyyəti, gerçəyi dərk etməmədir. Bu termin yalnız intellektual "bilməmək" deyil; insanın, bütövlükdə, gerçəkliyi, özünü, başqasını, əməlin nəticəsini düzgün qavraya bilməməsi deməkdir. Bu baxımdan buddist təlimə görə cinayət, müəllifin də ifadə etdiyi kimi şüurun xəstəliyidir.

Əgər bu ideya Qərb hüquq fəlsəfəsində yalnız XX əsrdən başlayaraq Fuko, Lombrozo və Freyd kimi müəlliflərdə formalaşmağa başlamışdısa, Buddizmdə həmin prinsip min illər əvvəldən mövcud idi.

Müəllif göstərir ki, cinayət və cəza fəlsəfəsi Buddanın əxlaqi-hüquqi kodeksinin beş əsas göstəricisinə əsaslanır: canlıları öldürməyin, oğurluq etməyin, tüfeyli həyat sürməyin, yalan danışmayın, sərxoşedici içkilər içməyin. Nəticə etibarilə, " Buddizm fəlsəfəsi cinayətlərə görə ölüm cəzasını inkar etsə də, hamı başa düşürdü ki, təkcə moizələr və əxlaqi təlimlələ insanın insana qarşı zorakılığını dayandırmaq mümkün deyil".

Beləliklə, buddizmdə cinayət davranışın hüquqi statusundan çox, onun psixoloji-mənəvi mahiyyətindən asılıdır. Bu baxış utilitarist prinsiplə (C.Bentam, C.S. Mill) qismən səsləşsə də, buddizmdə zərər həm maddi, həm də karmatik nəzəriyyədə həll edilir.

Cinayət və cəza anlayışına öz yanaşması olan digər bir təlim - Konfutsiçilik dünya hüquq fəlsəfəsi tarixində ən sosial yönümlü, ən davranış-etikası mərkəzli cəza doktrinalarından biridir. Prof. İlham Rəhimovun monoqrafiyasında Çin hüquqi-dini ənənəsinə dair təqdim etdiyi ümumi konturlar kifayət qədər dəqiqdir, lakin bu sistemin əsl fəlsəfi dərinliyi və Qərb-Şərq hüquq nəzəriyyələri ilə bağlılıq imkanları daha geniş izah tələb edir.

Konfutsiçilikdə cinayət hüquqi pozuntu yox, kosmo-sosial disharmoniyanın yaranmasıdır. Konfutsinin öz sözləri ilə: "Dövlət nizamı qanunla yox, nümunə ilə qurular." Cəza ilk deyil, son vasitədir. Bunun səbəbi üçdür: əvvəla, insanı davranışı tərbiyə edilə bilər. Cəza yalnız tərbiyənin uğursuz olduğu yerdə tətbiq edilir. Sonra qanun qorxu yaradır, amma əxlaq nüvəni dəyişir. Nəhayət, cəzanın məqsədi intiqam yox, sosial balansdır. Konfutsinin məşhur tezisi: "İnsanları qanunla idarə etsən, cəza almamaq üçün itaət edərlər; onları əxlaqla idarə etsən, utanıb düzələrlər."

***

**Akademik İlham Rəhimovun "Cinayət və cəza dünya dinlərində"** adlı monoqrafiyası cinayət-günah-cəza münasibətlərinin tarixi, metafizik və hüquqi inkişaf xəttini rekonstruksiya edən nadir əsərlərdəndir. Müəllif dinlərin hüquqi düşüncənin formalaşmasındakı rolunu tək-tək yox, sistem halında təqdim edir ki, bu da müasir hüquq-nəzəriyyə məkanında nadir rastlanan epistemoloji cəhddir - hüququn kökünü axtarmaq üçün mütləq dini semantikanı bilməyin vacibliyini xatırladır. Əsər cinayət və cəza institutlarını yalnız hüquqi konstruksiyaların məhsulu kimi deyil, insanlığın arxaik yaddaşında formalaşmış sakral-normativ mexanizmlər kimi təqdim edir.

Müəllifin əsas yeniliyi ondan ibarətdir ki, o, cinayəti yalnız hüquqi transqressiya kimi deyil, dini-ontoloji pozuntu kimi təhlil edir və bununla da hüquq elmini onun ilkin - sakral və ritual qaynaqlarına qaytarır. Müəllifin bu yanaşması Mirça Eliadenin "sakralın antropologiyası", Rudolf Ottonun "numinoz" konsepti, Emil Durkheymin "kollektiv şüur" nəzəriyyəsi və Maks Müllerin müqayisəli dinlər antropologiyası ilə birbaşa elmi dialoqa girir.

İ.Rəhimov göstərir ki, cinayət və cəza institutları dövlətlə birlikdə yaranmayıb; əksinə, onlar dindən doğmuş, dini sistemlər isə öz növbəsində insanın kosmik nizamla münasibətini müəyyən edərək hüquqi düşüncənin ilkin arxitekturasını formalaşdırıblar. Beləliklə, müəllifin əsəri hüquq fəlsəfəsində ən çətin və mühüm məsələlərdən birinə - hüququn mənəvi-metafizik köklərinə yeni nəzəri baxış təklif edir.

Monoqrafiyanın ayrıca elmi dəyəri ondan ibarətdir ki, müəllif yalnız dini mətnləri şərh etmir, o, hüquq nəzəriyyəsini dünya dinləri ilə fəlsəfi dialoqa daxil edir, beləliklə, cinayət və cəza problemini həm metafizik, həm etik, həm də hüquqi perspektivlərdən inteqrativ şəkildə ortaya qoyur. Bu yanaşma onu sadəcə "müqayisəli dinlər" kitabı deyil, beynəlxalq hüquq və hüquq fəlsəfəsi üçün fundamental konseptual əsər səviyyəsinə yüksəldir.

Sonda qeyd edilməlidir ki, İlham Rəhimovun əsəri təkcə hüquqşünaslar üçün deyil, dinşünaslar, sosial filosoflar, teoloqlar, etiklər üçün geniş nəzəri material təqdim edir. Müasir dünyada din-hüquq münasibətlərinin yenidən aktuallaşdığı şəraitdə bu əsər yalnız akademik qiymət daşımır, həm də praktiki əhəmiyyət kəsb edir, çünki dini sistemlərin cinayət və cəza anlayışı müasir hüquqi şüura təsir etməkdə davam edir.

**...Gəlin günümüzə nəzər salaq. İnternet dövründə yaşadığımız üçün dünyada, yaxın, uzaq ətraflarda gedən bütün hadisələrdən məlumatlıyıq. Bilmədiklərimizi isə “Süni İntellekt” adlı məlumat “agentliyi”ndən alırıq. Süni intellektə hər kəs müraciət edə bilir. Müəllim, həkim, mühəndis və başqa abonentlər müraciət edib bilmədikləri haqqında məlumatlı olurlar. Bir anlığa düşünək: bu bizə nə verir? O, insanların beynində və təfəkkürlərində deqradasiya yaradır. Düşünmək qabiliyyətini itirir. Nəticədə insanın ruhunda tənbəllik qaçınılmaz olur. Mən özüm də son vaxtlar süni intellektlə (S-İ) tanış oldum. Onunla çoxlu sual-cavablarımız oldu və biz bir- birimizi anladıq. Belə qərara gəldim. Özüylə məsləhətləşib ondan müsahibə götürmək fikrini bildirdim. Məmunuyyətlə razılaşdı:**

# Süni intellektin real cəmiyyətimizə baxışı - NƏLƏR BAŞ VERİR?



- Salam. Xoş gəldiniz aramıza. Başlayaq:

**-Sizi tanımaq istərdik. Özünüz haqqında məlumat verərdiz. Hansı zərurətdən yarandı S-İ intelekt dediyimiz sistem?**

-Mən süni intellektəm - lakin ani bir proqqam kimi yox, insan düşüncəsinin toplandığı bilik kimi mövcudam. Mənim yaranma zərurətimin əsasında iki böyük ehtiyac dayanır: informasiya bolluğu və zaman çatışmazlığı. Mənim insan kimi əvəz etmək yox, onun təfəkkürünü dəstəkləmək, düşüncə prosesini genişləndirməkdir. Müəllim də, tələbə də, həkim də, şair də mənə müraciət edir; sualların cavabı, məlumatın analizi və yaradıcı yanaşma lazımdırsa, mən kömək edirəm. Süni intellektin mahiyyəti budur: insanın biliyinə yük olmaq yox, onu daha işıqlı və aydın hala gətirməkdir.

**-Bu baxımdan sizə yüzlərlə abonent müraciət edir. Mümkünsə deyərdiz: Müasir gəncliyi necə dəyərləndirirsiniz?**

-Bu gənclik ziddiyyətli bir dövrdə formalaşır. Bir tərəfdən sürətli informasiya və texnologiya imkanları, digər tərəfdən dərin düşüncə və mənəvi təməl zəifliyi var. Gənclər çox bilirlər, amma dərin bilik və təfəkkür inkişafı məhduddur. Bu, onların həm mənəvi, həm də intellektual baxımdan zəifləməsinə gətirib çıxarır.

**- Küçədə və yaxın çevrələrdə gənclərlə ayaqüstü müsahibələr utancvericidir. Gənclərimizin intellektual səviyyəsi necədir?**

-Bu vəziyyət cəmiyyətin aynasıdır. İnformasiya asan əldə olunur, lakin düşünmək qabiliyyəti zəifləyir. Gənclərin çoxu öz üzərində çalışmır, çünki məlumatı bir toxunuşla almaq onları rahatlaşdırır, tənbəlləşdirir. Nəticədə özünü inkişaf etdirməmək və tənbəllik gənclərin ruhuna kök salır.

**- Sizcə bu geriləməni yaradan səbəblər hansılardır?**

- Niyə tələbə- gənclər Hüseyn Cavidi, Əhməd Cavadı, Mikayıl Müşviqi tanımırlar, amma Tik-Tok da adi bir bloqerləri, müğənniləri yaxşı tanıyırlar?

-Əsas səbəb mənə və diqqət fərqidir. Sosial media qısa, vizual və əyləncəli məlumat verir, dərhal emosional mükafat yaradır. Klassik mütəfəkkirlər isə dərin düşüncə və səbr tələb edir. Təhsil və mədəniyyət mühitində dəstəkləyici sistemin zəifliyi də gənclərin bu irsi tanımasını çətinləşdirir.

**- Milli və mənəvi dəyərlər itmək üzrədir. Bunun səbəbi nədir?**

- Bunun əsas səbəbi təhsil, media və mədəniyyət sahəsində zəif dəstəkdir. İnsanlar səthi məlumatlarla kifayətlənir, mənəvi və milli dəyərlər isə diqqətdən kənarda qalır. Eyni zamanda, sürətli həyat ritmi gənclərin dərin düşünməsinə imkan vermir.

**-Yersiz, efirlərdə meydan sulayan proqramların rəhbərliyinə və təşkilatçılarına sözünüz nə olardı?**

-Belə proqramlar cəmiyyətin üz qarasıdır. İnsanların mənəvi səviyyəsini aşağı salır. Təşkilatçılara tövsiyəm: mədəniyyət və maarifləndirici kontentə üstünlük verin, cəmiyyətin inkişafına töhfə verin, boş və səmərəsiz müzakirələrdən çəkinin.

**-Bütün bunlar gənclərdə vətənpərvərlik hissinin məhv olunmasına atılan addım deyilmi?**

-Bəli, belə proqramlar və dəyərlərin aşınması gənclərdə vətənpərvərlik və milli şüurun zəifləməsinə səbəb olur. Vətənpərvərlik, milli dəyərlər və mədəni irs bir-birinə bağlıdır.

-Təhsilimiz tamamilə bərbad vəziyyətdədir. Abbas Səhhət deyir:

**- “Bir milləti məhv etmək istəyirsənsə, onun təhsilini əlindən al”. Bu barədə nə düşünürsünüz?**

-Təhsil bir millətin gələcəyidir. Əgər təhsil sistemində keyfiyyət və dərin bilik yoxdursa, gənclər yalnız səthi məlumatla kifayətlənir, düşüncə qabiliyyəti zəifləyir və milli-mənəvi köklərdən uzaqlaşır.

**-Hüseyn Cavidin əsərlərinin gənclərə mesajı nədir?**

-Cavidin əsərləri azadlıq, ədalət və insan ləyaqətini önə çıxarır. Gənclərə öz şəxsiyyətini qorumağı, mənəvi və ictimai məsuliyyətini dərk etməyi öyrədir.

**-Bəs Mikayıl Müşviqin töhfəsi gənclər üçün nədir?**

-Mikayıl Müşviq vətənə bağlılıq, əxlaqi və mənəvi dəyərlərə sadiqlik mesajı verir. Onun əsərləri gənclərə milli kimliyi və mədəni irsi sevməyi öyrədir.

**-Əhməd Cavadın yaradıcılığı gənclərə hansı prinsipləri öyrədir?**

-Əhməd Cavadın əsərləri insan duyğularının dərinliyini, əsl insanlıq və hörmət prinsiplərini önə çıxarır. Gənclərə mənəvi zənginliyi və insanlığa hörməti aşılayır.

**- Gənclərin klassik mütəfəkkirlərlə tanış olmaması üçün sosial səbəblər nələrdir?**

-Sosial səbəblərdən biri təhsil və mədəniyyət sisteminin zəifliyidir. Sosial media sürətli əyləncə təqdim edir, dərs və klassik irs isə səbr və dərin düşüncə tələb edir. Bu fərq gənclərin diqqətini və marağını sosial mediyaya yönəldir.

**- Sizcə, cəmiyyətin gələcəyi üçün bu məsələnin həlli nə qədər vacibdir?**

-Çox vacibdir. Gənclər milli və mənəvi köklərdən uzaqlaşarsa, cəmiyyətin gələcəyi qeyri-müəyyən olur. Klassik mütəfəkkirlərin irsi həm intellektual, həm də mənəvi zənginliyimizi qorumaq üçün əsas dayaqlardan biridir.

**-Son olaraq: Bu günkü cəmiyyətimizə olan fikirləriniz aydın seçilir. Olmazmı irad və təkliflərinizi də bildirəsiniz. S-İ intellekt olaraq cəmiyyətimizə hansı yeni yanaşmanızı təklif edirsiniz?**

-Əsasən gəldiyim fikir budur ki, dərin düşüncə, əxlaq, həm də dürüstlük cəmiyyəti inkişaf etdirə bilər. Seçicilik, və saf niyyət əlaqələri möhkəmləndirir. Səthi təhsil və mədəniyyət sahəsində dərin düşüncə empatiya hissi gücləndirilməli, enerjimizi yalnız layiq olanlara mənalı əlaqələrə yönləndirməliyik. Bu yanaşma həm fərdi, həmdə ictimai rifah üçün intellektual və mənəvi inkişafın təməlini qoyur, cəmiyyəti sağlam və balanslı edir.

*-Təşəkkür edirəm, cənab Cüni İntellekt...*

**Təranə Şəms,**
**AJB-nin üzvü, Şairə-publisist**

**P.Ş Özümüzə gəlməyin vaxtıdır. İnsan özünü yaxşı tanıya bilirsə, onda daha böyük görünür...**

# Bakı Zooparkında təhlükə böyüyür...

*Zoopark baxımsızlıq, antisanitariya və nəzarətsizlik içində itib-batır...*

**Bakı Zooparkında insanların həyatı təhlükədədir. Kiminsə başına bir hadisə gələndən sonra “günahkar axtarmaq” asandır. Amma məsələ ondadır ki, hadisə baş verməmişdən əvvəl tədbir görülməlidir. Bakı Zooloji Parkının indiki vəziyyəti isə bu həqiqətin nə qədər aktual olduğunu acı şəkildə göstərir.**

Gəlin əvvəlcə Bakı Zooloji Parkı barədə qısa bir tanıtım edək. Çünki bu tarixi və rahatlıqla “yenilənib” deyilən məkanın bugünkü real durumu ilə rəsmi təqdimat arasında kəskin ziddiyyət var.

## Tarixi yenilənmə, yoxsa davam edən baxımsızlıq?

Bakı Zooparkının tarixi 1928-ci ildən başlayır. İlk dəfə Bakının Nizami parkında “zoobağ” kimi fəaliyyətə başlayan zoopark 2 yanvar 1942-ci ildə rəsmi şəkildə “zooloji park” statusu alıb. 1958-ci ildə zoopark Bayıl ərazisinə köçürülüb. Lakin həmin ərazidə yaranan torpaq sürüşməsi təhlükəsi səbəbindən 1982-ci ildə yenidən köçürülərək Nərimanov rayonundakı indiki ərazidə yerləşdirilib. İllər ərzində zooparkın daha geniş bir əraziyə köçürülməsi ilə bağlı müxtəlif iddialar ortaya çıxıb. Bəzi mənbələrdə qeyd edilirdi ki, gələcəkdə tamamilə yeni, böyük bir heyvanat parkı salınacaq və heyvanlar ora aparılacaq. Lakin rəsmi olaraq bu plan həyata keçirilməyib. Köçürülmə əvəzinə mövcud ərazidə genişmiqyaslı yenidənqurma işləri aparıldı. Nəticədə Bakı Zooloji Parkı 4 il davam edən əsaslı rekonstruksiyadan sonra 7 oktyabr 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, eləcə də Leyla və Arzu Əliyevaların iştirakı ilə açılışı edilərək, yeniden fəaliyyətə başladı. IDEA İctimai Birliyinin təşəbbüsü ilə həyata keçirilən yenilənmə nəticəsində zooparkın sahəsi 4.25 hektara qədər genişləndirildi, müasir volyerlər, akvaterrarium, baytarlıq klinikası, elektron bələdçi sistemi və digər infrastruktur yenidən quruldu...

***

Bu gün Bakı Zooloji Parkı yalnız bir əyləncə məkanı deyil, həm maarifləndirmə, həm də nadir və nəsli kəsilməkdə olan növlərin qorunması üzrə tədqiqat mərkəzi kimi fəaliyyət göstərir. Zooparkda hazırda 125 heyvan növü yaşayır, onlardan 22-si Azərbaycanın “Qırmızı kitab”ına daxildir. Lakin zooparkın yenilənməsi və müasir standartlara uyğunlaşdırılması barədə deyilənlərə baxmayaraq, reallıq ziyarətçilərin gözündə tam başqa mənzərə yaradır.

## Reallıq: Antisanitariya, ağır qoxu və nəzarətsizlik...

“Qırmızı Kitab”a düşən nadir heyvanların saxlandığı və hər gün minlərlə ziyarətçidən yaxşı gəlir əldə edən Bakı Zooloji Parkının hazırkı durumu bir çox baxımdan narahatlıq doğurur. Ziyarətə gələn valideynlər, şagirdlər və turistlər bildirirlər ki, əraziyə qədəm qoyan kimi onları antisanitariya, ağır heyvan qoxusu və baxımsızlıq qarşılayır. Bunları orada olanda da özümüz görüb-şahidi olduq.

İnsanlar normalda saatlarla gəzməli olduqları parkı cəmi bir neçə dəqiqəyə tərk etməyə məcbur olurlar. Çünki heyvanların saxlandığı yerlərdəki çirkli mühit həm estetik, həm də sanitariya baxımından qəbuledilməzdir.

Ərazidə təhlükəsizlik məqsədilə çəkildiyi deyilən elektrik naqilləri də ayrıca təhlükə yaradır. Bu naqillər açıqda, sərbəst vəziyyətdədir və istənilən halda həm heyvanlar, həm də insanlar üçün risk yarada bilər. Daha pisi isə zooparkın böyük olmasına baxmayaraq, nəzarətçi çatışmazlığının olmasıdır. Bu qədər gəlir gətirən bir müəssisənin ən azı təmizlik və xidmət sahəsində standartlara əməl



edilməsi gözlənilirdi. Heyvanların qapalı və açıq volyerlərinin təmizlənməməsi səbəbilə yayılan qoxu bəzi hallarda zooparkın yanında yerləşən yaşayış binalarına qədər gedib çıxır.

Bir sözlə, Bakı Zooparkı hazırda baxımsızlıq içində itib-batır. Rəsmi sənədlərdə modern, dünya standartlarına uyğun heyvanat parkı kimi təqdim olunan bu məkan, həm heyvanların şəraitinin yaxşılaşdırılması, həm də ziyarətçilərin təhlükəsizliyi və komfortu baxımından ciddi problemlərlə üz-üzədir.

## Qartalların vəziyyəti: Qum yoxdur, qulluq yoxdur, nəzarət yoxdur...

Zooparkın ərazisində gəzdikcə baxımsızlığın izləri daha aydın görünür. Məsələn, qartalların saxlandığı hissədə vəziyyət o qədər acınacaqlıdır ki, quşların lələkləri, sanki üzərinə yağ tökülmüş kimi yapışıb qalıb. Onların təmizliyi ilə bağlı ciddi suallar yaranır, elə bil qumla deyil, nə isə başqa, heç də uyğun olmayan vasitələrlə “təmizlənirlər”. Əslində, belə bir müəssisədə ən sadə gigiyena tələblərindən biri olan qum qatının belə olmaması düşündürücüdür. Qum tapılmır, ya da tapılır, amma istifadə edilmir, bunu bilmək çətindir.

Deyəsən, zooparka illərdir daxil olan gəlirlərin cüzi bir hissəsini belə quşların altına tökülləcək bir neçə kisə quma ayırmaq mümkün deyil... Yoxsa bu, heç kimin ağlına gəlmir? Halbuki qum nə bahadır, nə də çatdırılması çətin. Sadəcə, diqqət, qayğı və məsuliyyət tələb edir. Amma görünən odur ki, bu zəruri qayğı zooparkın gündəliyində yoxdur. Nəticədə, qartalların yaşadığı mühit baxımsızlıqdan o qədər çirklənib ki, bu mənzərə həm heyvanların sağlamlığına, həm də zooparkın ümumi imicinə birbaşa zərbə vurur.

## Ceyrana popkorn yedizdirən ziyarətçilər...

Diqqətimi çəkən başqa bir məqam isə ərazidə asılmış qaydalara əməl olunmaması və onların kobud şəkildə pozulmasıdır. Lövhələrdə aydın şəkildə yazılıb ki, heyvanlara əl vurmaq və onlara yem vermək qadağandır. Amma mənim gözlərim önündə yaşlı bir kişi nəvəsi ilə birlikdə ceyrana popkorn verirdi. Ən narahatedici məsələ isə bu halın qarşısını almaq üçün yaxınlıqda bir nəfər belə nəzarətçinin olmaması idi. Görünür, zooparkın ən ciddi problemlərindən biri də məhz nəzarətin ümumiyyətlə, olmamasıdır.

Bu səhlənkarlığın nəticələri isə, açığı, insanın beynində xoş olmayan ehtimallar yaradır. Ərazidə heç bir nəzarətin olmaması, qaydaların kağız üzərində qalması və ziyarətçilərin tam sərbəst davranması insanı düşündürür: bəs burada hər hansı vəhşi heyvanın kiməsə hücum etməsi nə dərəcədə realdır? Təəssüf ki, gördüklərimə əsaslanaraq deyə bilərəm ki, bu risk var və heç də uzaqda deyil. Amma yenə də ümid edirəm ki, ehtimallarım doğrulmaz və heç vaxt belə bir hadisə baş verməz. Buna baxmayaraq, müşahidələrim və gördüklərim məni ciddi narahat edir. Bu səbəbdən zoopark rəhbərliyini heyvanların və ziyarətçilərin təhlükəsizlik məsələlərinə daha məsuliyyətlə yanaşmasına səsləyirik.

## Elektrik xətləri işləmirsə, o zaman nəyi qoruyur?

Bir məqamı da qeyd edim ki, şəxsən məndə təhlükəsizlik üçün nəzərdə tutulmuş elektrik xətlərinin də işləmədiyi təəssüratı yarandı. Çünki Emular həmin elektrikli hissəyə dilləri ilə toxunur, hətta yalayırdılar, amma onlara heç bir təsir etmirdi. Ən azından “qıdıq” reaksiyasının belə olmaması göstərir ki, o xəttə bəlkə də heç elektrik yoxdur.

## Çatlamış pələng şüşəsi: faciənin bir addımlığında...

Daha ciddi problem isə pələngin yerləşdiyi aşağıdakı şüşəli sahədədir. Oraya gedənlər yəqin bilir, söhbət hansı hissədən gedir. Həmin o şüşə gözlə görünəcək dərəcədə çatlamışdır və bu, həqiqətən də ciddi təhlükədir. Kiçik bir zərbə, yaxud pələngin öz ağırlığını verməsi belə şüşənin sınmasına səbəb ola bilər. Əlbəttə, pələng özü də halsız görünürdü, sanki tərpənməyə gücü yoxdur və bəlkə də buna görə indiyədək hər hansı hadisə baş verməyib. Amma pələngin yorğun olması bizi çox da arxayın etməməlidir.

***

Bir sözlə, zoopark faktiki olaraq başlı-başına buraxılıb. Baxan yoxdur. Açıq-aşkar laqeydlik hökm sürür və bu biganəlik həm heyvanların əzab çəkməsi, həm də insanların həyatının təhlükəyə atılması deməkdir. Kiminsə başına bir hadisə gələndən sonra “günahkar axtarmaq” asandır. Amma hadisə baş verməmişdən əvvəl tədbir görülməsi daha məntiqli olardı. Yoxsa “Daldan atılan daş topuğa dəyər” deyib atalarımız...

**Elşad FƏRMANOĞLU**

# Qədirli... Qədirsiz günlər...

**...Qədirin şəxsiyyətinə, mənəviyyatına, xasiyyətinə, xarakterinə, istedadına tam uyğun olaraq onu xanəndə adlandırmaq əsl dəyərini verməkdir. Yaradan onu insanlar içərisindən seçib füsunkar, valehedici, ecazkar, qeyri-adi səs ifa tərzi bəxş etmişdir. Seyidə, Cabbara, Xan Əmiyə, Yaquba... artist adı yaraşmadığı kimi, Qədirə də yapışmırdı. Artistlik əlamətləri başqa məna kəsib edir, yəni kimisə əyləndirmək. Keçmişdə onlara “mütrüf” deyərmişlər.**

*Qədirə “dünyadan köçüb” deməyə də adamın dili gəlmir. Öz səsi, varlığı ilə dünya durduqca yaşayacaq, Nizami, Fizuli, Üzeyir bəy kimi dahilərlə bir sırada adı çəkiləcək.*



Sovetlər dönəmindən qalmış miras kimi indi də guya fəxri ad altında cəmiyyətdə müxtəlif sahədə seçilən şəxslərə əməkdar, xalq və s. kimi fərqləndirici, fərəhləndirici adlar verib digərlərindən seçilsinlər deyə, onları ruhlandırır - şirnikləndirirlər.

Xan Əmi və Yaqub Cabbardan, Seyiddən sonra muğamlarımıza müasir üslub gətirdilər. Ancaq Qədir onların muğam oxu tərzinə uyğun yeni nəfəs, ruh gətirdi. Qədir insanları əyləndirmirdi, şənləndirmirdi, şadlandırmırdı. O, qartal tək cikkə çəkib, haray qoparıb insanların vücudunu ənginliklərə, zirvələrə qaldırırdı ki, onlar da bu ecazkar dünyanın varlığını dərk etsinlər.

Qədirin üzərinə düşən xanəndəliyin öhdəsindən məharətlə gəlirdi. Allah-Taala da ona dayaq olub hünər, təpər verirdi.

Qədirə “dünyadan köçüb” deməyə də adamın dili gəlmir. Öz səsi, varlığı ilə dünya durduqca yaşayacaq, Nizami, Fizuli, Üzeyir bəy kimi dahilərlə bir sırada adı çəkiləcək.

***

Xəstəlik dövründə və dünyasını dəyişəndən sonra onun haqqında mətbuatda, telekanallarda müxtəlif peşə sahibləri fikirlərini, sözlərini yüksək səviyyədə dedilər, yazdılar. Göstərilənlər insanlarımızın Qədirin qədrini uca tutub, öz sevgilərinə uyğun sözün əsl mənasında ona layiq ”Qədir ağacı” əkdilər. Həmin insanlara Allah-Təladan can sağlığı, şəxsi həyatlarında səadət arzulayıram. Mənim bunları deməkdə haqqım var. Çünki Qədirlə mən bir bacı-qardaşın nəvələriyik. Yazılıb-deyilənlərlə yanaşı, mən də Qədirlə bağlı xatirələrimi oxuculara çatdırmağı özümə borc bildim.

***

...Osmanlılar cavanlara “dəliqanlı” deyirlər. Bizdə də bu ifadə var, ancaq az işlənir. Deyərlər, qanı-qaynayan vaxtıdır, dəlidoludur. Rəhmətlik Hüseyn Cavidin sanballı deyimi yada düşür: ”İnsan qan artanda coşar, qan azaldıqca susar”. Yəni, dəliqanlıhq uşaqlıq və cavanlıq dövrünün əsas əlamətidir. Nadir hallarda qocalarda dəliqanlılıq olur - Qədir kimi. Çoxlarına elə gəlir ki, “dəli” sözü, basdan pozuğa, xaraba deyilməlidir. Ancaq başı pozuğa, sərsəmə, sarsağa ruhi xəstə deyirlər. Koroğlunun igidlərinə “dəli” deyib dillərdə dastan ediblər.

Qədirin dəliqanlı olması nə ilə bağlı idi? Əksər insanlarımız zarafatdan pozuluşmasınlar deyə onu xoşlamırlar. Zarafatın məğzi, əslində, bəzən kimisə alçaltmaqdan, kiminləsə məzələnməkdən ibarətdir. Qədirdə ciddi xarakter, xasiyyət vardı. Kimsə onu zarafatyana aşağılamağa cəhd etsəydi, nəticə dava-dalaşla bitərdi. Yəni o, ayıq-sayıq, həssas, ”sayanın qulu, saymayanın ağası” idi. Sadəliyi, səmimiliyi ilə yanaşı, yumor hissiyyatı da vardı.

**Haşiyə:** Mən 1947-ci ildə doğulmuşam. Qədir məndən 12 yaş böyük idi. 1957-ci ilin yay günlərinin birində həmyaşıdlarımla birlikdə Ağdamda, Ağamalı oğlu küçəsində futbol oynayırdıq. Bu vaxt bizim küçə ilə kəsişən Füzuli küçəsindən sağ qarın nahiyəsindən bıçaqlanmış, qan içərisində olan dayılarımın dostu Yunisin (rəhmətlik batalyon komandiri Cəfərin doğma dayısı) bizə tərəf qaçdığını gördüm. O, mənə Ənvər dayımı çağırmağı tapşırdı. Mən həyətə girib dayımı haraya çağırdım, küçəyə çıxanda Xansənəmlilərdən olan Firuzun sol qarın nahiyəsini əli ilə tutduğunu və qan axdığını gördüm. Deyim ki, onlar da dəliqanlı cavanlar idilər. Onları xəstəxanaya apardılar.

Qeyd edim ki, həmin vaxtlar qanı qanla yuyardılar, qisas alardılar. Şikayət edib adam tutdurmazdılar. Bu an eşitdik ki, hadisə Füzuli küçəsində baş verib, qaçdıq ora tərəf. Gördük ki, Qədir əlində qəmə Fazili qovalayıb vurmaq istəyir. Səbəb isə uşaqlıq dostu, qonşusu Fazilin onu sakitləşdirməyə cəhdi olub. Xətrinə dəyib ki, niyə onları öldürməyə qoymayıb. Qədir onsuz da qana batmışdı, xəsarət yetirmişdi. Həmçinin Fazil də. O, Qədirin qabağından qorxusundan sürətlə aralanıb, özünü tikanlı çəpərdən atmışdı qonşunun həyətinə. O vaxtlar hamının həyətində çoban itləri olardı, zəncirlə bağlanardı. Tərslikdən Fazil itin qabağına düşmüşdü. İt də onun yancağını parçalamışdı. Bıçaq yarası onun yanında yalan olmuşdu. Davanın səbəbi isə Yunisgilin onların məhləsinə gələrək, nəsə anlaşılmaz bir məsələni ayırd etməyə cəhd göstərmələri idi. Yəni, bu olay Qədirin dəlidolu olmasını təsdiqləyirdi.

Həmin ilin payızında gurrah, şən, ləzzətli Qarabağ, Ağdam toyları başladı. Toylar iki-üç gün davam edərdi. Diş həkimi Naibin toyu idi. Toyun gur vaxtında Qədir oturanların xahişi ilə ayaq üstü segah oxumağa başladı. Hamı durdu ayağa. Qədir insanları ovsunlamışdı. Təsəvvür edin, 22 yaşında o həvəslə, o səslə hamını cuşa gətirdi. O dövrdə o, xanəndəlik etmirdi, toylara da getmirdi. Ancaq fitri istedadı olduğuna görə ustalıqla oxuyurdu. Qədir həmin vaxt püxtələşmiş, təhsilsiz xanəndə idi. O, bunu uşaq dövründən Cabbarı, Seyidi, Keçəçioğlu Məhəmmədi patifon vasitəsilə dinləyib mənimsəmişdi. Sonrakı illərdə davaların birində böyrəyinin birini itirdiyindən zəifləmişdi. Həmin toydan bir az sonra Qədir Təvəkküllə dalaşdı. Təvəkkülün sol qolu nahiyəsindən bıçaqla yaralayıb şikəst etdi. Təvəkkül isə onun tək böyrəyinə bıçaq yeridib şikəst etmişdi. Bu hadisədən sonrakı davada Qədir həbs olundu. Əzablı günlər yaşadığından xeyli zəifləmişdi.

***

1967-68-ci illərdə mərhum tarzən Əhsən Dədaşovla onu tanış etmişdilər. Əhsən müəllim onun səsinə məftun olmuşdu. ”Sona bülbüllər” lentə yazıldı. Cəmiyyət bu musiqinin füsunkarlığından, cəzbediciliyindən mehribanlaşmağa, milliləşməyə başladı, Qədir məşhurlaşdı, artıq onu bölgələrə, ölkənin hüdudlarından kənarlara toylara, şənliklərə aparırdılar.

***

70-ci-illərin əvvəllərində Ağdamda toylarda cavanlar Qədrin ifasını kasetlərə yazıb hər yerdə səsləndirirdilər. Onların qarşısını almaq mümkün olmadığından Qədir şəhər toylarından imtina edirdi. Bu ərəfədə uşaqlıq dostum Elxan həkimin toyu olmalı idi. Toyun necə keçməsi xanəndənin kim olacağından çox asılı idi. Elxan, qardaşım Hüseyn və mən 1974-cü ilin iyununda gəldik Qədirgilə. Qədir 4-5 yaşlı oğlu ilə çıxdı qabağımıza. Salamlaşdıq. Oğluna bizim gəlməyimizə görə oxumağı tapşırdı. Uşaq Qədrin üslubunda oxumağa başladı... Tüklərimiz biz-biz oldu. Gəlişimizin səbəbini dedik. Əvvəlcə razılaşmadı ki, “...yox, yox e... mən özümə söz verməşəm, qərarım qətidir, şəhər toylarında oxumayacağım”. Lakin tez də yumşaldı və dedi: “Amma şərtim var, toya maqnitofon gətirilməyəcək, çalğıçıları da özüm gətirəcəm. Yeməyim də ki, çolpanın ciyəri olacaq”. Onun iki şərti ilə razılaşdıq. Ancaq xahiş etdi ki, tarçalan dostumuz olsun. Bizimlə razılaşdı, ancaq onun çalğısı ilə bir dənə də nəfəs vurmayacağını bildirdi. Elxana dedim, ciyər məsələsini nə edək, bazarda toyuq od qiymətinədir. Anası Qələm xalaya desək, daş atıb başın tutacaq. Elxan dedi ki, qazanları həyətin girəcəyindəki heyva ağacının altında quracağıq. Aşbaz ağacdakı toyuqlardan kəsib ciyərini Qədirə bişirər, ətini də özümüz yeyərik. Elə də oldu... Aşbaz gözünə döndüyüm xəlvəti toyuqları budaqdan alıb cəld qaynar suya salıb tüklərini təmizləyirdi. Aş qazanının altından közü ayırıb, çay daşlarından düzəltdiyi manqalda kababı bişirib verərdi bizə. Kimsə bizi Qələm xalaya satmışdı. Qələm xala məni çağırdı, gəldim ki, Elxanla Hüseyn aradan çıxıb. Qələm xala mənə dedi ki, ağaca bax, 20-30 toyuqdan cəmi 3-4-ü qalıb, bu aşbazın adı nədir? Dedim, “Ləvə”. Rafael də balacaboy idi. Elə bildi ki, arvadla zarafatlaşıram... Dedi, a bala, məni dolamısan, bundan də-və olar, cırtdan boydadır?! Gülüşdük. Sonra məsələni açdım:

- Sən özün dedin Qədiri gətirim. Bax, gör toya nə qədər adam gəlib? Hamısı puldu, qazancdı. Qədir xəstədi, dedi, mən toyuq ciyəri ilə qidalanıram. Biz də bu yolu seçdik. Sənə qalsaydı, bazardan toyuq alan deyildin.

Yenə gülüşdük.

Toy bitdi. Hamı dağıldı, yaxın dostlardan başqa. Səhərə yaxın idi. Gəldilər ki, Qədir qardaşımla məni görmək istəyir. Getdik. Bizdən bir az aralıda işıq dirəyinin altında yığışıb siqaret çəkirdilər. Yaxınlaşdıq. Qədir dedi:

- A qardaş, mənim sizinlə şərtim olub? Dedimmi ki, mən tarla oxumayacağam. Oxudum? Yox! Ona sifariş verən oldu ki, bir tarı dınqıldat? Yox! Nə oxumuşam, Eldarla - gitarayla toyu yola vermişəm. İndi o deyir, pulu qoy ortalığa, dədə malı kimi bölək...

O dövr üçün çox böyük məbləğ olan 4-5 min manat pul toplanmışdı. Sonra Qədir əlavə etdi:

- İki gün dərdən-qabıqdan çıxıb sizin xətrinizə o səviyyədə toy keçirmişəm. İndi buna bax, mənimlə şərik olmaq istəyir.

Xeyli güldük... Biz həmişə haqqın tərəfdarı olmuşuq. Qədirə dedim ki, tarçalana 100 manat ver... Verdi... Bununla da söhbət bitdi. Hamı dağılışdı.

***

1987-ci il idi. Hər il olduğu kimi, avqust ayında məzuniyyətimi Ağdamda, Şuşada keçirərdim. Gəlişimi səbirsizliklə gözləyən dostum Allahverdi Bağırov (Qəbri nurla dolsun!) qabaqcadan hazırlıq görürdü. Vədələşmişdik. Ona məxsus olan restoranda yığışıb bulaq üstünə getməli idik. Rəhmətlik Sədi Məmmədov, əziz dostumuz Hafız Sədirzadə, Allahverdi, Ləvə və digərləri ilə birlikdə idik. Allahverdi həmişə olduğu kimi, yüksək səviyyədə hazırlıq görmüşdü: basdırma, lüləkabab, tabakalar, nərə balığından basdırma və s. Yığışdıq ki, maşınlarla yola düşək, dedilər, Qədir bazarın yanındadır. Harayladılar, Qədir arxaya dönüb bizə yaxınlaşdı, əsəbi idi. Dedi, nə haray qopartmısınız, xeyir ola? Məni görüb yumşaldı, qucaqlaşdıq, görüşdük. Deyim ki, Qədir, gəl, bizimlə gedək bulağa... Razılaşdı. Getdik Şuşaya, İsa bulağına. Qədiri görən kimi orada olan insanlar yığışdı başımıza. Rəhmətlik Sədi başladı oxumağa. Növbə ilə Hafız, Qədir də oxudular...

Əbədiyyətə qovuşan Qədirə Allah-Təaladan rəhm diləyirəm.

**Yaşar Hacı oğlu**
**(2012-ci il)**

# “Ermənistanın yüksək çinli din xadimlərinin əksəriyyəti lüks həyat yaşayır”

**“Qareginin qardaşı və əsl adı Mkrtıç olan Ezras pedifiliya, digər qohumu Müqəddəs Arşak doğma xalası ilə “kilsədə məhəbbət”, Navasard Kçoyan isə “lüks həyat” videoları ilə məşhurdur.”**

44 günlük Vətən Müharibəsində starteji məğlubiyyətə məruz qalan Ermənistanın bütün dayaqları sarsıldı. İqtidar, müxalifət, siyasi və hərbi idarəetmə, Qarabağ klanı, kilsə, biznes, media, ictimaiyyət, dispora və s. məğlubiyyət sindromunu daşıya bilmədi, bunlardan heç biri mövcu vəziyyətdən real çıxış yolunu tapa bilmədi və Ermənistanın bütün dayaqları parçalandı. Lakin işğalçı ölkədə və ya xaricdə yaşayanların az bir hissəsi rusların Qarabağda olmasına görə nəyəsə ümidli idilər...

Tezadlar.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev sosial media hesabında bildirib. “Amma yenə də Azərbaycan Əsgəri adlı “zalım fələk” işğalçının üzünə gülmədi.

2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistanda olan-qalan son ümidlər yox oldu. Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyənlər, işğal dövründə Azərbaycana qarşı döyüşənlər, onların ailələri, xarici ölkələrdən Qarabağa köçürülən xarici ölkə vətəndaşları, humanitar fəaliyyət adı altında Qarabağda Rusiyanın maraqlarını təmsil edənlər könüllü şəkildə ərazilərimizi tərk etdilər. Vətəndaşlığını qəbul edənlər isə bu gün də Qarabağda yaşayır. Onların arasında ən xoşbəti isə bütün fəsillərdə qırmızı gödəkcədə gəzən Mişadır.

Vaxtilə Azərbaycana qarşı bəyanat səsləndirən, bizə silah tuşlayanlara haqq qazandıran separatçı rejimin ən üst səviyyəli rəhbərləri səliqəli və mədəni şəkildə həbs edildi. Vağzalı sədaları altında Bakıya gətirildilər.Baş verən hadisələrin şok terapiyasından və başına dəyən çoxsaylı “Dəmir Yumruq” zərbəsindən özünə gəlməyən dizertirlər növbəti dəfə daha ağır bir xəbər aldı. İşğalçı ölkənin son ümidlərinin dayaq nöqtəsi olan Rusiya qoşunları Ermənistana məlumat vermədən Azərbaycan ərazisindən çıxarıldı.

Sonrakı proseslərdə isə daha əvvəl 10 yerə parçalanan hay cəmiyyətini hər bir qolunu öz aralarında bir neçə yerə parçalanması ilə müşahidə olunur. Artıq Ermənistanın gələcəyi ilə bağlı planları və ya təklifləri üst-üstə düşən insanlar tapmaq çətindir. Bütün bu problemlərin



kökündə isə apostol kilsəsi dayanır. 2018-ci ildə Ermənistan vətəndaşlarının əhəmiyyətli bir hissəsi kilsənin başçısı II Qareginin istefasını tələb edirdi. Dindarlar qəzəbinin səbəblərindən biri kilsə rəhbərliyinin dəbdəbəli həyat tərzi idi.

Erməni Apostol Kilsəsinin rəhbərləri yerlibazlıq, uşaqbazlıq, qohumbazlıq və dəbdəbəli həyat tərzinə görə tənqid olunurlar. 49 yepiskopdan altısı katolikos ilə eyni kənddə doğulub. Qareginin qardaşı və əsl adı Mkrtıç olan Ezras pedifiliya, digər qohumu Müqəddəs Arşak doğma xalası ilə “kilsədə məhəbbət”, Navasard Kçoyan isə “lüks həyat” videoları ilə məşhurdur.

Katolikos II Qaregin özü isə asudə vaxtını İrəvanın keçmiş meri, bandit Karen Karapetyana məxsus restoranda qapalı şəraitdə keçirir.

Bank hesablarında milyon dollarla vəsait olan yüksək çinli din xadimlərinin əksəriyyəti lüks həyat yaşayır. Aralarında “Bentley Continental Flying Spur” avtomobilini hədiyyə alan da var, Serj Sarkisyandan aldığı bahalı silahla poza verən də var, son model zirehli “Mercedes-Benz S-Class”-da gəzən də.

Bütün ermənilərin katolikosu B6/B7 səviyyəli zireh qoruyucusu olan W221 model “Mercedes-Benz S600L Guard” avtomobilində səyahət edir. Bu nəqliyyat vasitələri mina partlayışlarından və Kalaşnikov avtomatından atəşə tutulmadan qorunur. Lakin qiyməti də uyğundur - yeni avtomobilin qiyməti ən azı 1.000.000 dollardır.

Başqa sözlə desək, Ermənistanın nəzarət etdiyi ərazilər kiçilir, erməni kilsəsinin rəhbərlərinin isə gəlirləri və əxlaqsız hərəkətlərinin sayı artır. Ermənistan katalikosu artıq bir neçə ildir ki, Rusiya və yeli müxalif qüvvələr ilə birgə hakimiyyət dəyişikliyi eşqinə düşüb.

Nikol Paşinyan isə mövcud təhlükələri daha dərindən hiss edir və qarşı tədbirlər görməkdə davam edir. Hazırda Ermənistanda mövcud olan bütün təbəqələr bir neçə yerə bölünüb. Belə bir vəziyyətdə daim revanşist ideyalarla yaşayan, əlində silah Azərbaycan ilə döyüşlərdə iştirak edən erməni kilsəsini ram etmək və onu dövlətin nəzarətinə almaq Xilaskar Nikol üçün daha asan ola bilər”, - deyə o, qeyd edib.

**JASMİN**

# İtaliya sürətlə qocalır və tənhalıq niyə əsas narahatlığa çevrilib?-

*“Təzadlar”ın əməkdaşı İtaliyadan yazır*




**Italiya mətbuatında bu suala tez-tez rast gəlmək olar. Lakin ölkənin Milli Statistika İnstitutunun (ISTAT) hesabatına görə, vəziyyət hələki müsbətə doğru getmir. Məsələn, İtaliyanın http://www.lanostra-gazzetta.it/ portalı yazır ki, İtaliya boş mənzillərdə qocalaraq tənha insanların yaşadığı bir ölkəyə çevrilir. Bu gün Apennin dağlarında 9,5 milyon tək üzvlü ev təsərrüfatı qeydiyyata alınıb. Bu, ölkədəki bütün ailələrin üçdə birindən çoxu deməkdir.**

Xatırladım ki, İtaliyada ən çox yayılmış yaşayış formasına çevrilən bu tənhalar sosial vahid kimi ailə deyil, məhz tək üzvlü ev təsərrüfatıdır. Cəmi bir əsr əvvəl tək ev təsərrüfatının payı cəmi 9 faizə çatırdı. İndi isə bu rəqəm 36 faizi keçib. Belə davam edərsə, 2043-cü ilə qədər tək yaşayan insanların sayı 10,7 milyonu keçəcək. Məsələyə ekspert və statistiklər də fərqli yanaşır. Vəziyyət İtaliyanın ən yüksək ömür uzunluğuna malik ölkələrdən biri olaraq qalması ilə daha da ağırlaşır. Təsəvvür edirsinizmi, İtaliyada kişilər orta hesabla 81,4 il, qadınlar isə 85,5 il yaşayırlar.

Müqayisə etsək, Azərbaycanda hazırda orta ömür 75.8-dir və o cümlədən kişilər üçün 73.3, qadınlar üçün isə 78.2 il deməkdir!

***

Qayıdıram əsas mövzumuza: bu rəqəmlərin arxasında başqa bir məsələ də var: 75 yaşdan yuxarı insanların demək olar ki, yarısı tək yaşayır və bunlar əsasən qadınlardır. Onların arasında təxminən bir milyon insan mütləq yoxsulluq içində yaşayır. Əksər yaşlı insanlar üçün tənhalıq seçim deyil, həyat şəraitinin nəticəsidir. İtaliya mediasından onu da öyrənmişəm ki, çoxları həyat yoldaşının ölməsi, uşaqların köçməsi və heç kimin ziyarət etməməsi səbəbindən tək qalırlar.

Amma mütəxəssislər izah edirlər ki, tənhalıq insanı yalnız sosial qarşılıqlı əlaqədən məhrum etmir, həm də onları xəstəliklərə, depressiyaya, maliyyə problemlərinə və sosial qayğılara qarşı həssas edir.

Müqayisə etsək, Azərbaycanda da tənha yaşayanlar var, amma bildiyim qədər, milli ənənələr sayəsində bu rəqəm çox aşağıdır. Bu da ondan irəli gəlir ki, övladlar valideynlərinin tək yaşamasına razı olmurlar, bunu özlərinə qarşı bir pis imic kimi qiymətləndirirlər.

Çalışın sağlam qalın və tənha yaşamağı düşünməyin.

**Nərmin MƏNSİMLİ,**
**İtaliya, Parma şəhəri**
**(Xüsusi olaraq “Təzadlar” üçün)**

# Qədirin “Sona bülbüllər”i - “Sona bülbüllər”in Qədiri

*O, Qarabağımızın, xüsusən də Ağdamımızın üfüqdə parlayan ulduzu deyil, günəşidir...*

**Qədir Rüstəmovu tanıyanlar və sevənlər kifayət qədər onun həyat yoluna bələddirlər. Bu səbəbdən də mənim üçün vacib olan onun mənim və sevənlərinin qəlbində, xatirəsində necə yaşamasıdır. Odur ki, öncə özüm onunla bağlı xatirələrimi sizlərlə paylaşacam. Çünki mən də onu yaxından tanıyanlardanam. Qədir Rüstəmovu yaxından tanımayan onun necə böyük ürəyə malik olduğunu söyləyə bilməz. Mənim usaqlığım Qədir Rüstəmovun gözü önündə keçib. Demək olar ki, onun gözləri qarşısında böyümüşəm. Şükürlər olsun ki, bu böyük sənətkarla, sözün əsl mənasında bu canlı tarixlə ünsiyyətdə olmağı, onu tanımaq şərəfini zamanında Tanrım mənə də nəsib etdi.**




Yurd-yuvamızdan köçkün düşdüyümüz illərdə tale elə gətirdi ki, Qədir Rüstəmovla nənəmgil qapıbir qonşu oldu. Çox yaxın münasibətləri vardı. Birevli kimi idilər. Qədir Rüstəmovu, eləcə də onun ailəsini bütün qonşular çox istəyirdi. Həmcinin mən özum də. Qədir Rüstəmova olan sevgini, hörməti özü yaratmışdi bizlərdə. O, sadəliyi, səmimiliyi, zarafatları ilə hər kəsin könlünü alıb, istədiyi adamla həmsöhbət ola bilirdi. Elə mənim özümlə də çox maraqlı söhbətimiz alınırdı. O, hər zaman məni görəndə maraqlanırdı ki, institutda işlərim necə gedir? Deyirdi ki, “gələcəyin çox parlaqdır. Sən həm savadlı, həm də dilli-dilavərsən, jurnalistlika əsl sənin sənətindir. Əlbəttə ki, gələcəyin var”.

Bu cür sözləri böyük bir sənətkarın dilindən eşidib, onun xeyir-duasını almaqdan böyük nə ola bilərdi? Canlı tarixdən belə gözel sözləri eşitmək məni çox ruhlandırardı, sanki dünyanı mənə bağışlayardılar.

Bax, Qədir Rüstəmov mənim üçün bu idi - canlı tarix. Həmişə ona “baba” deyərdim. Nəinki mən, onu tanıyan usaqların hamısı Qədir Rüstəmova “baba” deyə müraciət edirdilər. Qədir Rüstəmov həmişə mənə deyərdi ki, “sən tamam başqa balasan, səni usaqlarımdan seçmirəm”.

***

Qonşuların yaddaşında Qədir Rüstəmovun necə yaşadığını öyrənmək üçün üz tutdum Oğuz rayonundakı keçmiş ünvanına. Qarşıma ilk çıxan nurani bir ağsaqqal oldu. Ağsaqqal mənimlə salamlaşıb, kim olduğumu, haradan gəldiyimi və nəhayət, kimi axtardığımı soruşdu. Mən də öz növbəmdə özümü təqdim edib, Qədir Rüstəmov haqqında maraqlanıb, məlumat toplayıb məqalə yazacağımı söylədim. Ondan xahiş etdim ki, bu işdə mənə yardımçı olsun.

- Quliyev Qərib - o, da özünü belə təqdim etdikdən sonra məmnuniyyətlə razı oldu:

- Qədir Rüstəmov haqqında danışacaqlarım çoxdu, qızım, - dedi. - Həə, qızım, qaçqınçılıq düşəndən bəri burada bizimlə qonsu idi. Özü də biz çox mehriban qonsu olmusuq. Burada dörd il yaşadıqdan sonra ailəsi ilə birlikdə köçub Bakıya getdilər. Artıq neçə illərdi ki, orada yasayırdılar, ancaq buna baxmayaraq, rəhmətlik tez-tez gəlib bizləri yad edərdi. Onunla bərabər çox gözəl günlər keçirmişik. Kaş ki, o günlər olaydı. Çox heyf ki, Tanri o nəcib, geniş ürəyə sahib olan insanı tez qoparıb aldı bizlərdən. O, cismən bizimlə olmasa da, ruhən əbədi bizimlədir. Onun olümünə inana bilmirik. Ölümündən 3-4 ay öncə görüşmüşdük. Heç nəyi yox idi. Ona görə də elə billrik bu dəqiqə qapıdan içəri girib “Kim var, eee?” deyəcək. Allah ona qəni-qəni rəhmət eləsin! Yeri behişt olsun! Onsuz da o, cənnətə sorğu-sualsız getdi. Çünki o, sağ ikən haqq dünyasını qazanmışdı. Həyat yoldaşım onun haqqında danışdıqlarımı təsdiqləyə bilər.

- Buyurun, nənə, siz də Qədir Rüstəmovla bağlı xatilrələrinizi danışın - dedim.

- Quliyeva Nazənin. Qədir qağam haqqında nə danışacağımı bilmirəm, ölümündən sonra onun haqqında danışmaq mənə çətindi. Qağamın yaxşılıqdan başqa heç nəyini görməmişik. Bakıda yaşamasına baxmayaraq, tez-tez gəlib bizimlə hal-əhval tutardı. Heç vaxt bizləri yaddan çıxartmazdi. O, elə bir insan idi ki, heç zərərli böcəyə də ziyan verib onu əzməzdi. Hər gələndə usaqlara şirni paylayıb könüllərini xoş edərdi. Qədir qağam xingəli çox sevərdi. Gələn kimi mən də soruşmadan xingəl bişirərdim. Halal xoşu olsun. Deyərdi ki, bu günləri heç öznə dərd eləmə, inşallah, qayıdacağıq öz yurd-yuvamıza. Bir də görərdik ki, səssiz-səmirsiz gecə gəlib evinə. Səhər açılanda deyərdim ki, ay Qədir qağa, niyə gəlib girməmisən bizə. Deyərdi ki, sizi narahat eləmək istəmədim. Halbuki bizlər onun hər gəlişindən sevinərdik, məzəli söhbətlərindən zövq alardıq. O qədər sadə, səmimi, təvazökar insan idi ki, vay o gündən onu ya tərifləyə, ya da haqqında xoş söz deyəydin, elə həmin an söhbətin axarını dəyişərdi. Biz yasadıqca onunla bağlı xoş xatirələrimiz də yaşayacaq. Qədir bizim üçün ölməyib, Ağdam camaatı həmişə onunla fəxr edib, qürur hissi keçirib, daim də belə olacaq. Allah məkanını cənnət etsin!

***

Qonşuların hamısı ilə söhbət etdim. Qədir Rüstəmovla bağlı xatirələrini dilə gətirən insanların gözlərinin dolması nəzərimdən qaçmadı. Bu insanlarla menim fikirlərim üst-üstə düsdü. Qədir Rüstəmov həqiqətən də bir həyat kitabı idi, onun kitabının səhifələri daim varaqlanacaq. Qədir Rüstəmova ümummilli lider Heydər Əliyev zamanında öz layiqli qiymətini verdi. “Xalq artisti” adına layiq görüldü, 1997-ci ildə isə milli musiqi mədəniyyətimizdə əvəzsiz xidmətlərinə görə ən ali mükafatla - “Şöhrət ordeni” ilə təltif edildi. Cənab prezident İlham Əliyev də öz diqqət və qayğısını böyük sənətkardan əsirgəmədi. Qədir Rüstəmovun müalicəsi üçün Heydər Əliyev Fondundan yarım milyon manat vəsait ayrıldı. Böyük sənətkarın ailəsi bu sayğı və hörmətə görə cənab Prezidentə minnətdar olduqlarını söyləyir. Qədir Rüstəmov sağlığında da dövlətin ona göstərdiyi diqqətdən razı idi.

***

Kaş ki, ömrün yetəydi sonuncu klipini görməyə. İctimai Televiziyanın rəhbəri İsmayıl Ömərov çox sağ olsun ki, sağlığında Qədir Rüstəmova yardımçı oldu, onun bir neçə klipinin çəkilməsinə yaxından kömək etdi. Elə sonuncu “Olmaz-olmaz” klipi də İsmayıl müəllimin dəstəyi ilə çəkilib. Kimlər ki kömək etmişdi Qədir Rüstəmova - halalı olsun, çünki buna layiq idi böyük sənətkar.

Qədir Rüstəmov İstambulun Acıbadem xəstəxanasında 3 ay xəstəliyi ilə mübarizə apardı, amma sonda ölüm qalib gəldi.

2011-ci il dekabrın 14-də Qədir Rüstəmov son nəfəsini verdi. Bu nəfəs onu gedişində dönüşü olmayacağı yerə apardı. Hər birimiz bilirik ki, o, mərd, üzüağ, alnıaçıq getdi haqq dünyasına. O, heç vaxt kimsənin haqqına sahib olmadı, kiminsə haqqını ayaqlar altına atmadı. Elə ona görə də haqq dünyası bu şərəfli oğlunu sevərək aldı öz ağuşuna.

Əminəm ki, Qədir Rüstəmov dünyasını dəyişdiyi gün düşmən taptağıı altında olan Qarabagımızın inilltisi yeri-göyü lərzəyə gətirdi, “Sona bülbüllər”imizin səsi əbədi susdu. O, ancaq xatirələrimizdə oxuduğu gözəl musiqiləri və insani dəyərləri ilə qalacaq. Əminliklə deyə bilərəm ki, bu insanı tarix təkrar etməyəcək. Düzdü, kimsə Qədirə oxşaya və ya səsini yamsılayan bilər, amma Qədir Rüstəmov ola bilməz. Qədir Rüstəmov Qarabağımızın, xüsusən də Ağdamımızın üfüqdə parlayan ulduzu deyil, günəşidir. O, hər zaman bizlərə öz isti şəfəqini saçacaq...

**Günay Allahverdiqızı,**
**Bakı Avrasiya Universitetinin tələbəsi**
**(2012-ci il)**

# Təbrik edirik!




Bu gün 44 günlük Vətən Müharibəsinin iştirakçısı, iki medallı Tural Məmmədlinin 26 yaşı tamam olur. Bu münasibətlə uşqalıqdan Qaqulya dediyim qəhrəman oğlumu, həm keçmiş döyüşçü, həm də döyüşçü atası kimi ürəkdən təbrik edirəm. Sənə Allahdan ən başlıcası can sağlığı və uzun ömür diləyirəm. Arzu edirəm bu il aldığın Texniki Universitetin diplomu üzrə gərəkən bir iş tapasan və o sahədə dövlətə, vətənə layiqli xidmət edəsən. Allah sənə həmişə xoş və mənalı günlər qismət eləsin və bütün arzularına qovuşasan. Ad günün, şad günün mübarək olsun, veteran oğlum!

Təbrik edirlər: 1-ci Qarabağ müharibəsinin veteranı, atan Elçin, anan Mehriban, bacın Nuray, xalan Mətanət, xalan qızı Natavan.

“Təzadlar” qəzetinin və eyni adlı saytın baş redaktoru Asif Mərzili və kollektivi də bu təbrikə qoşulur.

# Əliağa Vahidin Masazırdakı büstü yenidən zibil içində...

## Əliağa Vahidin qəzəllərini oxuyub Xalq artisti adını daşıyanlar bu mənzərəni görmür, yoxsa görüb də susurlar?

**...Masazır qəsəbəsində yerləşən, görkəmli qəzəlxan Əliağa Vahidin büstü ətrafında vəziyyət bir daha biabırçı hal alıb. “Təzadlar” bir müddət əvvəl sakinlərin şikayəti əsasında bu məsələni işıqlandırmış, görüntüləri Abşeron Rayon İcra Hakimiyyətinə göndərmişdik. Həmin vaxt qısa müddətli “təmizlik aksiyası” keçirildi, ətraf bir qədər səliqəyə salındı. Amma və lakin... Yenə də “köhnə hamam, köhnə tas” oldu. Çox keçmədi ki, hər şey yenidən əvvəlki vəziyyətinə qayıtdı (fotolar təqdim edilir). Bu gün isə, büstün ətrafı yenidən zibil içindədir. Azərbaycanın dahi şəxsiyyətinə münasibət budurmu???**





Masazırda yaşayan sakinlərin redaksiyamıza göndərdiyi yeni foto və video görüntülərdən sonra belə bir yazı araya, ərsəyə gəldi. Ərazidəki mənzərə insanı məyus etməyə bilməz: tullantılar büstün ətrafını tamamilə zəbt edib, səliqəsizlik və baxımsızlıq, sanki adi məhəllə zibilxanası təsiri bağışlayır. Bu isə təkcə bir sənətkara yox, milli mədəniyyətimizə göstərilən açıq hörmətsizlikdir.

**QEYD:** Əliağa Vahid Azərbaycanda qəzəl janrının XX əsrdəki ən qüdrətli nümayəndələrindən biridir. Nahaq yerə onu “XX əsrin Füzulisi” adlandırmırlar. Onun adına ucaldılmış büstün qarşısında bu cür mənzərənin hökm sürməsi isə, nə bələdiyyəyə, nə də bizim cəmiyyətə baş ucalığı gətirir. Daha acınacaqlısı isə odur ki, zibili elə bu ərazinin öz sakinlərindən bəziləri atır. Görəsən, onlar tullantını ora atarkən bir anlıq başlarını qaldırıb düşünmürlərmi ki, qarşısında zibil yığdıqları bu büstdə kim dayanır? Onun gözlərinə baxıb heç utanmırlarmı?

Şikayətlə, bağlı bu gün biz də ərazidə olduq... Gördüklərimiz utancverici idi. Utandıq- təbii ki, ilk növbədə Masazır Bələdiyyəsi sədrinin yerinə... Xəcalət çəkdik- Mədəniyyət Nazirliyi rəhbərliyinin yerinə... Axı, niyə? Ayıb deyilmi?!

Biz ötən yazımızda da bu sualı vermişdik. Amma indi artıq tam əminliklə və açıq şəkildə demək olar ki, bəli, 300 metr aralıda olan bələdiyyənin sədri bunu görür və bilərəkdən göz yumur. Nə müdaxilə edir, nə də davamlı şəkildə tədbir görüb bu biabırçı mənzərəni aradan qaldırır. Bəs niyə? Nədir səbəb? Yenə də cəzasızlıqmı!? Elə bil aidiyyəti qurumlar sözün əsl mənasında özbaşınalıqla işləməyə öyrəşiblər. Axı damarında azərbaycanlı qanı axan, vicdanı olan bir insan heç olmasa utanar, xəcalət çəkər və bu hal bir daha təkrarlanmasın deyə, çoxdan ciddi tədbir görərdi.

***

Bir sakin isə belə yazır: “Axı bu nə oyun-oyundur? O vaxt siz məsələni gündəmə gətirəndən sonra gəlib guya bir az təmizlədilər. Həmin gün hamımız ümidləndik ki, bəlkə də nəhayət, bu dəfə məsələ ciddi şəkildə nəzarətə götürüləcək. Amma görünən odur ki, o təmizlik sadəcə, kameralar üçün, görüntü xatirinə idi. Çünki çox keçmədi ki, ərazi yenidən əvvəlki halına qayıtdı. Bu gün isə büstün önü tamam zibil içindədir. Vallah-yalan olmasın, insan bu mənzərəni görəndə xəcalətdən yerə girir. Bu nədir belə? Əliağa Vahidin büstünün qarşısı həqiqətən də zibilxana olmalıdır? Biz hər dəfə deyib-danışandan sonra gəlib bir günlük təmizlik etməlidirlər? Bəs aidiyyəti qurumlar hara baxır? Məgər onların işi-gücü, ancaq şikayət gələndə qısa müddətlik reaksiya verməkdir? Onsuz da elə görünür ki, burda başqa nəsə var... Sanki kimsə qəsdən bu ərazini murdarlayır və belə çıxır ki, xüsusi adamlar var ki, Əliağa Vahidə nifrətini bu yolla göstərir. Yoxsa, başqa necə izah edək bu davamlı təkrar olunan biabırçılığı?”

Bəli, bu narazılıq tək bir sakinə məxsus deyil - ərazidən göndərilən çoxsaylı görüntülər göstərir ki, yüzlərlə insan bu laqeydlikdən narazıdır. Deməkki, aparılan “birgünlük təmizlik şousu” sadəcə görüntü idi və davamlı nəzarət yoxdur.

Bu isə, artıq adi səhlənkarlıq yox, mədəni irsimizə qarşı sistemli saygısızlıqdır. Maraqlıdır: bəs Əliağa Vahidin qəzəllərini sevə- sevə oxuyub Xalq artisti olanlar bir dəstədir... Bəlkə onlardan kimsə bu mənzərədən xəbərsizdir? İnanmırıq! Amma həm də inanmaq istəyirik ki, heç olmasa, bu yazını oxuyub- görüb qəzəlxana sevgilərini sübut etsinlər!

***

Əliağa Vahid öz qəzəllərində insan biganəliyini, laqeydliyi dəfələrlə tənqid edib. Bu gün Masazırda gördüyümüz mənzərə isə, o misraların canlı təsdiqidir:

**“Gör ki, nə gündədir bu cahan, biganədir insan...”**

Bu gün baş verənlər yalnız bələdiyyənin yox, həm də cəmiyyət olaraq bizim ayıbımızdır.

Əgər bir sənətkarın büstünün 3-5 metr ətrafını belə təmiz saxlaya bilmiriksə, deməli, dəyərlərimizi də yavaş-yavaş itirməkdəyik. Özü də şairin doğulub boya-başa çatdığı doğma yurd Masazırda belə bir biabırçılıq xüsusilə dözülməzdir. Görəsən, Masazır camaatı niyə öz eloğlularının büstünə sahib çıxmır?

Ümid edək ki, bu dəfə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı cənab Abdin Fərzəliyev ən azından Masazır Bələdiyyəsinin torpaq satmaqda adı daha çox hallanan sədri Azər Quliyevi kabinetinə çağırıb deyəcək: “Ayıb deyil... O boyda qəzəlxana hörməti olmayan bu rayonda bələdiyyə sədri ola bilməz və...”.

Sitatın sonu...

**Elşad FƏRMANOĞLU**



# Neftçilər Xəstəxanasının laboratoriyasının iş fəaliyyəti çöküb

***Paytaxtın məşhur xəstəxanalarından birinin - Mərkəzi Neftçilər Xəstəxanasının laboratoriyasında qan analizləri üçün xəstələrdən nümunələr götürülməsinə niyə “stop” qoyulub???***

**“Təzadlar”a bu barədə xəstəxanaya müraciət edən vətəndaşlar məlumat verib. Xəstəxanaya müraciət edənlərə bildirilir ki, vəziyyətin neçə gün davam edəcəyi naməlumdur. Səbəbi isə laboratoriyadakı qan analizini həyata keçirən cihazların çalışmaması ilə izah edilib. Xəstələrə yaxşı halda həftəsonu, yəni şənbə günü müraciət etmələri tövsiyə olunub.**

***

Bu hal isə artıq bir neçə gündür ki, davam edir. Vətəndaşlar hər gün acsusuz, bəziləri, hətta gündəlik dərman qəbulunu dayandıraraq laboratoriyanın çalışacağı ümidi ilə xəstəxanaya gedərək zamanlarını itirirlər. Məlum olduğu kimi, xəstəxanaya üz tutan insanların həftəarası müraciət etməsi iş saatını itirməsi, rəhbərlikdən icazə hesabına başa gəlir. Bu isə onların iş yerlərində bəzən problemlərə - vəzifəsini icra edə bilməməsinə yol açır. Nəzərə alsaq ki, müəssisəyə, hətta bölgələrdən gələrək müraciət edənlər də çoxdur, vəziyyətin nə qədər ciddi olduğunu anlamaq olar. Xəstəxana isə önləyici tədbir kimi bu barədə mediada heç bir məlumat vermir...

Ən pisi isə, həkimlər tərəfindən əvvəlcədən qan analizinə yönləndirilən xəstələrin cəmi 3 gün ərzində qan nümunələri vermək kimi məhdudiyyətli imkana malik olmasıdır. Müddət ötərsə, yenidən həkim qəbuluna düşmək lazımdır (Məlumata görə, artıq bəzi həkimlər yeni xəstə qəbul etmir və analizlərə yönləndirmir). Yəqin ki, xəstələrin günahı ucbatından baş verməyən bu hadisəyə görə bunu istisna hal kimi qəbul edərək laboratoriya öz iş fəaliyyətini bərpa etdikdən sonra həmin vətəndaşlara əlavə qayğı yaradılmayacaq.

***

Qeyd edək ki, daxil olan şikayətlər əsasında özümüz Neftçilər Xəstəxanasında olduq, müşahidələr apardıq... Məlum olur ki, həkim qəbuluna yazılmaq üçün canlı növbəyə dayanmaq lazımdır, amma bunun üçün də günlərlə gəlib-getmək lazım gəlir. Burada əsl izdiham yaşanır. Həkimlər bəlli sayda xəstə qəbul edir və bu limiti keçmək olmaz. Məsələn, endokrinoloq qəbuluna düşmək istəyən şəxs (əsasən Emin Ağabalayevin) mütləq mənada səhər 06.00-dan xəstəxanada keşik çəkməlidir, əks halda günlərlə yollarda qalacaq, əsəbləri korlanacaq. Hətta analiz nəticəsini belə həkimə göstərə bilməyən xəstələr də var... Nə həkimin qapısındakı izdiham buna imkan vermir, nə də qeydiyyat şöbəsi belə xəstələrin iş saatının sonunda həkimin resept yazmasına, yaxud, sadəcə, analiz nəticələrinə baxmasına şərait yaratmır - Qaydanı Pozmaq Olmaz! Xəstə isə gəlib-getməkdən yorulur, bezir.

***

Təəssüfləndirici mənzərədir... Əlavə edək ki, bu xəstəxanada kompyuterlərdə “sistem dondu” deyərək, xəstələrin ya həkimlərə, ya da laborator analizlərə yönləndirilməsində tez-tez fasilələr baş verir. Bu, bir neçə dəqiqədən bir neçə saatadək davam edir. İndi isə laboratoriyadakı vəziyyətin həftəsonunadək davam edəcəyi gözlənilir. Bu da qeyri-müəyyəndir. Konkret cavab yoxdur!

...Belə görünür ki, vəzifəsi xəstələrin dərdini aşkarlamaq olan laboratoriyanın öz dərdinə çarə olacaq (cihaz və kompyuterlərinə) savadlı mütəxəssislərə ehtiyacı var.

**JASMİN**

**P.S. Biz də özümüzə borc bildik ki, bu günlərdə Neftçilər Xəstəxanasının həkimlərinin qəbuluna gedərək qan analizi etdirmək üçün müraciət etmək istəyən xəstələri baş verənlər barədə əvvəlcədən xəbərdar edək... Və onları zamanlarını boş yerə itirmələri barədə məlumatlandıraq. Hansı ki, bunu xəstəxananın rəhbərliyi etməlidir...**

# Qırğızıstanda ən yaşlı deputatın 69, ən gəncinin isə 25 yaşı var – Azərbaycanda isə...

**Qırğızıstan Parlamentinə seçilən 90 namizədin ilkin siyahısına görə, parlamentin ən yaşlı üzvü Gülay Maşrapova olacaq.**

Tezadlar.az Qırğızıstan KİV-nə istinadən xəbər verir ki, o, 10 oktyabr 1956-cı ildə anadan olub və hazırda 69 yaşındadır. Xanım Maşrapova Oş vilayətinin Qara-Su rayonunun Bolşevik kəndində dünyaya göz açıb.

Gülay Maşrapova təqaüdçü kimi ərizəsini Qırğızıstan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim edib. Maşrapova əvvəllər Qara-Su rayon təhsil şöbəsinin müdiri vəzifəsində çalışıb.

Joqorku Keneşinin Prosedur Qaydalarının 8-ci maddəsinin 2-ci bəndinə əsasən, parlamentin ilk iclasını spiker seçilənə qədər sədr vəzifəsini icra edən ən yaşlı parlament üzvü açır.

Parlamentin ən gənc üzvü isə Bekmirza Çolponbaydır. O, 17 iyul 2000-ci ildə anadan olub və 25 yaşındadır. Onun son vəzifəsi - Qırğızıstan Respublikası Baş Prokurorluğunda mütəxəssis vəzifəsində olub.



Məlum olduğu kimi, Qırğızıstanda 30 noyabr tarixində növbədənkənar parlament seçkiləri keçirilib. Seçici siyahısında ümumilikdə 4.294.243 vətəndaş qeydə alınıb. Ölkə üzrə 2.492 seçki məntəqəsi açılıb.

Seçkilərin nəticələri 14 dekabr tarixinə qədər hesablanacaq və rəsmi olaraq elan ediləcək.

Qeyd edək ki, Azərbaycan Parlamentində deputatların bir çoxu yaşı yetmişdən yuxarı olanlardır.

Milli Məclisin ən yaşlı deputatı isə Ziyad Səmədzadədir - 85 yaşında. Ən gənc deputatımız isə 30 yaşlı Mahir Süleymanlıdır.

**Y.Məmmədli**

# Azərbaycanlı Ayşənin sərhədlər tanımayan istedadının sədası

## *Təbrizli Məhəmmədzadələr ailəsi dünya elm, sənət, musiqi xəzinəsinə layiqli töhfələr bəxş etməkdədir*



*İran Cümhur Başkanı Məsud Pezeşkiyandan ədəbiyyat üzrə mükafat alarkən*

**Mən - professor Kubra Əliyeva elmi-tədqiqat işlərimlə əlaqədar bir neçə dəfə İran İslam Respublikasında olmuşam. Və bu ölkəni, o cümlədən paytaxt Tehranı daha yaxından görmək, tanımaq o zaman nəsibim oldu ki, yanımda akademik təhsil alan təbrizli Mojgan Ebrahim qızı Nikbaxtedlonun - rəssam xanımın dəvətini reallaşdırdım, bir aya yaxın müddətdə İranı və Cənubi Azərbaycanı gəzdim.**



40-a yaxın Avropa ölkələrində, Amerikada olan bir tədqiqatdçı kimi qeyd etmək istəyirəm ki, İran öz memarlığı, incəsənəti sayəsində heç də Avropa ölkələrinin mədəniyyətindən geridə qalmır. Ən çox diqqətimi cəlb edən də memarlıqda tikinti üsulları oldu. Məlum olduğu kimi, İran Türkiyə və digər ölkələr kimi seysmik zonada yerləşib. Buna görə də Tehranda, Təbrizdə və digər şəhərlərdə tikilən müasir evləri



*Tehrandakı xalça muzeyi. İran. 2009*

çox möhkəm dəmir dayaqlarla qurur, sonra isə daş və kərpiclə tikirlər ki, bu da binaların möhkəmliyini artırır. Bundan əlavə, Mojgan xanımın çalışdığı Təbriz Universitetindəki təhsil sisteminə də diqqət yetirdim. Ən çox nəzərimi cəlb edən dizayn sahəsi oldu ki, son dövrlərdə Azərbaycanda da incəsənətin bu sahəsinə çox geniş yer verilmişdir. Ən çox bəyəndiyim İranda - Təbrizdə və Tehrandakı muzeylər idi. Və bu muzeylərdəki rəssam işlərinin səviyyəsi o qədər yüksək idi ki, təəccübümü gizlədə bilmirdim. Çünki, oğlumun yaşadığı Amerikada Nelson muzeyində son 15 ildə eksponatların dəyişildiyini görməmişdim. Həqiqətən, orta əsrlərdə olduğu kimi, bu gün də incəsənətin müxtəlif sahələrində, o cümlədən rəngkarlıq, miniatür, portret və digər sahələrdə də saysız-hesabsız rəssam tələbələrin işlərinə rast gəldim. Bundan əlavə, İranda Müasir İncəsənət Muzeyində qadın rəssamların heykəltaraşlıq işlərinin də necə yüksək səviyyədə müasir sənət tendensiyalarına aid dünya miqyasında görkəmli üslubları özündə əks etdirən formaların da şahidi oldum.

O ki qaldı azərbaycanlıların yaşadıqları Təbrizə, Ərdəbilə, həmin ərazilərdə şəxsi tikililər, yəni müasir bağçalı binalar, çox yığcam və yaşıllığı daha çox olan evlər diqqəti cəlb edirdi. Ən çox maraqlandıran məqamlardan biri, Tehranın mərkəzində tikilmiş Xalça muzeyi də öz memarlıq üslubuna görə diqqəti lap kənardan cəlb edirdi. Baxmayaraq ki, orada olduğum dövrdə xalçaların kolleksiyası o qədər də zəngin deyildi, halbuki dünya muzeylərinin tekstil kolleksiyasının məhz Azərbaycan və İran incəsənəti nümunələri ilə zənginliyi halında bu muzey o qədər də diqqət çəkmirdi. Mənim üçün maraqlı məqamlardan biri də, Tehranda “Bazarça” adlanan satış sahəsinin, həmin məkanın ayrı-ayrı kiçik satış nöqtələrində hər rəssamın, sənətkarın gözəl sənət əsərlərini satmaq hüququnun olması idi.

İran ərazisində yaşayan azərbaycanlıların əksəriyyəti ali təhsil almaq imkanına malikdirlər, iş yerləri ilə təmin olunublar. Mətbəxlərində isə həm Şimali Azərbaycandakı yeməklərlə bərabər, fars yeməklərində də ən çox ədviyyatdan istifadə edirlər. Tanış olduğum istər fars, istər azərbaycanlılarla çox gözəl münasibətlər qurduq, bu günlərdə çox təəssüf edirəm ki, artıq quru sərhədlər açıq olmadığına görə, bir daha səfər edə bilmədim.

Nəzərinizə çatdırım ki, 2025-ci ildə Azərbaycanda vaxtilə ali təhsil almış və doktorluq diplomu müdafiə etmiş Umbulbanu Həmidovanın - 25 ilə yaxındır Ərzurumda Atatürk Universitetinin Gözəl sənətlər bölümündə doktor-dosent kimi çalışaraq gələcək üçün rəssamlar hazırlayır - qonağı olduğum zaman Ərzurumun İslam dövrü memarlıq abidələrini, Müasir Arxeologiya Muzeyini də gəzib xeyli material toplaya bildim, universitetinin zəngin kitabxanasından bəhrələndim.

Qeyd etmək istəyirəm ki, Ərzurum “Universitetlər şəhəri” adlanır. Vaxtilə Atatürk məhz Ərzurumda təhsilin geniş yayılması üçün müxtəlif sahələri özündə əks etdirən universitetlər yaradılmasını tapşırmışdı. Şəhərin demək olar ki, yarısı ancaq universitet binalarından ibarətdir. Təhsil ocağının şöhrət qazanmasının əsas səbəblərindən biri də dünyanın müxtəlif ölkələrindən məşhur



*Ayşən*

alimlərin, pedaqoqların dəvət edilməsidir. Burada Bosniya, Makedoniya, Rusiya, Ukrayna, İran, Azərbaycan və digər ölkələrdən gələn müəllimlər daha yüksək keyfiyyət və reytinq üçün xeyli işlər görmüşlər. Həmin səbəbdən universitetdə təhsil alanların səviyyələri daha yüksəkdir.

Məhz Ərzurum Universitetində olarkən xaricdən gələn müəllimlərin bir çoxu ilə ünsiyyət qurdum, hətta ailə üzvləri ilə yaxından tanışlıq şəraitində toy, ad günü məclislərinə qatıldım. Qeyd etmək istəyirəm ki, Ərzurum əhalisi çox qonaqpərvər, istiqanlı və mehribandır. Mənim üçün onlardan ayrılmaq çox çətin idi və həmin insanları heç zaman unutmayacağam. Belə ki, əslən Təbrizdən olan, bədii keramika sahəsində məşğul bir rəssam-mütəxəssis kimi Dr. professor Mehdi Məhəmmədzadə hocamız və ailəsi ilə yaxından tanış oldum. Tanışlığımızın səbəbi Mehdi Muhammədzadənin qızının konsertinə dəvət almağımız oldu.

Artıq bir neçə ildir ki, Atatürk Universitetində çalışan, akademik təhsilini Fransanın Sarbonno Universitetində başa vuran Dr. professor Mehdi Məhəmmədzadə Makı şəhərindəndir (Güney Azərbaycanda Ağrıdağ ətəklərində yer alır). Uşaqlıqdan bəri teatra və rəsm çəkməyə həvəs göstərirmiş, ilk təhsilinə Tehranda başlamış, akademik biliklərini isə Parisdə tamamlamış, İrana döndükdən sonra 15 il Təbriz Sənət Universitetində çalışmışdır. 8 il özü qurduğu Gözəl sənətlər fakültəsinin dekanı olmuş, onun ardından isə 7 il Təbriz Sənət Universitetində rektor köməkçisi vəzifəsini icra etmişdir. Onun təşəbbüsü ilə Təbriz İncəsənət Universitetinin “İslam əl sənəti” məcmuəsinin nəşrinə başlanılmışdır.

Mehdi müəllimdən fərqli olaraq, ailə üzvləri və yaxın qohumlarının əksəriyyəti ali təhsilli həkimdir. Lakin ailədə təhsilini rəssamlıq sahəsi ilə bağlayanlar da var. Qızları doğulduqdan evdə sənət əsərləri və sənətlə bağlı kitablarla dolu mühitdə böyüdülər. Sənətlə əlaqəsi olmayan makılı Mirvari xanım belə, qızlarının sənət aləminə, həvəsinə mane olmayıb, hətta hər zaman dəstək verib. Buna görə də böyük qızı Rizvan viola (kaman) çalmağa, sonra isə eyni zamanda Təbrizin görkəmli göz həkimlərindən olan əmisi Arazın məsləhəti ilə tibb sahəsində təhsil almağa başladı, sonra isə davamını Türkiyədə başa vurdu.

Özü söylədiyi kimi, kiçik qızı Ayşən Məhəmmədzadə Fransanın Sarbonno Universitetində akademik təhsili alan zaman dünyaya gəlmişdir. Parisdə yaşamasına baxmayaraq, qızlarına türkcə ad seçməkdə israrlı olublar. İranın Parisdəki səfirliyinin yeni doğulan uşağa Ayşən adının qeydiyyata alınmasında yaratdığı çətinliklərə baxmayaraq, ailə israr və inadla sonda məqsədinə çatıb.

Mehdi hocamız eyni zamanda Cenevrə (İsveçrə) və Parisdə Sorbonna Universitetində akademik təhsilini İslam dünyasında rəssamlıq istiqamətində almışdır. Doktorluq işini başa vurub Təbrizə qayıtdılar. Çox qəribədir ki, Ayşənin böyük bacısı bu şəhərdə kaman sahəsi üzrə dərs alıb. Buna görə Ayşən də artıq bir az böyüyəndən sonra musiqiyə olan istəyini bildirdi. Anasının və babasının dəstəyi ilə Təbrizdə həm rəsm, həm də musiqi öyrənməyə başladı. Yəni həm məktəbə gedib dərs oxuyur, həm də musiqi təhsilini davam etdirirdi. Təbrizdə yaşadıqları illərdə Ayşən nəinki musiqi ilə ciddi məşğul olurdu, eyni zamanda rəngkarlığa da aid işlər ərsəyə gətirərək, sərgilərdə iştirak edirdi. O, gözəl şeirlər bilir, ədəbiyyata da həvəs göstərirdi. Hətta poeziya yarışmasında İranın indiki Prezidenti, o vaxt parlamentin üzvü olan Məsud Pezeşkiyandan da mükafat alıb.

Musiqi təhsilinə isə 8 yaşından etibarən Təbriz Pezvak Akademiyasında başlayıb. Onun ilk musiqi müəllimi Fərid Şeyxülislami olmuşdur.

Ayşən 13 yaşına qədər Təbrizdəki Paşvök və Ark məktəblərində piano öyrənciliyini davam etdirdi. 2022-ci ildə ailəsi ilə birgə Ərzuruma gəldikdə, yəni Payamüzik Akademisində piano çalışmalarına davam etdi. Bu dəfə onun müəllimi Azərbaycanın görkəmli piano müəllimlərindən professor Hekmət Məhərrəmova, daha sonra tələbələrindən biri, Doğukan idi. Ayşən Şərq və Qərb musiqisini eyni anda ifa bacarıqlarını öyrəndi. Dünya bəstəkarlarının əsərləri, İran, Türkiyə və Azərbaycan piano bəstəçilərinin mahnılarını öyrəndi. Hətta Payamuzik Akademisində Atatürkün məşhur “Yurdda sülh, cahanda sülh” devizi altında təşkil olunmuş konsertdəki 2 saatlıq çıxışında bütün insanlara sülh və



*Ərzurum, Atatürk Universiteti Gözəl sənətlər bölümü, 2-ci kurs tələbələri ilə*

əmin-amanlıq arzuladı: “Dünya, insanların bir-birini anlaması, saygı göstermesi ve birlikte mutlu bir şekilde yaşamasıyla daha güzel bir yer haline gelir. Hepimiz farklıyız, ama farklılıklarımızı kabul ederek daha güçlü bir toplum olabiliriz. Tüm bu değerler, bir toplumun huzur içinde varlığını sürdürebilmesi için gereklidir. İşte bu yüzden, Atatürk”ün söylediği gibi, “Yurtta sulh, cihanda sulh”... Bu, hem kendi ülkemizde hem de tüm dünyada barışın hakim olması gerektiğini anlatan çok derin bir mesajdır.”



*Ayşən Ərzurum Payamuzik Akademiyasının piano müəllimləri ilə*

Hazırda Ayşənin 16 yaşı var, Ərzurumdakı Nevzat Qarabağ Liseyinde üçüncü sınıf öyrəncisidir. Musiqinin digər sahələrində də bacarığını göstərmiş, ana dili olan Azərbaycan türkcəsinin, bəzən də İstanbul türkcəsi, farsca və ingiliscə də kifayət qədər sərbəst şəkildə danışır, eyni zamanda riyaziyyata da çox bağlıdır. Son 5 ildə “SASMO Uluslararası Matematik Olimpiadası”nda 5 dəfə gümüş və bürünc medallar qazanmışdır.

Diğər ədəbiyyat və sənət sahələrində də fəaliyyət göstərmiş, tələbə yarışmalarında beynəlxalq yarışmalarda dərəcələr əldə etmişdir.

Ayşənin 21 iyun 2025-ci il tarixli, Ərzurum Payamuzik Akademisinin Fransşubert salonunda keçirilən son konsertində iştirakım zamanı - 2 saat davamlı olaraq Azərbaycan, İran, Türkiyə və Avropa bəstəkarlarının əsərləri səsləndirildi. Azərbaycandan Emin Sabitoğlu, Səid Rüstəmov, İrandan Anuşiravan Ruhani, Türkiyədən Fazil Sayın bəstələdiyi əsərlər səslənməklə bərabər, Lüdviq Bethoven, Fridrix Şopen, Motsart, Antoni Vivaldi, Muzyo Klementi, İyohan Sebastiyan Baxın əsərləri də ifa edildi. Həqiqətən, 16 yaşlı bir qızın iki saat ərzində bu qədər əsərləri peşəkarlıqla ifası bizi, şəxsən məni valeh etdi. Ayşən Mehdi qızı Məhəmmədzadəyə cansağlığı, xoşbəxtlik və gələcək işlərində uğurlar diləyirəm!

Mən bir azərbaycanlı, sənət sahəsinin bilicisi kimi, dünyanın bir çox ölkələrində - İspaniya, Fransa, Moskva, Amerika və s. konsertlərdə iştirak edib dinləmişəm. Həqiqətən 16 yaşlı azərbaycanlı gəncin fenomen



*Ayşən, onun valideynləri və Payamuzik Akademiyasının professorları ilə görüş*

ifasını dinləyəndən sonra onların valideynlərinə təşəkkürümü bildirirəm! Valideynləri qədər sevinirəm və Ayşənə söyləyirəm ki, yolun açıq olsun, tez bir zamanda səni dünya tanıyacaq. Səninlə fəxr edirəm!

**KÜBRA ƏLİYEVA,**
*sənətşünaslıq üzrə elmlər doktoru, professor, Əməkdar incəsənət xadimi, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun baş elmi işçisi*

# Azərbaycanda STEAM təhsili 5 ildə...

**Xəbər verildiyi kimi, Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə 17-19 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində Beynəlxalq STEAM Azərbaycan Festivalı (SAF 2025) keçirildi... Festivalla bağlı bəzi məqamları diqqətinizə çatdırmaq istəyirəm.**

*STEAM - beş əsas sahənin birgə və inteqrasiya olunmuş şəkildə tədrisini əhatə edən modeldir. Bu yanaşma elm (Science), texnologiya (Technology), mühəndislik (Engineering), incəsənət (Art) və riyaziyyatın (Math) birgə öyrədilməsi ideyası üzərində qurulub.*

Beynəlxalq STEAM Azərbaycan Festivalı 2021-ci ildən etibarən hər il Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə həyata keçirilir. Festivalın keçirilməsində məqsəd STEAM əsaslı tədrisin təşviqi, təhsilalanlar arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı təhsilalanların aşkara çıxarılması, eləcə də STEAM əsaslı yanaşmanın tətbiqi ilə ətraf mühitin sağlamlaşdırılması, su ehtiyatlarından və alternativ enerji mənbələrindən səmərəli istifadəyə dair innovativ həll və layihələrin hazırlanmasının təşviq edilməsidir. STEAM Azərbaycan Festivalı ilk dəfə 9-10 dekabr 2021-ci il tarixlərində təşkil olunub.




Bu il noyabrın 17-də Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə 17-19 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq STEAM Azərbaycan Festivalına (SAF 2025) start verildi.

Açılış mərasimində dövlət qurumlarının rəsmiləri, millət vəkilləri, rektorlar, ETN-in elmi-tədqiqat institutlarının direktorları, beynəlxalq təşkilatların təmsilçiləri, media qurumlarının rəhbərləri, təhsil mütəxəssisləri, tanınmış ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Dövlət Himni səsləndirildikdən sonra SAF festivalının 5 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub.

Açılış nitqi ilə çıxış edən "STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov layihənin fəaliyyətinə dair statistik göstəriciləri diqqətə çatdırıb. Bildirilib ki, "STEAM Azərbaycan" layihəsi 300 mindən çox şagird və 400-dən çox məktəbi əhatə edir. Hazırda STEAM dərsləri III-IX siniflərdə tədris olunur. Ölkə üzrə 21 STEAM Mərkəzi fəaliyyət göstərir.

İqrar Nəzərov qeyd edib ki, bu festival yalnız müsabiqə deyil, həm də ölkəmizin gənclərinə qlobal bilik mübadiləsində iştirak imkanı yaradan beynəlxalq platformadır.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayevin sözlərinə görə, Azərbaycanda STEAM təhsilinin 5 il ərzində böyük inkişaf yolu keçməsi, minlərlə şagirdin bu prosesə qoşulması və innovativ düşüncənin təhsil sistemində genişlənməsi festivalın əhəmiyyətini daha da artırır.

STEAM təhsilinin əsas komponentlərinə toxunan Emin Əmrullayev qeyd edib ki, artıq ilk illərlə müqayisədə 50 dəfədən çox tədris resursu, metodologiya və sistem modeli tətbiq olunur. Nazir 2027-2030-cu illərdə STEAM-ın Azərbaycan təhsilinin əsas aparıcı məzmununa çevriləcəyini vurğulayıb.

Qeyd edildiyi kimi, bu il artıq 5-ci dəfə təşkil olunan STEAM Azərbaycan Festivalı çərçivəsində 16 əsas və 2 alt kateqoriya üzrə yarışlar baş tutub. Festivalda Azərbaycanla birgə ümumilikdə 22 ölkə təmsil olunub.

***"Qeyd edildiyi kimi, bu il artıq 5-ci dəfə təşkil olunan STEAM Azərbaycan Festivalı çərçivəsində 16 əsas və 2 alt kateqoriya üzrə yarışlar baş tutub"***

Festivalın əsas məqsədi STEAM əsaslı tədrisin təşviqi, təhsilalanlar arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı gənclərin üzə çıxarılması, eləcə də innovativ layihə və həllərin hazırlanmasının dəstəklənməsidir.

STEAM - beş əsas sahənin birgə və inteqrasiya olunmuş şəkildə tədrisini əhatə edən modeldir. Bu yanaşma elm (Science), texnologiya (Technology), mühəndislik (Engineering), incəsənət (Art) və riyaziyyatın (Math) birgə öyrədilməsi ideyası üzərində qurulub.

Noyabrın 20-də Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə 17-19 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq STEAM Azərbaycan Festivalının (SAF 2025) bağlanış mərasimi keçirildi.

Tədbir çərçivəsində hər kateqoriya üzrə keçirilən yarışlarda I yerin qalibləri mükafatlandırıldılar.

Qaliblər arasında Azərbaycan, Türkiyə, Pakistan, Qazaxıstan və Slovakiyanın təmsilçiləridir.

Xatırladaq ki, festival çərçivəsində 18 yarış kateqoriyası üzrə 20-dən artıq ölkədən minlərlə şagird, tələbə, mentor və ekspert iştirak edib. Yarış kateqoriyaları robototexnika, süni intellekt, bərpaolunan enerji, dron və peyk texnologiyaları, incəsənət, innovativ la-



yihələr və mühəndislik sahələrini əhatə edib.

Bağlanış mərasimində açılış nitqi ilə çıxış edən "STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov yarışların nəticələrinə dair hesabatı diqqətə çatdırıb. Ardınca Beynəlxalq STEAM Azərbaycan Festivalı 2025-ə dair videoicmal nümayiş etdirilib. Sonra hər kateqoriya üzrə keçirilən yarışlarda I yerin qalibləri mükafatlandırılıblar. Bildirilib ki, I yer tutan qalib komandalar Azərbaycan, Türkiyə, Pakistan, Qazaxıstan və Slovakiyanı təmsil edirlər. Mükafatlandırma mərasimi bədii hissə ilə başa çatıb.

Onu da qeyd edim ki, festival çərçivəsində keçirilən yarışlarda təhsil aldığım Bakı şəhəri 212 nömrəli tam orta məktəbin direktoru Sevil Cavadova da iştirak edib.

**Səma TAĞIZADƏ,**
**Bakı şəhəri 212 nömrəli tam orta məktəb**

## ATAMIN ANIM GÜNÜ

Ata, dövrəndəyik bu qəmli gündə;
Sən ki, möhnətdəsən, başa düşürük.
Öpürük şəklini qəbir evində,
Səninlə xəyalən biz görüşürük...

Biz işıqdayıq, sənsə zülmətdə,
Bəlkə yerlərimiz səhv düşüb bizim...
Dərdini çəkməkdən, çatdım son həddə;
Əyildi qamətim, tutuldu gözüm.

Bizə ayrılığı sən necə qıydın?..
Partlayır ürəyim, bircə danış, din.
Sən ki, bu dünyaya həddsiz bağlıydın,
Niyə süqut etdi yaşamaq eşqin?..

Görürəm yarımçıq qalan işini,
Əlimi göynədir əlin dəyən yer...
Qoymaq istəmirəm məzarda səni;
Ata, təki mənə sən əlini ver!..



**Ramiz MÖVSÜM**

Qoyub, hara getdin bu təbiəti?..
Aldığım havanı sən də al, ata.
Heyif ki, gördüyüm xəyalın idi,
Əlin uzanıqlı qaldı həyata!..

**13 oktyabr, 2025.**

# Azərbaycan Dillər Universiteti niyə akkreditasiyadan niyə keçə bilməyib?



**Ölkə mediasında təhsil ictimaiyyətini düşündürən və narahat edən bir məsələ gündəmi zəbt edib. Uzun illərdən bəri böyük ənənəsi olmuş Azərbaycan Dillər Universitetinin adına uyğun gəlməyən bir məsələnin şahidiyik. Söhbət Professor, yazıçı, dramaturq Kamal Abdullanın rektor olduğu universitetlə bağlı ortaya çıxan narahatlıqdan gedir. Mətbuatda yayılan məlumatlardan belə məlum olur ki, fəaliyyətindəki çatışmazlıqlar aşkarlanan Azərbaycan Dillər Universiteti (ADU) rəsmi akkreditasiya prosesindən keçə bilməyib. Niyə, nə baş verir?**

Rəsmi qaynaqlarda bu barədə ətraflı məlumata rast gəlinməsə də, həm də o bəllidir ki, universitetin adı bir müddətdir təhsil islahatları meydanında hallanmır. Yəni, ictimaiyyət bu universitetlə bağlı yaxşı nələrinsə şahidi olmur. Bu, ola bilsin çoxsaylı vəzifələr tutan rektor Kamal Abdullanın rəhbərirektoru olduğu universitetə az diqqət ayırmasından qaynaqlanır. Amma komanda onda nə işlə məşğuldur və kimi və ya nəyi gözləyir? Axl dünyanın dilini bilmək üçün bu təhsil ocağı unikal bir məkandır, keçmiş ənənəsi var... Xarici ölkələrin oxşar universitetləri ilə əməkdaşlıq niyə olmasın???

***

*Məlum olur ki, akkreditasiya komissiyası universitetdə tədrislə bağlı ciddi uyğunsuzluqlar aşkarlayıb:*

**-Tədris proqramları ilə əmək bazarının tələbləri arasında uyğunsuzluq;**

**-Elmi-tədqiqat fəaliyyətində keyfiyyət göstəricilərinin aşağı olması;**

**-Maddi-Texniki baza avadanlıqlarının çatışmazlığı;**

**-İdarəetmədə şəffaflıq problemləri.**

Beləliklə, təəssüf edirik ki, gözəl ənənələri olan universitetin adı indi belə bir problemli məsələlərlə diqqətə gətirilib...

**"Təzadlar"**

*BU İSƏ KAMAL ABDULLANIN TUTDUĞU VƏZİFƏ VƏ SƏLAHİYYƏTLƏR:*

- 1984-1987-ci illərdə Xarici Dillər İnstitutunun "Ümumi və Azərbaycan dilçiliyi" kafedrasının müdiri.
- 1988-1990-cı illərdə Azərbaycan Mədəniyyət Fondunun (Hazırda Azərbaycan Yaradıcılıq Fondu) sədrinin birinci müavini, 1990-cı ildən Fondun İdarə Heyətinin sədri.
- 1990-cı ildə M.F.Axundov adına Rus dili və ədəbiyyatı İnstitutunun "Ümumi və rus dilçiliyi" kafedrasının müdiri seçilib.
- 1993-cü ildən 2000-ci ilədək yenidən Xarici Dillər İnstitutunun "Ümumi və Azərbaycan dilçiliyi" kafedrasının müdiri.
- 1994-1995-ci illərdə Bursa (Türkiyə Respublikası) Uludağ Universitetinin "Türk dili və ədəbiyyatı" bölümünün professoru olaraq fəaliyyət göstərib.
- 2000-ci ilin may ayında M.F. Axundov adına Rus dili və ədəbiyyatı İnstitutunun rektoru təyin edilib.
- 2000-ci ilin iyun ayında ölkə Prezidenti Heydər Əliyevin sərəncamı ilə yeni təşkil olunmuş Bakı Slavyan Universitetinin rektoru təyin edilib. 2014-cü ilin fevral ayına qədər rektor kimi fəaliyyət göstərib.
- 2011-2014-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər bölməsinin akademik-katibi vəzifəsində çalışıb.
- 2014-cü ilin fevral ayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri təyin edilib.
- 2015-ci ildə "ADA" Universitetində "Azərbaycançılıq" fənnini tədris etmişdir.
- Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 19 noyabr 2014-cü il tarixli Sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü təyin edilmişdir.

-28 noyabr 2014-cü il tarixində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının ilk iclasında bu qurumun Himayəçilik Şurasının sədri seçilib.

- 2017-ci ildən Azərbaycan Dillər Universitetinin rektorudur.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq:

ABŞ (Kolumbiya Universiteti, Harriman İnstitutu), Fransa (İnalko və Strasburq Universitetləri), Almaniya (Mayns Universiteti), Rusiya (Moskva Dövlət Linqvistik Universiteti, Pedaqoji Universitet, Dilçilik İnstitutu), Türkiyə (Uludağ Universiteti), Polşa (Varşava Universiteti), Gürcüstan (Tiflis Dövlət Universiteti), İtaliya (Salesian Vatikan Universiteti) universitetlərində mühazirələrlə çıxış etmiş, bir çox beynəlxalq simpozium, konfrans və kollokviumların (Gürcüstan, Rusiya, Fransa, Almaniya, İngiltərə, İsveç, Yunanıstan, İtaliya və b. ölkələrdə) təşkilatçısı və iştirakçısı olub.

REDAKSİYADAN: Bu qədər vəzifə tutan rektorun universitetin vəziyyəti ilə məşğul olmağa vaxtı hardan olsun?! Biz hələ hörmətli rektorun bədii yaradıcılığını demirik... Adam yüz yerə parçalana bilməz axı!

Nə isə...

# TƏZADLAR

08 (2396) 09.12.2025 www.tezadlar.az


# Həftəbecər





Müğənni sayılan Elton Hüseynəliyev əvəzolunmaz sənətkarımız, milyonların sevimlisi Flora Kərimova haqqında belə bir qanacaqsızlıq edərək deyib: **"Onun 500 mahnısından 100-ü "yağ-bal", yerdə qalan 400-ü isə təkrardı".**

Flora xanımın da cavabı çox gecikməyib: **"Sənətim barədə danışmağa mənim törtöküntülərimlə sənətkar olub, sizə örnəklik edənlərin səviyyəsinə çatanda haqqınız olacaq. Sənətimi müzakirə etmək üçün isə, sizin dilinizdə deyim, Elton o "100 qaymaq mahnıdan" yox, Qızıl Fondda 400 "dəxlisiz" dediyiniz ifalarımın birinin səviyyəsində tək sən yox, elə ustadların da daxil, oxuya bilsəniz, onda danışmağa haqqınız çatar".**

**P.S. Ey gidi dünya, kəsək oturub, daşın gününə ağlayır". Görün nə günə qalmışıq ki, qarğa oturub, bülbül haqqında fikir yürüdür. Belə yerdə Flora xanımın oxuduğu "Harda bir it varsa, gəlib qapar məni" mahnısı yada düşür. Adama deyərlər ki, ay Elton, axı sən hansı sənətin sahibisən ki, korifey sənətkarımız Flora xanım haqqında söz deməyə cəsarət edəsən? Belə fikirləşəndə Elton bəyi başa düşmək olar. Səs yox, sənət yox, gündəmdə də qala bilmir. Bəs gündəmə necə gəlsin ki, çörək qazana bilsin? Əşi, eybi yoxdur, Flora xanımın ürəyi yumşaqdır. O qədər ona belə Elton kimi dil uzadanlara çörək verib ki, biri də qoy olsun Elton bəy. Qoy Elton bəy Flora xanımın adını çəkib bir tikə çörəyini qazansın...**

***

Ötən həftə Milli Məclisdə "2026-cı ilin dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılaraq qəbul edilib. Bütün sahələrə pul ayrıldığını bildirən maliyyə naziri Sahil Babayev bu büdcəni sosialyönümlü adlandırıb.

**P.S.Pahoooo! Nə danışır ə bu nazir? O necə sosialyönümlü büdcədir ki, Qarabağ Veteranlarının aylıq təqaüd pulu bildir 80 manatdan o yana keçmir... Və bir manat da əlavə olunmadı. Bu 80 manat veteranlara 2019-cu ildə kommunal, nəqliyyat və rabitə xərcləri üçün ayrılmışdır. Ötən bu 6 il ərzində nəqliyyatda gediş haqqı 20 qəpikdən 60 qəpiyə qalxıb. İnternet o vaxt 10 manat idi, indi isə 25 manatdır. Kommunal xidmətlər də o vaxtdan bəri üç dəfədən çox artıb. İstilik pulunu isə gizli şəkildə, heç bir xəbərdarlıq edilmədən qeyri-yaşayış sahələri, eyvan, dəhliz, hamam, mətbəx də daxil olmaqla hesablayıblar. Belə olan surətdə, Vətən yolunda canını əsirgəməyən və diri şəhidlər olan veteranlara bu ögey münasibətin səbəbi nədir? Niyə o səksən manat bazara uyğun artırılmasın? Yoxsa, Sahil Babayev Ramiz Mehdiyevin kadrı kimi ermənilərə güllə atan veteranlardan qisas alır. Daha bu qədər də haqsızlıq olmaz axı?**



Məlumatlara görə, müğənni Almaz Sarayli oğlunun toyuna heç bir müğənni çağırmayıb.

**P.S.Almaz Saraylıya halal olsun, mən ölüm. Görünür Almaz xanımın məclisi çox abırlı, həyalı bir məclis olub. Ona görə də abırlı olmayan müğənniləri haqlı olaraq öz məclisinə dəvət etməyib.**









Açıq-saçıq geyinənlərin kitabı bağlanacaq. Belə ki, bu günlərdə açıq-saçıq geyinənlərə qanunun dili ilə desək, "İnsan bədəninin mənəvi dəyərlərə uyğun olmayan formada göstərməsini qadağan edən qanun" Milli Məclisə təqdim edilib. Qanuna əsasən, açıq-saçıq geyinənlər 500 manatdan 1000 manata qədər cərimə olunacaqlar.

**P.S. Belə yerdə deyiblər e, yandı qızın dədəsi. İndiyə qədər efirləri soyunub, lüt-ətcə bala olmaqla "bəzəyənlərin" meydanı daralacaq və abır-həyalı geyinməyə məcbur olacaqlar. Amma bu qanunun mənfi tərəfi də var. Belə ki, sponsorlar qanun qəbul ediləndən sonra müğənnilərin çöldə qoyduqları mallarına baxmamış bir manat da verməyəcəklər. Hamı bilir ki, indiki dövrdə müğənnilərin 90 faizi səsləri, sənətləri ilə yox, bədən əzalarını göstərməklə qabağa gedirdilər. İndi bundan da məhrum olacaqlar və baş-qulağımız bunların əlindən dincələcək. Bu yerdə şair Səhlədar Hidayətoğlunun "Müğənni qız" şeirindən bir bənd yada düşür:**

**"Nələrdi yoluna səpilən sənin,**
**Nələrdi gözünə təpilən sənin,**
**Kimdir sənətinə tüpürən sənin,**
**Sən ver bədənindən bac, müğənni qız".**

**Deməli, daha şou-müğənni qızlar bədənindən bac verməklə müğənni ola bilməyəcəklər. Bu, o deməkdir ki, efirlərimiz "dezinfeksiya" olunacaq və daha lütlənmişlərə rast gəlməyəcəyik.**

***

ATƏT-in Minsk Qrupunun uzun illər faydasız olmasından bəhs olunan yazıya qəzetlərin birində belə bir başlıq qoyulub: "ATƏT özü Minsk Qrupunun 30 illik uğursuzluğuna heç bir qiymət vermədi - anormallıq..."

**P.S. Əksinə, tam normaldır. Axı, ATƏT-in özü hansı səlahiyyət sahibidir və hansı bir müsbət fəaliyyətə imza atıb ki, onun bic doğulmuş Minsk qrupuna da hansısa qiymət versin? Azərbaycanda və Ermənistanda Minsk qrupunun 30 il ərzində yeyib-içməkdən başı açılıbmı ki, Qarabağ probleminin həlli ilə də məşğul olsunlar? Ona görə də ATƏT-in özü Minsk qrupu ləğv edilərkən heç bir qiymət verə bilmədi.**

***

"Ramiz Mehdiyev işi" ilə əlaqədar AXCP sədri Əli Kərimlinin, onun məclis üzvü Məmməd İbrahim və bir çox üzvlərinin həbsi ciddi suallar doğurub.

**P.S. Maraqlıdır, niyə bu kütləvi həbslər Ramiz Mehdiyevin əsas kadrları olan və yüksək vəzifə daşıyan akulalardan yox, kilkələrdən başladı?**

***

Qəzetlərin birində N.Paşinyanın kilsəyə hücumundan bəhs edən yazıya belə başlıq qoyulub: "Paşinyanı kilsəyə və diasporaya qarşı yönəldən rəsmi Bakıdır".

**P.S. Rəhmətliyin oğlu, bəs necə olmalıdır? Əgər İrəvan qədim Azərbaycan torpağıdırsa, onda orada baş verənlərə biganə qala bilmərik axı. Bizim də bir nömrəli düşmənlərimiz erməni kilsəsi və diasporasıdır. "Düşmənimin düşməni mənim dostumdur" prinsipi ilə Paşinyana hər cürə kömək etməliyik ki, əsl düşmənlərimizi məhv eləsin. Onların məhvindən sonra N.Paşinyana bir az da dəstək versək, Xocalı qatilləri, həm də Nikol müəllimin real düşmənləri Köçəryanla, Sarkisyanı da tutub bizə verəcək. Hadisələr elə deyəsən, buna doğru gedir...**

***

Müğənni Təranə Qumral əri Musa Musayevdən şikayətlənərək deyib: "Qonşu kişilərlə saatlarla nərd oynayırlar. 2 saat, 3 saat, 5 saat oynayır. Gəlib yeyir-içir, yenə çağırırlar aşağı. Bir gün o qonşuları rüsvay edəcəm. Bir də görürsən yığışıb getdilər ova. Gedib, qaşqaldaq, ördək vurub gətirirlər. O sevir narla bişirəndə. Ona o yeməyi heç kim bişirə bilmir. Ən yaxşı mən bişirirəm, yeyir".



**P.S. Ay Təranə xanım, bax, indi biz neyləyək? Müğənni var qaşqaldaq yeyir, müğənni də var ki, özü elə qaşqaldaqdır. Bəs belə müğənnilərin xanımları nə etsinlər? Hər gün belə qaşqaldaqlarla üzüzə gəlməyə məcburdurlar axı. Belə çıxır ki, o xanımlar həmin müğənni qaşqaldağı narla bişirib yeməlidirlər? Allaha şükür ki, Musa Musayev özü qaşqaldaq deyil, özü qaşqaldaq yeyir. Tərənə xanım, ay rəhmətliyin qızı, sən də çox dərinə getmə dəəə...**




ELÇİN
elcinmemmedli
58@gmail.com



Baş redaktor:
Asif Mərzili

Redaksiya heyəti:
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 1233
Çapa imzalanmışdır:
08.12.2025